RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 172 (10192) 22 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# TDT-nin gücləndirilməsi zamanın tələbidir

## İlham ƏLİYEV: "Regional təhlükəsizliklə bağlı məsələlər çox mühüm əhəmiyyət kəsb edir"

TDT məkanı həm də qlobal iqtisadiyyatın aparıcı qovşaqlarından biridir. Azərbaycanın Avropa ilə Asiya arasında körpü rolu oynaması, Mərkəzi Asiyanın zəngin resurslarının beynəlxalq bazarlara çıxarılması bu birliyin geoiqtisadi çəkisini artırır.

2009-cu ildə Naxçıvanda qoyulan bünövrədən bu günə qədər keçilən yol göstərir ki, TDT artıq regional çərçivədən çıxaraq qlobal miqyasda söz sahibinə çevrilir. Təşkilatın qeyri-rəsmi Zirvə görüşlərinin, məsələn, Şuşa Zirvəsinin keçirilməsi liderlər səviyyəsində çevik qərarların alınmasını asanlaşdırır.

Bu quruma üzv ölkələrin bir çoxunun, o cümlədən Azərbaycanın müstəqilliyinin ilk illərində qarşılaşdığı çətin sınaqlar artıq geridə qalıb. Bu gün Mərkəzi Asiyadan Qafqaza qədər uzanan türk dünyası gənc dövlətlərin inkişafı ilə qlobal güc mərkəzi kimi formalaşır.

Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, ölkələrimiz böyük təbii ehtiyatlara malikdir və bu da böyük üstünlükdür: "Bu təbii ehtiyatlar dövlətlərimizin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir, həmçinin bütün dünya üçün mühüm rol oynayır. Xüsusilə sərhədlərimizin perimetri boyunca mövcud olan bugünkü şəraitdə enerji təhlükəsizliyi ilə bağlı məsələlər mühüm əhəmiyyət kəsb edir".

Azərbaycanın Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanla imzaladığı müttəfiqlik bəyannamələri, o cümlədən Qazaxıstan, Özbəkistan və Qırğızıstanla yaradılan birgə investisiya fondları həm də TDT çərçivəsində iqtisadi inteqrasiyanı daha da dərinləşdirir.

Təşkilat artıq, sadəcə, regional əməkdaşlıq platforması yox, ortaq soy-kökə, ən əsası isə gələcəyə birgə irəliləmək iradəsinə söykənən sarsılmaz gücdür. Təşkilatın hər bir üzvü gücləndikcə, türk dünyası qlobal xaosun ortasında sülhün və tərəqqinin ən etibarlı ünvanına çevrilir, təhlükəsizlik adası kimi diqqəti cəlb edir.

5



## Prezident İlham Əliyevin sosial media hesablarında Dövlət Suverenliyi Günü ilə bağlı videoçarx paylaşılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında 20 Sentyabr - Dövlət Suverenliyi Günü ilə bağlı videoçarx paylaşılıb.

**https://www.facebook.com/reel/1116161304100509**

## Birinci vitse-prezident Mehriban Əliyeva 20 Sentyabr - Dövlət Suverenliyi Günü münasibətilə paylaşım edib




## Azərbaycanın dünyada artan nüfuzu: *fəal diplomatiya və milli maraqlara əsaslanan siyasət*

Azərbaycanın xarici siyasətində əsas xüsusiyyətlərdən biri milli maraqlara söykənməsi, eyni zamanda müxtəlif güc mərkəzləri ilə qarşılıqlı faydalı münasibətləri inkişaf etdirməsidir. Bu yanaşma ölkənin xarici siyasətini birtərəfli asılılıqdan uzaq tutmağa, müxtəlif istiqamətlərdə əməkdaşlıq imkanlarını genişləndirməyə şərait yaradıb.

Bu siyasətin formalaşmasında Prezident İlham Əliyevin ardıcıl, məntiqli və çoxvektorlu siyasi xətti xüsusi əhəmiyyət daşıyır. Burada "çoxvektorlu" anlayışı, sadəcə, müxtəlif ölkələrlə əlaqələrin genişləndirilməsi kimi başa düşülməməlidir. Söhbət Azərbaycanın eyni vaxtda müxtəlif siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar platformalarda öz milli maraqlarına uyğun iştirak etməsindən gedir. Avropa ilə enerji və nəqliyyat əməkdaşlığı, Asiya ölkələri ilə iqtisadi və siyasi əlaqələrin dərinləşdirilməsi, türk dövlətləri ilə strateji tərəfdaşlığın genişləndirilməsi, qonşu ölkələrlə münasibətlərin inkişafı, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda fəal iştirak bu siyasətin müxtəlif istiqamətlərini təşkil edir. Prezident İlham Əliyevin verdiyi müsahibələrdə də Azərbaycanın ənənəvi tərəfdaşlıq istiqamətləri ilə yanaşı, Asiya, Afrika, Latın Amerikası və Qoşulmama Hərəkatı ölkələri ilə əlaqələrinin genişləndirilməsinin xarici siyasətin mühüm istiqamətlərindən biri olduğu qeyd edilmişdi.



5

## Dünyanın mənəvi xəzinəsində Azərbaycan imzası



Prezident İlham Əliyevin çıxışında xüsusi qeyd etdiyi görkəmli şəxsiyyətlərdən biri də XV əsrin böyük mütəfəkkiri Seyid Yəhya Bakuvidir. Dövlət başçısı Bakıda eyni vaxtda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısının və Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirilməsinin böyük məna daşıdığını vurğulayıb, Bakuvinin yaşayıb-yaratdığı dövrdə çox böyük iz qoyduğunu bildirib. Fəlsəfi və təsəvvüf düşüncəsinin görkəmli nümayəndələrindən biri olan Seyid Yəhya Bakuvinin fəaliyyəti Bakının Orta əsrlərdə yalnız iqtisadi və siyasi deyil, həm də mühüm elm və mənəviyyat mərkəzlərindən biri olduğunu göstərir. Bakuvinin düşüncə sistemində insanın mənəvi saflaşması, özünü dərk etməsi, əxlaqi kamilliyə yüksəlməsi mühüm yer tutur. Bu ideyaların əsrlər sonra da maraq doğurması onun irsinin yalnız yaşadığı dövrə aid olmadığını göstərir.

XVI əsrdə Azərbaycan tarixində həm dövlət xadimi, həm sərkərdə, həm də şair kimi silinməz iz qoyan Şah İsmayıl Xətai meydana çıxır. Şairin Azərbaycan dilində yaratdığı poeziya ana dilimizin ədəbi mövqeyinin möhkəmlənməsində mühüm rol oynayıb. Sadə, aydın və təsirli dili onun şeirlərini geniş xalq kütlələrinə yaxınlaşdırıb. Xətainin poeziyasında vətən, insan, mənəviyyat, sevgi və qəhrəmanlıq motivləri mühüm yer tutur. Onun fəaliyyəti Azərbaycan dövlətçilik tarixinin mühüm mərhələlərindən biri ilə bağlı olduğu kimi, yaradıcılığı da milli ədəbi düşüncənin inkişafında xüsusi əhəmiyyət daşıyır.

7

## Vətənpərvər oğulların qəhrəmanlığı düşməni diz çökdürdü



23 saat 44 dəqiqə ərzində uğurla həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan uzun illərdən bəri Qarabağda məskunlaşmış və kifayət qədər möhkəmlənmiş erməni separatizminə son qoydu. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin mövqeləri darmadağın olundu. Erməni separatçıları yurdunu, torpağını sevən vətənpərvər oğullarımızın hücumları qarşısında çox duruş gətirə bilmədilər. Ağ bayraq qaldıraraq təslim oldular, silahlarını yerə qoyub, suları süzülə-süzülə Qarabağı tərk etdilər. Uğurla başa çatan bu əməliyyat nəticəsində bölgədəki mülki əhaliyə və obyektlərə ziyan vurulmadı.

Erməni saparatizmi üzərində qəti qələbənin qazanıldığı gün - 2023-cü il sentyabrın 20-si Azərbaycan tarixinə yeni mərhələnin başlanğıcı kimi yazıldı. Uzun illərdən bəri Qarabağda gurlayan silahlar susduruldu. İnsanlara ağrı-acılar yaşadan, qan qoxulu müharibə Azərbaycanın qətiyyətli qələbəsi ilə başa çatdı. 19 sentyabr 2024-cü ildə Prezident İlham Əliyevin imzaladığı sərəncamla sentyabrın 20-si Dövlət Suverenliyi Günü elan edildi. Sərəncamda xüsusi olaraq vurğulandı ki, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyi təmin edilmiş və dövlət suverenliyi bərpa olunmuşdur. Buna görə də sentyabrın 20-si təqvimimizdə mühüm dövlətçilik günü kimi təsbit edilmişdir.

8

# 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasında keçiriləcək 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalı (FIFA U-15 World Cup and Festival) ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2026-cı il sentyabrın 22-dən noyabrın 5-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu;

2.2. Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının (FIFA) müvafiq qaydalarına uyğun olaraq elektron qeydiyyat sistemi vasitəsilə akkreditasiyadan keçməni təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. Azərbaycan Respublikasında keçiriləcək 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalı (FIFA U-15 World Cup and Festival) ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasına (FIFA), Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. Azərbaycan Respublikasında keçiriləcək 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalı (FIFA U-15 World Cup and Festival) ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə Azərbaycan Respublikasında keçiriləcək 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalı (FIFA U-15 World Cup and Festival) ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2026-cı il*

# Naxçıvan Dövlət Universitetinin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 304** **Bakı şəhəri, 21 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Dövlət Universiteti Naxçıvan Müəllimlər İnstitutunun ona qoşulması yolu ilə yenidən təşkil edilsin.

2. Müəyyən edilsin ki, Naxçıvan Dövlət Universiteti Naxçıvan Müəllimlər İnstitutunun hüquqi varisidir, onun bütün hüquqları və öhdəlikləri, habelə əmlakı Naxçıvan Dövlət Universitetinə keçir.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 460, № 5 (II kitab), maddə 628, № 7, maddə 927; 2025, № 9, maddə 866) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nın "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə" bölməsinin 19-cu hissəsi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745 (Cild I); 2024, № 4, maddə 460) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Ali təhsil müəssisələri" bölməsinin 19-cu hissəsi ləğv edilsin.

5. "Naxçıvan Müəllimlər İnstitutunun yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 7 sentyabr tarixli 416 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1079) 2-ci hissəsi ləğv edilsin.

6. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Bakı Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda və 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 305** **Bakı şəhəri, 21 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində olan "Bakı Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1055 (Cild I); 2025, № 5, maddə 515; 2026, № 6, maddə 569) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 9-cu hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 749 (Cild I); 2024, № 7, maddə 910; 2025, № 3, maddə 267, № 7, maddə 709; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 sentyabr tarixli 280 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "II. Təsərrüfathesablı qurumlar" bölməsinin "7. Digər qurumlar" hissəsinə aşağıdakı məzmunda 7.8-ci bənd əlavə edilsin:

"7.8. "Bakı Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti.".

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Qərardan irəli gələn məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 308** **Bakı şəhəri, 21 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, dövlət maliyyə inzibatçılığının və hesabatlılığın gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin tam təmin edilməsi üçün vahid büdcə təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264, № 4, maddələr 360, 387; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 12 may tarixli 141 nömrəli, 14 may tarixli 145 nömrəli, 15 may tarixli 149 nömrəli, 3 iyun tarixli 165 nömrəli, 9 iyun tarixli 173 nömrəli və 25 iyun tarixli 200 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı" və "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar, icmal büdcə ilə əhatə olunan qurumlar 2028-ci ilin icmal və dövlət büdcəsi layihələri ilə bağlı sifarişlərini bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı"na və "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"na uyğun tərtib edərək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatların, icmal büdcə ilə əhatə olunan qurumların 2027-ci ilin icmal və dövlət büdcəsi layihələri ilə bağlı sifarişləri əsasında bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı"nın və "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın test rejimində tətbiq edilməsi üçün aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri tədbirlər görsün.

4. Bu Qərarın 1-ci hissəsi 2028-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının neft sənayesi işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Bağırova Ülviyə Adil qızı
Bayatlı Tamam Fərman qızı
Cəfərov Teymur Vaqif oğlu
Əhmədov Zakir Xuduş oğlu
Quliyev Cahid Allahverdi oğlu
Quliyev Mübariz Maşallah oğlu
Quliyev Rəfael Həsənxan oğlu
Rüstəmov Nağı Bəxtiyar oğlu
Rüstəmov Rauf İsmət oğlu
Vəliyev Rasim Vəli oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Zavur Ağaxan oğlu
Abdullayev Murad Çingiz oğlu
Aslanov Raiq Fəhrad oğlu
Cəfərov Xəyal Vilayət oğlu
Eyvazov Teymur Əlisultan oğlu
Haxıyev Güləhməd Camal oğlu
Həşimov Zakir Əlikram oğlu
Mahmudlu Rauf Malik oğlu
Məhərrəmli Turxan Mətləb oğlu
Məmməd-Həsənov Elşad Aslan oğlu
Mərdanov Nuru Odlar oğlu
Mirzəyev Kənan Eldar oğlu
Mqebrişvili Zaza
Mustafayev Elton Kərəm oğlu
Mustafayev Nurlan Zakir oğlu
Nuriyev Nahid Maşalla oğlu
Sulhan Ebru Tevfik
Yusifov Vidadi İbrahim oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2026-cı il*

# İ.C.Cavadovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan futbolunun inkişafı və təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə İsgəndər Cavad oğlu Cavadov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2026-cı il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 367-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 307** **Bakı şəhəri, 21 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu madəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 367-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 4, maddə 452; 2026, № 1, maddə 102) ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"ın 29-1-ci hissəsinin ikinci abzasından "sosial sığorta nömrəsi (SSN) (əgər vardırsa)," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I); 2024, № 3, maddə 335, № 9, maddə 1067; 2025, № 5, maddə 507, № 9, maddə 870; 2026, № 1, maddə 101) ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"na 1 nömrəli əlavədən "Sosial sığorta nömrəsi" sütunu çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 618 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2563 (Cild I) ilə təsdiq edilmiş "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nın 1.2-ci bəndində "sosial sığorta nömrəsi" sözləri "fərdi identifikasiya nömrəsi (FİN)" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 may tarixli 153 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 720 (Cild I); 2024, № 4, maddə 449; 2025, № 12 (II kitab), maddə 1257; 2026, № 2, maddə 194) ilə təsdiq edilmiş "Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının və işçilərinin, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinin və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərin və şəxslərin fərdi uçotu Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2.5-ci yarımbənddə "sosial sığorta nömrəsi (SSN) əvəzinə" sözləri "fərdi şəxsi hesabın açılması üçün" sözləri ilə əvəz edilsin;

4.2. 4.8.1-ci yarımbənddə (hər üç halda) və 4.8.2-ci yarımbənddə "sosial sığorta nömrəsi (SSN)" sözləri "fərdi identifikasiya nömrəsi (FİN)" sözləri ilə əvəz edilsin.

5. Bu Qərar 2026-cı il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 306** **Bakı şəhəri, 21 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 327-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 189 (Cild I); 2026, № 1, maddə 100) ilə təsdiq edilmiş "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası"na 1 nömrəli əlavə - "Vergi və gömrük sahəsində güzəşt və azadolmaların meyarlar üzrə təsnifləşdirilməsi"nin 2.25-ci bəndinin "Qısa məzmunu" sütununa "ərazilərin" sözündən əvvəl "təhlükəli" sözü əlavə edilsin və həmin sütunda "partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 96 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 309** **Bakı şəhəri, 21 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 7 iyul tarixli 434-VIIQD nömrəli Qanununun tətbiqi və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 22 iyul tarixli 729 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 96 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 273 (Cild I) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.4-1-ci və 1.4-2-ci bəndlər əlavə edilsin:

"1.4-1. Təhsilalanların müəyyən edilmiş geyim formasının vahidliyini pozan, habelə ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan digər geyim elementlərindən istifadə edilməsinə yol verilmir.

1.4-2. Azərbaycan xalqının tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə bağlı keçirilən tədbirlərdə məktəbin Pedaqoji Şurasının qərarı ilə milli geyimlərdən və ya milli geyim elementlərindən istifadə edilməsinə yol verilir.".

2. 1.8-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Valideynlər və ya digər qanuni nümayəndələr övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) tərəfindən geyim forması ilə bağlı tələblərə riayət olunmasını təmin etməlidirlər.".

3. Aşağıdakı məzmunda 1.10-cu bənd əlavə edilsin:

"1.10. Bu Sənədin tələblərinə təhsilalanlar tərəfindən riayət olunması ilə bağlı məsələlər məktəbin Pedaqoji Şurası tərəfindən həll edilir.".

4. 3.2-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qərar qəbul edildiyi tarixdən 5 (beş) iş günü müddətində məktəbin rəsmi internet səhifəsində və ya məktəbin məlumat lövhəsində yerləşdirilir.".

5. Həmin təsvirlərə 1 nömrəli əlavə - "Təhsilalanların geyim formalarının Nümunələri"nin "Oğlanlar üçün yay və qış geyim forması dəsti: şalvar, qısaqol polo tipli köynək, uzunqol polo tipli köynək, önü bağlanılan cibli jaket" hissəsindən "üçdüyməli qısaqol köynək və şalvardan" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın Uşaq Hüquqları Komitəsi tərəfindən təşkil olunan onlayn brifinqdə çıxış edib

**Sentyabrın 21-də Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın Uşaq Hüquqları Komitəsi tərəfindən təşkil olunan "Uşaqların inklüziv və keyfiyyətli təhsil hüququnun təmin edilməsində süni intellektin imkanları və riskləri" mövzusuna həsr olunmuş onlayn brifinqdə çıxış edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, çıxışında spiker Sahibə Qafarova bildirib ki, süni intellekt və təhsil məsələsi yalnız texnologiya ilə bağlı deyil, eyni zamanda uşaqların gələcəyi və onlara təqdim ediləcək təhsilin keyfiyyəti ilə əlaqəlidir. Onun sözlərinə görə, texnologiya təhsili gücləndirə bilər, lakin müəllimləri və insan münasibətlərini əvəz edə bilməz.

Qeyd olunur ki, süni intellekt təlim prosesini hər bir uşağın ehtiyaclarına uyğunlaşdıra, əlilliyi olan uşaqların təhsil imkanlarını genişləndirə və uzaq icmalara keyfiyyətli təhsil resurslarının çatdırılmasına kömək edə bilər. Süni intellekt müəllimlərə şagirdlərin təlimindəki boşluqları müəyyənləşdirməkdə dəstək göstərə bilər.

Milli Məclisin Sədri vurğulayıb ki, süni intellektin yaratdığı imkanlar avtomatik olaraq hamı üçün əlçatan olmur. Ona çıxış imkanlarının ailənin gəlirindən və yaşayış yerindən asılı olması bərabərsizlikləri daha da dərinləşdirə bilər. Ona görə də parlamentin Sədri bu sahədə məxfilik, alqoritmik qərəz, zərərli məzmun və insan məsuliyyətinin qeyri-müəyyənliyi ilə bağlı risklərin də nəzərə alınmasının vacibliyini vurğulayıb.

Spiker Sahibə Qafarova deyib ki, uşaq hüquqları təhsildə süni intellektdən istifadənin əsas istiqamətləndirici prinsipi olmalıdır. Süni intellekt müəllimlərə kömək göstərməli, onların peşəkar mühakiməsini əvəz etməməli, uşaqları isə, sadəcə, məlumat toplusuna çevirməməlidir.

O, parlamentlərin bu sahədə mühüm rol oynadığını diqqətə çatdırıb.

Parlamentin Sədri Sahibə Qafarova PAİ-nin parlamentlərə qanunvericilik təcrübəsi mübadiləsi aparmağa, praktiki tövsiyələr hazırlamağa, nəzarəti gücləndirməyə və təhsil işçiləri, texnologiya şirkətləri, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və uşaqlarla dialoqun təşviqinə kömək edə biləcəyini söyləyib.

Çıxışına yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, süni intellekt artıq sinif otaqlarına daxil olur və əsas məsələ bu texnologiyadan istifadə edib-etməmək deyil, onun necə ədalətli və uşaqların maraqlarına uyğun şəkildə tətbiq olunmasıdır.

Əsas məqsəd süni intellektdən təhsili daha inklüziv, əlçatan və keyfiyyətli etmək üçün istifadə olunması, eyni zamanda təhsilin insan mərkəzli xarakterinin qorunmasıdır. O qeyd edib ki, heç bir uşaq coğrafi mövqeyinə, ailəsinin gəlirinə, əlilliyinə və ya rəqəmsal imkanlarının məhdudluğuna görə geridə qalmamalıdır.

*"Azərbaycan"*

# DİN-də xidmətə qəbul üçün növbəti sıra baxışı keçirilib

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 21-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**



Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 203 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# Baş prokuror BMT-nin nümayəndələrini qəbul edib

**Sentyabrın 21-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Terrorçuluğun qarşısının alınması şöbəsinin (TPB) rəhbəri Roberto Arbitrionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Qonaqları səmimi salamlayan baş prokuror Roberto Arbitrionun 21-23 sentyabr tarixlərində keçirilən IV Bakı Təhlükəsizlik Forumunda iştirak etmək məqsədilə ölkəmizə səfərini yüksək qiymətləndirərək, səfərin Baş Prokurorluqla UNODC, xüsusilə qurumun Terrorçuluğun qarşısının alınması şöbəsi arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Baş prokuror Azərbaycanın Avropa ilə Asiyanın kəsişməsində yerləşən strateji mövqeyinin ölkəmizi transmilli təhdidlərə qarşı mübarizədə mühüm tərəfdaşa çevirdiyini qeyd edib. Azərbaycanın Orta dəhliz boyunca təhlükəsizliyin təmin olunması, korrupsiyaya və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahələrində müxtəlif təşəbbüs və layihələrin həyata keçirilməsində regionun fəal iştirakçılarından biri olduğu vurğulanıb.

Görüşdə son illərdə Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə UNODC arasında konkret təşəbbüslər əsasında formalaşmış səmərəli əməkdaşlıqdan danışılıb. Bu xüsusda 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29 çərçivəsində "İqlim fəaliyyəti naminə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda Yüksək Səviyyəli Plenar Sessiyanın uğurlu təşkili xatırlanıb. Həmçinin 20-23 may 2025-ci il tarixlərində Bakıda 92 ölkəni təmsil edən 120-dən çox dövlət qurumunun 300-dən artıq nümayəndəsinin iştirakı ilə BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsinin (GlobE Network) VI Plenar İclasının yüksək səviyyədə keçirilməsinin tərəflər arasında əməkdaşlığın mühüm nümunələrindən biri olduğu qeyd edilib.

Görüş zamanı UNODC-nin Terrorçuluğun qarşısının alınması şöbəsi ilə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanaraq, terrorçuluqla bağlı yeni və meydana çıxan təhdidlər, terrorçuluğun maliyyələşdirilməsi, terrorçuluqla mütəşəkkil cinayətkarlıq arasındakı əlaqələr, kritik infrastrukturun mühafizəsi, yeni texnologiyalardan və virtual aktivlərdən terror məqsədləri üçün sui-istifadə hallarına qarşı mübarizə kimi aktual istiqamətlər üzrə praktiki əməkdaşlıq imkanları müzakirə olunub.

Baş prokuror 26 sentyabr-1 oktyabr 2026-cı il tarixlərində Əbu-Dabidə keçiriləcək BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi üzrə XV Konqresinin əhəmiyyətinə toxunaraq, konqres çərçivəsində təşkil olunacaq birgə əlavə tədbirlərlə bağlı Azərbaycan prokurorluq orqanları ilə UNODC arasında sıx əlaqələndirmənin həyata keçirildiyini bildirib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa və korrupsiyaya qarşı mübarizə, ekoloji cinayətlərin qarşısının alınması, eləcə də cinayət ədliyyəsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində UNODC ilə fəal və nəticəyönümlü tərəfdaşlığın davam etdirilməsinə xüsusi önəm verdiyi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# İnsan hüquqları komitəsinin iclasında



**Sentyabrın 21-də Milli Məclisin İnsan hüquqları komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Zahid Oruc yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.**

20 Sentyabr - Dövlət Suverenliyi Günü münasibətilə ölkədə bayram əhvali-ruhiyyəsinin yaşandığını bildirən komitə sədri Azərbaycanın müasir tarixində 20 sentyabrda baş vermiş əlamətdar hadisələrə diqqət çəkib. O, 20 sentyabr tarixinin həm dövlət suverenliyinin tam bərpasını simvolizə etdiyini, həm də müasir Azərbaycan dövlətçiliyində yeni mərhələnin başlanğıcı kimi xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Komitə sədri sonra İnsan hüquqları komitəsinin 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatı təqdim edib. O bildirib ki, ötən sessiya ərzində 19 iclas keçirilib, 31 məsələyə baxılıb, komitədə 9 qanun layihəsi müzakirə olunub.

Qeyd edilib ki, yaz və növbədənkənar sessiyalar dövründə komitəyə 453 ərizə, məktub və digər müraciətlər daxil olub, onlarla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb. Zahid Oruc deyib ki, ötən sessiya müddətində komitə sədri və üzvləri tərəfindən seçicilərlə mütəmadi görüşlər keçirilib, onların müraciətləri dinlənilib, qaldırılan məsələlərlə bağlı müvafiq işlər aparılıb. Bundan başqa, komitə üzvləri ölkənin ictimai-siyasi həyatında fəal iştirak ediblər.

Sonra İnsan hüquqları komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verilib. Qeyd edilib ki, qarşıdan gələn sessiyada komitəyə təqdim olunan qanun layihələrinin müzakirəsi, dezinformasiya və manipulyasiya texnologiyalarına qarşı hüquqi və institusional mexanizmlərin gücləndirilməsi və digər məsələlərə dair ictimai dinləmələrin keçirilməsi nəzərdə tutulub. Sənəddə həmçinin inzibati qərarların icrası, əlilliyi olan şəxslərin xidmətlərə fiziki və rəqəmsal əlçatanlığı, şəhid ailələrinin və qazilərin sosial və hüquqi təminatları ilə bağlı məsələlər də əks olunub.

Gündəlikdəki qanun layihəsi ilə bağlı komitə sədri bildirib ki, "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və dövlət xidmətlərinin həyata keçirilməsinin səmərəli təşkili üçün mövcud normaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Sənədlərin müzakirəsində komitənin sədr müavini Arzuxan Əlizadə, üzvləri Razi Nurullayev, Hikmət Məmmədov, Naqif Həmzəyev, Sevil Mikayılova, Azər Allahverənov, Səyyad Aran, Vüqar Rəhimzadə, Elman Nəsirov, Mircəlil Qasımlı çıxış edərək dövlət xidmətlərinə əlçatanlığın artırılması, icbari tibbi sığorta sisteminin tətbiqində özəl tibb müəssisələrinin imkanlarından istifadənin genişləndirilməsi, şəhid ailələrinin, eləcə də digər vətəndaşların sosial müdafiəsi, regionların sosial-iqtisadi və investisiya baxımından cəlbediciliyinin artırılması, paytaxtda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi kimi məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

İclasın sonunda ötən iki sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi təsdiqlənib, gündəlikdəki qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

*"Azərbaycan"*

# "Azərbaycan və Çin arasında "yaşıl enerji" sahəsində əməkdaşlığın böyük potensialı var"

**Azərbaycan və Çin arasında "yaşıl enerji" və təmiz texnologiyalar sahəsində əməkdaşlığın böyük potensialı var. Bu əməkdaşlıq yalnız bərpaolunan enerji mənbələri üzrə layihələri deyil, həmçinin enerji saxlanc sistemlərini, elektrik şəbəkələrinin modernləşdirilməsini, rəqəmsal energetikanı və yaşıl mobilliyi də əhatə edə bilər.**



Bu fikirləri **"International Carbon Neutrality Industry Research Organization" (ICNIRO) təşkilatının həmtəsisçisi Britani Li** AZƏRTAC-a açıqlamasında bildirib.

Onun sözlərinə görə, iki ölkə arasında əməkdaşlığın inkişafının əyani nümunələrindən biri Çinin "BYD" şirkəti ilə əməkdaşlıqdır: "Əməkdaşlıq elektrik avtobuslarının satın alınması ilə məhdudlaşmayıb, yerli istehsala və komponentlərin lokallaşdırılmasına keçib. Elektrik avtomobilləri, kommersiya məqsədli nəqliyyat vasitələri və akkumulyatorlarla bağlı istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi planlaşdırılır".

Britani Li deyib ki, bu əməkdaşlıq nümunəsi hazır məhsulların tədarükündən daha dərin sənaye əməkdaşlığına keçidin mümkünlüyünü nümayiş etdirir.

Əməkdaşlığın perspektivli istiqamətlərindən danışan ekspert ilk növbədə Günəş və külək enerjisini qeyd edib: "Azərbaycan kifayət qədər Günəş enerjisi ehtiyatlarına malikdir, Xəzər regionunun isə külək enerjisi sahəsində böyük potensialı var. Çin şirkətləri fotovoltaik və külək energetikası sahəsində avadanlıq istehsalı, layihələrin hazırlanması və mühəndislik işləri də daxil olmaqla, bütün dəyər zənciri üzrə geniş imkanlara malikdir. Bu, Çin şirkətlərinin yalnız avadanlıq tədarükündə deyil, həm də enerji layihələrinin hazırlanması və həyata keçirilməsində, müvafiq infrastrukturun tikintisində və sonrakı istismarında iştirakına imkan yaradır".

O, enerji saxlanc sistemlərini də perspektivli istiqamətlərdən biri kimi qeyd edib: "Bərpaolunan enerji mənbələrinin payı artdıqca bu sistemlərin əhəmiyyəti də yüksələcək. Çin şirkətləri akkumulyatorlar, enerji saxlanc sistemləri və enerjinin idarə olunması texnologiyaları sahəsində böyük təcrübəyə malikdirlər".

Ekspert elektrik şəbəkələrinin modernləşdirilməsi və rəqəmsal energetika sahələrində də əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb: "Bərpaolunan energetikanın inkişafı elektrik enerjisinin ötürülməsi və paylanması, enerjinin saxlanması və rəqəmsal idarəetmə sahəsində müasir həllər də daxil olmaqla, daha çevik və ağıllı enerji sistemlərinin yaradılmasını tələb edir. Hesab edirik ki, bu, Çin şirkətlərinin Azərbaycanda fəaliyyətini genişləndirməsi üçün mühüm istiqamətlərdən biri olacaq".

Britani Li qeyd edib ki, perspektivli əməkdaşlıqda yaşıl mobillik də xüsusi yer tutur. Çin şirkətləri ilə artıq həyata keçirilən layihələr elektrik nəqliyyatının, enerji doldurma infrastrukturunun və bununla bağlı istehsal istiqamətlərinin gələcək inkişafı üçün əsas yarada bilər: "Əməkdaşlıq çərçivəsində əsas məqsədlərdən biri yalnız Çin texnologiyalarının tətbiqi deyil, həm də yerli istehsal və xidmət imkanlarının inkişaf etdirilməsi olmalıdır".

"ICNIRO-nun mövqeyinə görə, biz "məhsul satışından" "layihələrin birgə hazırlanmasına, sahələrin birgə yaradılmasına və bazarlara birgə çıxışa" keçidin şahidi olmaq istərdik", - deyə o vurğulayıb.

B.Linin sözlərinə görə, Çin texnologiyaları və həlləri Azərbaycan şirkətlərinin imkanları ilə birləşdirilərək "yaşıl enerji" və təmiz texnologiyalar sahəsində lokallaşdırılmış istehsalın, xidmətlərin və təchizat zəncirlərinin yaradılmasına imkan verə bilər: Çin şirkətləri Azərbaycana bərpaolunan enerji, enerji saxlama, "ağıllı şəbəkə"lər və yaşıl mobillik sahələrində texnologiya və həllər gətirməklə yanaşı, daha geniş regional bazara da xidmət göstərə biləcək lokallaşdırılmış istehsalın, xidmətlərin və təchizat zəncirlərinin inkişafı üzərində yerli tərəfdaşlarla birgə işləyə bilərlər".

# AZƏRTAC və Vyetnamın VNA xəbər agentliyi informasiya mübadiləsini gücləndirəcəklər

**AZƏRTAC və Vyetnamın VNA xəbər agentliyi informasiya mübadiləsini gücləndirəcəklər.**



Bununla bağlı razılaşma AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin VNA agentliyinin baş direktoru xanım Vu Viet Tranq ilə görüşündə əldə olunub.

Moskvada Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) 65 illik yubiley tədbirinə həsr olunmuş media forumu çərçivəsində keçirilən görüşdə ikitərəfli əlaqələrin hazırkı vəziyyəti diqqət mərkəzində olub.

VNA ilə əməkdaşlığa böyük önəm verildiyini bildirən Vüqar Əliyev sosial medianın güclü təsirləri fonunda xəbər agentliklərinin əməkdaşlığı daha da genişləndirmələrinin zəruriliyini qeyd edib. Bildirib ki, bunun ən aydın göstəricisi ikitərəfli xəbər mübadiləsidir və bu məsələyə diqqətin artırılmasına böyük ehtiyac var. Bu, ölkələrimiz barədə ən doğru məlumatların yayılmasında, eyni zamanda faktların təhrif edilməsinin qarşısının alınmasında böyük rol oynayır.

AZƏRTAC ilə əməkdaşlığın onlar üçün də önəmli olduğunu söyləyən xanım Vu Viet Tranq VNA agentliyinin hər il Şuşa Qlobal Forumunda təmsil olunduğunu söyləyib. Qeyd edilib ki, etibarlı xəbər mənbəyi olan agentliklərin məlumatları məhz dezinformasiyaya qarşı güclü təsir alətidir. O da öz tərəflərindən xəbər mübadiləsinin genişləndirilməsi istiqamətində səylərini artıracaqlarını vurğulayıb.

Xatırladaq ki, AZƏRTAC və VNA ötən ilin mayında Bakıda yeni əməkdaşlıq memorandumu imzalayıb. Hər iki agentlik OANA çərçivəsində uğurla əməkdaşlıq edir.

# Bir qurultay qərarı və Azərbaycanın dəyişən siyasi taleyi

**XX əsrin siyasi tarixində Sovet İttifaqı uzun müddət beynəlxalq münasibətlərin əsas müəyyənedicilərindən biri olmuşdur. Ərazisinin miqyası, iqtisadi və hərbi imkanları, siyasi təsir dairəsi bu dövləti dünya siyasətinin mühüm mərkəzlərindən birinə çevirmişdi. Belə mürəkkəb və sərt siyasi sistemin ali rəhbərliyində Azərbaycan xalqının yetirdiyi Heydər Əliyev kimi bir şəxsiyyətin yüksəlməsi Azərbaycan tarixinin ən mühüm siyasi hadisələrindən biri hesab oluna bilər.**



Heydər Əliyevin siyasi fəaliyyətini yalnız Azərbaycan miqyasında qiymətləndirmək onun fəaliyyətinin əhatə dairəsini tam ifadə etmir. O, əvvəlcə Azərbaycanda dövlət və idarəçilik təcrübəsi formalaşdırmış, daha sonra Sovet İttifaqının ən yüksək siyasi və inzibati strukturlarından birində mühüm mövqeyə yüksəlmişdi. Bu yüksəliş təsadüfi karyera hadisəsi kimi deyil, uzun illər ərzində formalaşmış idarəçilik qabiliyyətinin, siyasi iradənin və dövlətçilik təfəkkürünün nəticəsi kimi qiymətləndirilə bilər.

Heydər Əliyev özü siyasi fəaliyyətinin əsas prinsipini ifadə edərkən demişdir: "Mən hakimiyyət dövrümdə heç vaxt milli maraqlarımızın əleyhinə olan heç bir addım atmamışam, heç bir iş görməmişəm!" Bu fikir onun siyasi fəaliyyətinin başlıca meyarlarından birini ifadə edirdi. Xüsusilə sovet siyasi sisteminin sərt mərkəzləşmiş idarəçilik modeli şəraitində milli maraqların qorunması xüsusi siyasi çeviklik və məsuliyyət tələb edirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər onun siyasi yüksəlişinin mühüm mərhələsini təşkil edirdi. Bu dövrdə respublikada iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi, sənaye potensialının genişləndirilməsi, kadr siyasətinin yenilənməsi və idarəçilik sisteminin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdı. Onun fəaliyyəti nəticəsində Azərbaycanda siyasi və iqtisadi idarəçilik sahəsində geniş təcrübə formalaşmışdı.

Bu təcrübə sonrakı mərhələdə onun ittifaq miqyasına yüksəlməsində mühüm rol oynadı. 1982-ci ilin noyabrında Yuri Andropov Sov.İKP MK-nın baş katibi seçildikdən sonra Heydər Əliyevin siyasi fəaliyyətində yeni mərhələ başlandı. O, Siyasi Büronun üzvü seçildi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Beləliklə, Azərbaycan rəhbərliyindən Sovet İttifaqının ali siyasi idarəçilik sisteminə keçən Heydər Əliyev ölkənin ən mühüm qərar verən orqanlarında fəaliyyət göstərməyə başladı.

Bu mərhələ onun siyasi imkanlarının miqyasını da genişləndirdi. Heydər Əliyevin fəaliyyət dairəsi nəqliyyat, iqtisadiyyat, idarəçilik, sosial sahələr, xarici siyasətlə bağlı məsələlər və dövlət idarəçiliyinin müxtəlif istiqamətlərini əhatə edirdi. Onun yüksək iş qabiliyyəti və məsələlərin operativ həllinə yanaşması haqqında həmin dövrün müxtəlif mənbələrində məlumatlara rast gəlinir.

1984-cü ilin fevralında SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin Operativ Məsələlər üzrə Komissiyasına rəhbər təyin edilməsi onun ittifaq səviyyəsində malik olduğu səlahiyyətlərinin miqyasını daha da artırdı. Bu vəzifə dövlət idarəçiliyinin gündəlik və strateji əhəmiyyət daşıyan məsələlərinin operativ şəkildə əlaqələndirilməsini tələb edirdi. Heydər Əliyevin bu sahədə fəaliyyəti onun sovet rəhbərliyi daxilində ciddi siyasi və idarəçilik çəkisinə malik olduğunu göstərirdi.

Lakin siyasi sistemlərdə şəxsi nüfuzun artması çox vaxt müxtəlif maraqların toqquşmasına da səbəb olur. Heydər Əliyevin Moskvada yüksək mövqeyə yüksəlməsi ilə onun siyasi çəkisi daha da artdı. Eyni zamanda Kreml daxilində müxtəlif qrupların maraqları arasında rəqabət gücləndi. Yuri Andropovun vəfatından sonra sovet rəhbərliyində yeni siyasi mərhələ başladı və Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ilə bu proses daha mürəkkəb xarakter aldı.

Heydər Əliyevin Qorbaçovun siyasi yüksəlişində müəyyən rol oynadığı barədə müxtəlif məlumatlar mövcuddur. Lakin sonrakı siyasi proseslər göstərdi ki, yeni rəhbərliklə Heydər Əliyev arasında münasibətlər kəskinləşdi. 1985-ci ildən etibarən onun beynəlxalq görüşlərdə və mühüm dövlət tədbirlərində əvvəlki fəallığı məhdudlaşdırıldı. Xarici səfərlərdən kənarda qalması və dövlətlərarası danışıqlarda əvvəlki rolunun zəiflədilməsi bu siyasətin konkret göstəricilərindən idi.

## Turqut Özal Heydər Əliyevlə niyə görüşə bilmədi?

1986-cı ildə Türkiyənin Baş naziri Turqut Özalın Moskvaya səfəri bu baxımdan diqqətçəkən hadisələrdən biri oldu. Sovet rəhbərliyində yüksək vəzifə tutan azərbaycanlı və türk mənşəli siyasi xadim kimi Heydər Əliyevin həmin səfərlə bağlı tədbirlərdə görünməməsi siyasi baxımdan xüsusi məna daşıyırdı. Halbuki Heydər Əliyev Türkiyə ilə münasibətlərə dair məsələlərdə ciddi təcrübəyə malik idi və onun siyasi çəkisi belə görüşlərdə iştirakını məntiqli edən amillərdən idi.

1987-ci ilin oktyabrında Heydər Əliyev Siyasi Büro üzvlüyündən və yüksək dövlət vəzifələrindən istefa verdi. Bu hadisə onun siyasi fəaliyyətində ağır dönüş nöqtəsi yaratdı. Moskvada yaşadığı dövrdə ona qarşı təzyiqlər artdı, haqqında müxtəlif ittihamlar və qarayaxma xarakterli məlumatlar yayıldı. Onun səhhətində ciddi problemlər yarandı.

Heydər Əliyevin siyasi fəaliyyətdən uzaqlaşdırılmasından sonra Azərbaycandakı vəziyyət də getdikcə mürəkkəbləşdi. Qarabağ məsələsi yenidən gündəmə gəldi, Ermənistanın ərazi iddiaları daha açıq xarakter aldı. Belə bir məqamda Azərbaycan cəmiyyətində milli azadlıq düşüncəsi güclənməyə başladı. Mərkəzi hakimiyyətlə Azərbaycan arasında münasibətlərdə gərginlik artdı.



1988-ci il dekabrın 7-də Ermənistanın şimalında baş vermiş güclü zəlzələ regionda böyük humanitar faciəyə səbəb oldu. Azərbaycandan Ermənistana yardım göndərilməsi prosesində də müxtəlif hadisələr baş verdi. 1988-ci il dekabrın 11-də Bakıdan Leninakana, zəlzələ zonasına uçan İl-76 təyyarəsinin qəzaya uğraması nəticəsində çox sayda insan həyatını itirdi. Mənbədə bu hadisənin sonrakı araşdırılması ilə bağlı ciddi sualların yarandığı qeyd olunur. 1994-cü ildə Prezident Heydər Əliyevin sərəncamı ilə həmin hadisədə həlak olanların şəhid statusu alması isə bu faciənin Azərbaycan dövlətinin yaddaşında xüsusi yer tutduğunu göstərdi.

1989-1990-cı illərdə Azərbaycandakı siyasi vəziyyət daha da gərginləşdi. Qarabağ ətrafında proseslər intensivləşdi. Qərbi Azərbaycandan azərbaycanlıların məcburi köçürülməsi davam edir, cəmiyyətdə milli azadlıq hərəkatı genişlənirdi. Mərkəzi hakimiyyət isə prosesləri əsasən öz siyasi nəzarəti çərçivəsində saxlamağa çalışırdı. Belə bir şəraitdə Heydər Əliyevin siyasi səhnəyə yenidən qayıtması məsələsi xüsusi əhəmiyyət qazanırdı. Onun Moskvada olduğu dövrdə Azərbaycandan uzaqda saxlanılması üçün müxtəlif siyasi və inzibati vasitələrdən istifadə olunurdu. Buna baxmayaraq, Azərbaycanda Heydər Əliyevə olan ictimai rəğbət davam edirdi.

1990-cı il yanvarın 20-də Bakıda baş verən qanlı Yanvar faciəsi bu münasibətlərin yeni mərhələyə keçməsinə səbəb oldu. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza qarşı həyata keçirilmiş hərbi əməliyyatı sərt şəkildə pislədi. O, sovet rəhbərliyini məsuliyyətə çağırdı. Bu, 1987-ci ildən sonra onun geniş ictimaiyyət qarşısında ən mühüm siyasi çıxışlarından biri idi. Həmin çıxışdan sonra Heydər Əliyevin üzərində nəzarətin daha da gücləndirilməsi onun sonrakı ifadələrində öz əksini tapmışdır. O, Moskvada olduğu müddətdə telefon danışıqlarının izlənildiyini, Azərbaycana qayıtmaq planlarının yüksək siyasi dairələrə məlum olduğunu bildirmişdi. Buna baxmayaraq, onun Azərbaycana qayıtmaq niyyəti getdikcə daha aydın şəkil alırdı.

## Naxçıvandan gözlənilməz qərar

Bu mərhələdə Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına hazırlıq prosesi gedirdi. Azərbaycanın müxtəlif rayonlarında və şəhərlərində partiya konfransları keçirilir, qurultaya nümayəndələr seçilirdi. Naxçıvan şəhəri, Ordubad və Şərurdan Heydər Əliyevin qurultaya nümayəndə seçilməsi həmin dövrün siyasi reallıqları baxımından gözlənilməz hadisə idi.

Məhz bu hadisə yazının əsas sualına cavabın başlanğıcını təşkil edir. Heydər Əliyevin qurultaya nümayəndə seçilməsi sadəcə təşkilati prosedur çərçivəsində baş vermiş adi siyasi hadisə kimi qəbul edilə bilməzdi. Bu seçim Azərbaycanda bu dahi şəxsiyyətin siyasi nüfuzunun qorunduğunu, xalq arasında ona olan rəğbətin davam etdiyini və onun ölkənin siyasi həyatına qayıdışının ictimai əsaslarının mövcud olduğunu göstərirdi.

Ən diqqətçəkən məqam isə həmin seçimin əvvəlcədən hazırlanmış siyahı əsasında həyata keçirilməməsi idi. Heydər Əliyevin öz ifadəsinə görə, onun adı əvvəlcədən nümayəndə siyahısında yer almamışdı. Konfrans iştirakçılarının təşəbbüsü və tələbi nəticəsində onun namizədliyi irəli sürülmüş, gizli səsvermə yolu ilə qurultaya nümayəndə seçilmişdi. Daha sonra Naxçıvanın digər rayonlarından da onun qurultaya nümayəndə seçilməsinin tələb edildiyi barədə məlumat verilmişdi. Bu fakt siyasi baxımdan ciddi məna daşıyırdı. Çünki həmin dövrdə Heydər Əliyev Moskvada yaşayırdı, Azərbaycanla əlaqələri məhdud idi və onun Azərbaycana qayıdışı üçün siyasi imkanlar son dərəcə dar idi. Buna baxmayaraq, Naxçıvanın müxtəlif siyasi təşkilatlarında onun adının irəli sürülməsi onun siyasi nüfuzunun cəmiyyət daxilində qorunduğunu göstərirdi.

Heydər Əliyev qurultaya nümayəndə seçilməsi barədə xəbəri Moskvada aldığını və bunu məmnuniyyətlə qarşıladığını bildirirdi. Onun üçün bu seçim yalnız siyasi tədbirdə iştirak imkanından ibarət deyildi. Burada Vətənə qayıdış arzusu xüsusi yer tuturdu. O, həmin dövrdə Azərbaycana gəlmək üçün daha əvvəl də cəhdlər etdiyini, lakin müxtəlif maneələrlə qarşılaşdığını bildirirdi. Ulu Öndərin sözləri ilə desək: "Eyni zamanda Azərbaycana gəlmək, onu ziyarət etmək arzusu, qurultayda iştirak etmək arzusundan üstün idi. Bu vaxta qədər mən bir neçə dəfə cəhd etmişdim ki, Bakıya, Azərbaycana qayıdım, ancaq müxtəlif yerlərdən mənə maneçilik olmuşdur. İndi bu məsələ artıq rəsmi şəkil almışdı. Qurultaya nümayəndə seçilmişdim və fürsətdən istifadə edib vətəni də ziyarət etməyi qərara aldım".

Bu cümlələr həmin hadisənin siyasi və mənəvi mahiyyətini anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. Heydər Əliyev üçün qurultay Azərbaycana qayıtmaq üçün hüquqi və siyasi əsas yaradırdı. Bu əsas əvvəlki dövrlərdə mövcud olmayan real imkan formalaşdırırdı. Məhz buna görə də Heydər Əliyevin Azərbaycana səfəri məsələsi sovet rəhbərliyi üçün ciddi narahatlıq mənbəyinə çevrildi. Onun Bakıya getmək niyyətindən xəbər tutan müxtəlif vəzifəli şəxslər telefon vasitəsilə onunla əlaqə saxlayaraq səfərdən çəkinməsini istəyirdilər. Onlar Azərbaycandakı siyasi vəziyyətin gərginliyini əsas gətirir, Heydər Əliyevin səfərinin vəziyyəti daha da mürəkkəbləşdirə biləcəyini bildirirdilər.

Heydər Əliyevin bu təzyiqlərə cavabı onun siyasi xarakterini əks etdirirdi. O, qurultaya nümayəndə seçildiyini və bu hüquqdan istifadə etmək niyyətində olduğunu bildirirdi. Eyni zamanda öz siyasi fəaliyyətini Azərbaycan xalqının qarşısında müzakirə etməyə hazır olduğunu vurğulayırdı. Onun yanaşmasında əsas məqam siyasi məsuliyyət və ictimai legitimlik idi. Heydər Əliyev sonrakı ifadələrində həmin dövrdə üzərində nəzarətin mövcudluğunu da qeyd etmişdi. Onun sözlərinə görə, 20 Yanvar faciəsindən sonra bu nəzarət daha da gücləndirilmişdi. Yanvarın 21-də Moskvadakı çıxışında sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı hərbi müdaxiləsini pisləməsi onun siyasi mövqeyini daha da aydınlaşdırmışdı. Bu şəraitdə qurultaya nümayəndə seçilməsi Heydər Əliyevin siyasi fəaliyyətinə yeni hüquqi və ictimai məzmun gətirdi. O, artıq yalnız keçmişdə yüksək vəzifələr tutmuş siyasi xadim kimi deyil, Azərbaycan Kommunist Partiyasının qurultayına seçilmiş nümayəndə kimi ölkəyə qayıtmaq imkanına malik idi.

Hadisələrin sonrakı inkişafı bu seçimin yaratdığı siyasi əhəmiyyəti daha aydın göstərdi. Heydər Əliyevin Azərbaycana qayıtmasının qarşısını almaq üçün müxtəlif vasitələrdən istifadə olunması barədə məlumatlar mövcuddur. Mənbədə onunla sıx əlaqə saxlayan nəşriyyatın direktoru Əjdər Xanbabayevin 1990-cı il mayın 30-da qətlə yetirilməsi də həmin dövrün ağır siyasi atmosferi ilə əlaqələndirilir.

Əjdər Xanbabayevin fəaliyyəti xüsusi diqqətə layiqdir. O, Heydər Əliyevlə telefon əlaqəsi saxlayır, onun fikirlərinin mətbuatda işıqlandırılmasına imkan yaratmağa çalışırdı. Bu fəaliyyət nəticəsində onun üzərində nəzarət gücləndirilmişdi.

Bu hadisələr Heydər Əliyevin qurultayda iştirakının hansı siyasi mühitdə baş verdiyini göstərir. Söhbət yalnız bir şəxsin qurultayda iştirak etmək hüququndan getmirdi. Məsələ Azərbaycan cəmiyyətində dəyişən siyasi münasibətlərin, milli şüurun yüksəlişinin və xalqın öz siyasi iradəsini ifadə etmək istəyinin daha geniş prosesə çevrilməsindən gedirdi.

## Azərbaycanın dövlətçilik tarixində xüsusi mərhələ

1990-cı il iyunun 8-də başlayan Azərbaycan Kommunist Partiyasının XXXII qurultayı iyulun 27-dək davam etdi. Heydər Əliyev həmin qurultayda iştirak etmək üçün Azərbaycana gəldi. Lakin onun Bakıda uzun müddət qalmasına siyasi imkan yaradılmadı və o, Naxçıvana qayıtdı. Bununla belə, hadisənin əsas siyasi nəticəsi artıq ortaya çıxmışdı. Heydər Əliyev uzun illərdən sonra Azərbaycan ərazisinə qayıtmışdı. Onun qayıdışı Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi yaratdı. Naxçıvan isə onun siyasi fəaliyyətinin növbəti mühüm mərhələsinin əsas mərkəzinə çevrildi.

Naxçıvanda Heydər Əliyevin siyasi fəaliyyəti Azərbaycanın milli dövlətçilik tarixində xüsusi mərhələ təşkil edir. Burada onun fəaliyyəti milli maraqların müdafiəsi, siyasi iradənin ifadəsi və müstəqillik ideyasının möhkəmlənməsi istiqamətində yeni məzmun qazandı. Sonrakı hadisələr göstərdi ki, Naxçıvanda formalaşan siyasi xətt Azərbaycanın müstəqillik prosesinin mühüm dayaqlarından birinə çevrilmişdi.

Beləliklə, Heydər Əliyevin qurultaya nümayəndə seçilməsi bir neçə istiqamətdə mühüm əhəmiyyət daşıyırdı. Bir tərəfdən, bu seçim onun Azərbaycan siyasi həyatına qayıdışı üçün hüquqi əsas yaratdı. Digər tərəfdən, həmin seçim Azərbaycan cəmiyyətində onun siyasi nüfuzunun qorunduğunu nümayiş etdirdi. Daha mühüm məqam isə bu hadisənin xalqın siyasi iradəsinin müəyyən bir ifadəsi kimi tarixə düşməsidir.

Hadisəyə yalnız 1990-cı ilin siyasi prosesləri çərçivəsində yanaşmaq da kifayət etmir. Bu hadisənin arxasında Heydər Əliyevin uzun illər ərzində formalaşdırdığı siyasi nüfuz dayanırdı. 1969-cu ildən başlayaraq, Azərbaycanda həyata keçirdiyi idarəçilik fəaliyyəti, 1982-ci ildən sonra SSRİ rəhbərliyində tutduğu yüksək vəzifələr və ittifaq miqyasında qazandığı siyasi təcrübə onun cəmiyyət tərəfindən qəbul edilməsində mühüm rol oynayırdı.

Heydər Əliyevin qurultaya qayıdışı həm də sovet siyasi sistemində mövcud olan dəyişikliklərin Azərbaycan cəmiyyətində necə fərqli məna qazandığını göstərirdi. Moskvada "yenidənqurma", aşkarlıq və siyasi dəyişikliklər haqqında geniş danışıldığı bir vaxtda Azərbaycanda milli məsələ, Qarabağ problemi və xalqın siyasi iradəsi daha kəskin şəkildə gündəmə gəlirdi. Bu ziddiyyətli siyasi mühitdə Heydər Əliyevin Azərbaycana qayıdışı cəmiyyətin diqqət mərkəzinə çevrilmişdi.

Burada Heydər Əliyevin siyasi davranışının başqa bir xüsusiyyəti də diqqət çəkir. O, qarşılaşdığı təzyiqlərə baxmayaraq, qurultaya getmək qərarını şəxsi ambisiyanın nəticəsi kimi təqdim etmirdi. Onun öz ifadələrində Vətənə qayıtmaq arzusu ön plana çıxırdı. Bu baxımdan qurultay onun üçün siyasi tribunadan daha geniş məna daşıyırdı. Qurultay Azərbaycana qayıtmaq və xalqla birbaşa təmas qurmaq üçün yaranmış real imkan idi.

Bu hadisənin tarixi əhəmiyyəti sonrakı inkişaf fonunda daha aydın görünür. Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyətini davam etdirdi, milli dövlətçilik düşüncəsinin möhkəmlənməsinə xidmət edən qərarlar qəbul etdi və Azərbaycanın siyasi həyatında yenidən əsas fiqurlardan birinə çevrildi. Sonrakı mərhələdə onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə dövlətçilik tarixində yeni mərhələ başladı.

Bu baxımdan 1990-cı il qurultayı Heydər Əliyevin siyasi həyatında sadəcə bir hadisə kimi deyil, onun Azərbaycana qayıdış prosesinin mühüm mərhələsi kimi qiymətləndirilir. Moskvada uzun müddət siyasi təzyiqlərlə üzləşmiş, yüksək vəzifələrdən uzaqlaşdırılmış və ağır xəstəlik keçirmiş bir dövlət xadiminin yenidən Azərbaycan siyasi məkanına daxil olması həm siyasi, həm də mənəvi baxımdan böyük əhəmiyyət daşıyırdı.

Bəs Heydər Əliyevin qurultayda iştirakı nə üçün bu qədər həyacan doğururdu? Çünki onun qurultayda iştirakı siyasi keçmişin xatırlanmasından daha böyük məna daşıyırdı. Bu iştirak xalqın yaddaşında yaşayan siyasi liderin yenidən siyasi səhnəyə qayıtması demək idi. Onun Azərbaycana gəlişi ilə cəmiyyətin müxtəlif təbəqələrində yeni siyasi gözləntilər meydana çıxırdı. Heydər Əliyevin nüfuzu onun qarşısında duran siyasi maneələrin əsas səbəblərindən biri idi.

Azərbaycan cəmiyyəti üçün isə bu hadisə uzun illər ölkənin siyasi həyatından uzaqda saxlanılmış bir liderin yenidən Vətən torpağına qədəm qoyması anlamına gəlirdi. Məhz buna görə həmin dövrdə Heydər Əliyevin qurultayda iştirakı ətrafında yaranan narahatlıq yalnız bir siyasi tədbirin nəticələri ilə bağlı hesablanmamalıdır. Burada Azərbaycan cəmiyyətinin gələcək siyasi istiqamətinin necə formalaşacağı məsələsi də dayanırdı.

Sonrakı tarix göstərdi ki, bu narahatlığın arxasında duran siyasi reallıq ciddi idi. Heydər Əliyev Naxçıvanda fəaliyyətə başladı, milli azadlıq və müstəqillik ideyalarının siyasi məzmun qazanmasına mühüm təsir göstərdi. Onun dövlətçilik konsepsiyası sonrakı illərdə Azərbaycanın siyasi inkişafının əsas istiqamətlərindən birinə çevrildi.

Heydər Əliyevin siyasi irsinin ən mühüm xüsusiyyətlərindən biri də məhz böhranlı dövrlərdə siyasi istiqaməti müəyyənləşdirə bilməsi idi. 1990-cı il Azərbaycan üçün belə bir dövr idi. Qarabağ məsələsi kəskinləşirdi, milli hərəkat genişlənirdi, sovet siyasi sistemi dərin böhran yaşayırdı və cəmiyyət gələcək haqqında ciddi suallarla üz-üzə qalmışdı. Belə bir şəraitdə Heydər Əliyevin Azərbaycana qayıdışı siyasi proseslərin gedişinə əhəmiyyətli təsir göstərdi.

Bu gün həmin hadisəyə nəzər salarkən onun yalnız bir qurultay epizodu olmadığını görmək mümkündür. Naxçıvan, Ordubad və Şərur nümayəndələrinin təşəbbüsü ilə Heydər Əliyevin qurultaya seçilməsi Azərbaycan cəmiyyətində siyasi yaddaşın və ictimai etimadın mühüm göstəricilərindən biri kimi tarixdə qaldı. Ulu Öndərin qurultaya qatılması ilə başlayan proses sonrakı mərhələlərdə Azərbaycanın müstəqil dövlətçilik yolunun mühüm siyasi dayaqlarından birinə çevrildi.

Heydər Əliyevin siyasi fəaliyyətini qiymətləndirərkən ən mühüm məqam onun müxtəlif tarixi şəraitlərdə dövlətçilik düşüncəsini qoruyub saxlamasıdır. Moskvanın ən yüksək siyasi dairələrində çalışdığı illərdə də, siyasi təzyiqlərə məruz qaldığı dövrdə də, Naxçıvanda fəaliyyət göstərdiyi mərhələdə də onun siyasi mövqeyində Azərbaycan amili mühüm yer tuturdu. Bu baxımdan onun qurultaya qayıdışı siyasi tariximizin yaddaşında xüsusi yer tutur. Çünki həmin qayıdış Azərbaycan xalqının öz siyasi iradəsini ifadə etdiyi mürəkkəb tarixi şəraitdə baş verdi. Heydər Əliyevin Azərbaycana dönüşü ilə xalqın siyasi yaddaşında qorunan liderlik obrazı real siyasi fəaliyyətə yenidən çevrildi.

Tarixin müəyyən məqamlarında bir hadisənin əhəmiyyətini onun baş verdiyi günün çərçivəsində qiymətləndirmək çətin olur. Bəzən hadisənin əsl mahiyyəti sonrakı illərdə üzə çıxır. Heydər Əliyevin Azərbaycan KP-nin XXXII qurultaya nümayəndə seçilməsi də belə hadisələrdən biridir. Həmin seçim əvvəlcə gözlənilməz siyasi qərar kimi görünürdü. Sonrakı inkişaf isə onun Azərbaycanın siyasi tarixində dönüş yaradan proseslərdən birinin başlanğıc nöqtəsinə çevrildiyini göstərdi.

Heydər Əliyevin qurultaya gəlməsi ətrafında yaranan həyəcan da məhz buradan qaynaqlanırdı. Siyasi rəhbərlik üçün bu hadisə idarəolunmaz yeni proseslərin başlanması ehtimalını artırırdı. Azərbaycan cəmiyyəti üçün isə bu qayıdış uzun müddət uzaqda saxlanılan siyasi liderlə yenidən görüşmək, onun mövqeyini dinləmək və gələcəyə dair yeni siyasi ümidlər formalaşdırmaq imkanı yaradırdı.

Nəticə etibarilə Heydər Əliyevin 1990-cı ildə Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına nümayəndə seçilməsi və Azərbaycana qayıtması milli siyasi tariximizin mühüm hadisələrindən biridir. Bu hadisə onun siyasi fəaliyyətinin Moskva mərhələsindən Azərbaycan mərhələsinə keçidini sürətləndirdi. Naxçıvanda başlayan yeni siyasi fəaliyyət isə sonrakı illərdə Azərbaycanın dövlətçilik tarixinin mühüm istiqamətlərindən birinə çevrildi.

Heydər Əliyevin qurultayda iştirakı ətrafında yaranan həyəcanı anlamaq üçün həmin dövrün siyasi mənzərəsinə bütöv şəkildə baxmaq lazımdır. Bu mənzərədə bir tərəfdə böhran keçirən sovet siyasi sistemi, digər tərəfdə milli azadlıq düşüncəsi güclənən Azərbaycan cəmiyyəti, üçüncü tərəfdə isə uzun illər ərzində böyük siyasi təcrübə toplamış və xalq arasında nüfuzunu qoruyub saxlamış Heydər Əliyev dayanırdı.

Məhz bu üç amilin kəsişməsi 1990-cı il qurultayını Azərbaycan tarixində xüsusi hadisəyə çevirdi. Heydər Əliyevin Azərbaycana qayıdışı sonrakı siyasi proseslərin istiqamətinə ciddi təsir göstərdi və onun siyasi irsinin Azərbaycan dövlətçiliyinin sonrakı inkişafında mühüm rol oynamasına zəmin yaratdı.

Bu tarixdən çıxan əsas nəticə isə budur. Böyük siyasi şəxsiyyətlərin tarixi rolu yalnız tutduqları vəzifələrlə ölçülmür. Onların cəmiyyət qarşısında qazandıqları etimad, böhranlı dövrlərdə göstərdikləri siyasi iradə və dövlətçilik düşüncəsinin davamlılığı da tarixi qiymətin mühüm meyarlarını təşkil edir. Heydər Əliyevin 1990-cı ildə qurultaya nümayəndə seçilməsi bu siyasi iradənin və ictimai etimadın mühüm təzahürlərindən biri kimi Azərbaycan tarixində öz yerini tutmuşdur.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# TDT-nin gücləndirilməsi zamanın tələbidir

## İlham ƏLİYEV: "Regional təhlükəsizliklə bağlı məsələlər çox mühüm əhəmiyyət kəsb edir"

**Müasir dünyada baş verən geopolitik çaxnaşmalar, müharibələr və iqtisadi böhranlar fonunda dövlətlərin təkbaşına bu kataklizmlərə müqavimət göstərməsi günbəgün çətinləşir. Belə bir mürəkkəb dövrdə Türk Dövlətləri Təşkilatının (TDT) getdikcə güclənməsi və üzv ölkələrin bir araya gəlməsi həm də ümumilikdə regionun təhlükəsizliyinin əsas zəmanətinə çevrilir. Sentyabrın 17-də Prezident İlham Əliyevin TDT-yə üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul edərkən səsləndirdiyi fikirlər, bu birliyin nə dərəcədə həyati və strateji əhəmiyyət kəsb etdiyini bir daha nümayiş etdirdi.**

### Təhlükəsizlik məsələləri birnömrəli prioritetə çevrilməlidir

Bu gün dünya gözümüzün önündə yenidən şəkillənir, beynəlxalq hüquq mexanizmləri iflic vəziyyətinə düşür. Faktiki olaraq müasir dünyada sülh və sabitlik anlayışları böyük təhdidlərlə üz-üzədir. Yaxın Şərqdən Avropaya qədər geniş bir coğrafiyada münaqişə ocaqları böyüyür. Dövlətimizin rəhbərinin də vurğuladığı kimi, xüsusilə regional münaqişələrin alovlandığı bir dövrdə təhlükəsizlik məsələləri birnömrəli prioritetə çevrilməlidir: "Ətrafımızda müharibələr gedir və bu müharibələrin nə sonu, nə də qurtaracağı görünür. Müharibələrin coğrafiyası genişlənir. Döyüşən tərəflər arasında qarşılıqlı düşmənçilik açıq xarakter alır. Bütün bunlar ölkələrimizin perimetri boyunca mövcud olan münaqişələrin coğrafiyasının genişlənməsinə səbəb ola bilər və prinsipcə, səbəb də olur. Hazırkı vəziyyətdə də, Azərbaycan haqqında danışsaq, həm şimalda, həm də cənubda qonşularımız müharibə aparan ölkələrdir. Bu kontekstdə də, əlbəttə ki, regional təhlükəsizliklə bağlı məsələlər çox mühüm əhəmiyyət kəsb edir".

Enerji resurslarının nəqli, beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və sərhədlərin qorunması sistemli koordinasiya tələb edir. Əgər bir ölkədə sabitlik yoxdursa, orada nə iqtisadi artım, nə də investisiyadan söhbət gedə bilər. Bu mənada TDT-yə üzv ölkələrin təhlükəsizlik qurumlarının çevik əməkdaşlığı, birgə profilaktik tədbirlər görməsi türk dünyasının xarici təhdidlərə qarşı gücünü artırmaqda böyük əhəmiyyət daşıyır.

Müasir dövrdə təhlükəsizlik təkcə fiziki sərhədlərin qorunması ilə bitmir. Ən böyük təhlükələrdən biri də xaricdən idarə olunan ideoloji təxribatlardır. Cəmiyyəti daxildən parçalamaq, milli dəyərləri aşındırmaq və gənc nəsli öz kökündən ayırmaq cəhdləri qarşısında ən böyük sipər mənəvi birlikdir: "Ölkələrimizin ardıcıl inkişafını və konstitusiya quruluşunun qorunmasını təmin etmək üçün ölkələrimizə və xalqlarımıza zidd hər cür ideoloji təxribatlara qarşı birgə mübarizə aparmaq lazımdır. O cümlədən, adətən, ölkələrimizin hüdudlarından çox uzaqda yerləşən, lakin nədənsə məlum mərkəzlərdən maliyyələşən müxtəlif media strukturları vasitəsilə həyata keçirilən təxribatlara qarşı", - deyə Prezident İlham Əliyev vurğuladı.

Bu çirkin cəhdlərə qarşı Azərbaycanda çox fəal mübarizə aparıldığını və böyük uğurlar əldə edildiyini söyləyən ölkəmizin rəhbəri vurğuladı ki, Azərbaycanda xain, antimilli, satqın strukturlar mahiyyət etibarilə son dərəcə marjinal xarakter daşıyır: "Beləliklə, ölkələrinizin təhlükəsizlik şuralarının rəhbərləri kimi qarşınızda duran vəzifələr, təbii ki, kifayət qədər böyükdür. Düşünürəm ki, 5-ci iclas çərçivəsində həm məlumat, həm də təcrübə mübadiləsi aparılacaq. Hesab edirəm ki, zəif yerlərimizin harada olduğunu, bizə zərər vurmağa çalışan yad ünsürlərin nüfuz edə biləcəyi, necə deyərlər, hansı pəncərələrin mövcud olduğunu müəyyənləşdirmək faydalı olacaq".

TDT-ni digər beynəlxalq təşkilatlardan fərqləndirən əsas amil onun köklərinin ortaq tarixə, dilə və mənəviyyata dayanmasıdır. Çıxışında Prezident İlham Əliyev gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasını, gənclər təşkilatlarının fəal əməkdaşlığını vacib şərt kimi irəli sürdü: "...TDT çərçivəsində məhz gənclər təşkilatlarımızın qarşılıqlı fəaliyyətinə daha çox diqqət yetirməliyik, müntəzəm tədbirlər, forumlar, konfranslar keçirməliyik ki, gənc vətəndaşlarımız bir-biri ilə ünsiyyət qursunlar. Onlar qohum xalqlara bizim nəslin münasibət göstərdiyi kimi münasibət göstərsinlər. Bunu, əlbəttə, öz nümunəmiz, uğurlu fəaliyyətimiz, təşkilatımızın möhkəmləndirilməsi ilə yanaşı, düzgün ideoloji iş vasitəsilə onlara ötürməliyik".

### Qlobal iqtisadiyyatın aparıcı qovşaqlarından biri

TDT məkanı həm də qlobal iqtisadiyyatın aparıcı qovşaqlarından biridir. Azərbaycanın Avropa ilə Asiya arasında körpü rolu oynaması, Mərkəzi Asiyanın zəngin resurslarının beynəlxalq bazarlara çıxarılması bu birliyin geo-iqtisadi çəkisini artırır.

2009-cu ildə Naxçıvanda qoyulan bünövrədən bu günə qədər keçilən yol göstərir ki, TDT artıq regional çərçivədən çıxaraq qlobal miqyasda söz sahibinə çevrilir. Təşkilatın qeyri-rəsmi Zirvə görüşlərinin, məsələn, Şuşa Zirvəsinin keçirilməsi liderlər səviyyəsində çevik qərarların alınmasını asanlaşdırır.

Bu quruma üzv ölkələrin bir çoxunun, o cümlədən Azərbaycanın müstəqilliyinin ilk illərində qarşılaşdığı çətin sınaqlar artıq geridə qalıb. Bu gün Mərkəzi Asiyadan Qafqaza qədər uzanan türk dünyası gənc dövlətlərin inkişafı ilə qlobal güc mərkəzi kimi formalaşır.

Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, ölkələrimiz böyük təbii ehtiyatlara malikdir və bu da böyük üstünlükdür: "Bu təbii ehtiyatlar dövlətlərimizin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir, həmçinin bütün dünya üçün mühüm rol oynayır. Xüsusilə sərhədlərimizin perimetri boyunca mövcud olan bugünkü şəraitdə enerji təhlükəsizliyi ilə bağlı məsələlər mühüm əhəmiyyət kəsb edir".

Azərbaycanın Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanla imzaladığı müttəfiqlik bəyannamələri, o cümlədən Qazaxıstan, Özbəkistan və Qırğızıstanla yaradılan birgə investisiya fondları həm də TDT çərçivəsində iqtisadi inteqrasiyanı daha da dərinləşdirir.

Təşkilat artıq sadəcə regional əməkdaşlıq platforması yox, ortaq soy-kökə, ən əsası isə gələcəyə birgə irəliləmək iradəsinə söykənən sarsılmaz gücdür. Təşkilatın hər bir üzvü gücləndikcə, türk dünyası qlobal xaosun ortasında sülhün və tərəqqinin ən etibarlı ünvanına çevrilir, təhlükəsizlik adası kimi diqqəti cəlb edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın dünyada artan nüfuzu: *fəal diplomatiya və milli maraqlara əsaslanan siyasət*

**XXI əsrin üçüncü onilliyində beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər dövlətlərin qarşısında əvvəlkindən daha mürəkkəb və çoxşaxəli vəzifələr qoyur. Dünyada siyasi və iqtisadi güc mərkəzlərinin nisbəti dəyişir, yeni əməkdaşlıq formatları yaranır, nəqliyyat və enerji marşrutlarının geosiyasi əhəmiyyəti artır, dövlətlər öz milli maraqlarını qorumaq üçün daha çevik diplomatik mexanizmlərə ehtiyac duyurlar.**

Belə bir mürəkkəb geosiyasi mənzərədə Azərbaycanın son illər beynəlxalq münasibətlər sistemində qazandığı mövqeyə ayrı-ayrı diplomatik uğurların məcmusu kimi baxmaq kifayət deyil, həm də bu, ardıcıl siyasi xəttin, məqsədyönlü diplomatiyanın, iqtisadi imkanların və dəyişən beynəlxalq şəraitə uyğun qərarların nəticəsi kimi formalaşıb.

Azərbaycanın xarici siyasətində əsas xüsusiyyətlərdən biri milli maraqlara söykənməsi, eyni zamanda müxtəlif güc mərkəzləri ilə qarşılıqlı faydalı münasibətləri inkişaf etdirməsidir. Bu yanaşma ölkənin xarici siyasətini birtərəfli asılılıqdan uzaq tutmağa, müxtəlif istiqamətlərdə əməkdaşlıq imkanlarını genişləndirməyə şərait yaradıb.

Bu siyasətin formalaşmasında Prezident İlham Əliyevin ardıcıl, məntiqli və çoxvektorlu siyasi xətti xüsusi əhəmiyyət daşıyır. Burada "çoxvektorlu" anlayışı sadəcə müxtəlif ölkələrlə əlaqələrin genişləndirilməsi kimi başa düşülməməlidir. Söhbət Azərbaycanın eyni vaxtda müxtəlif siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar platformalarda öz milli maraqlarına uyğun iştirak etməsindən gedir. Avropa ilə enerji və nəqliyyat əməkdaşlığı, Asiya ölkələri ilə iqtisadi və siyasi əlaqələrin dərinləşdirilməsi, türk dövlətləri ilə strateji tərəfdaşlığın genişləndirilməsi, qonşu ölkələrlə münasibətlərin inkişafı, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda fəal iştirak bu siyasətin müxtəlif istiqamətlərini təşkil edir. Prezident İlham Əliyevin verdiyi müsahibələrdə də Azərbaycanın ənənəvi tərəfdaşlıq istiqamətləri ilə yanaşı, Asiya, Afrika, Latın Amerikası və Qoşulmama Hərəkatı ölkələri ilə əlaqələrinin genişləndirilməsinin xarici siyasətin mühüm istiqamətlərindən biri olduğu qeyd edilmişdi.

Ölkəmizin beynəlxalq nüfuzunun artmasını şərtləndirən mühüm amillərdən biri də uzun illər aparılan enerji diplomatiyasıdır. "Əsrin müqaviləsi" ilə başlayan enerji strategiyası sonrakı mərhələlərdə Azərbaycanı yalnız enerji resursları ixrac edən ölkə deyil, Avropanın enerji təhlükəsizliyinə töhfə verən mühüm tərəfdaşa çevirən layihələrlə davam etdirilib. Bu xəttin mahiyyəti ondan ibarətdir ki, enerji siyasəti xarici siyasətdən təcrid olunmuş iqtisadi istiqamət kimi deyil, Azərbaycanın regional və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirən strateji vasitə kimi formalaşıb.

Eyni məntiq nəqliyyat diplomatiyasında da özünü göstərir. Azərbaycanın coğrafi mövqeyi ölkəyə Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm əlaqələndirici rol oynamaq imkanı verir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolu və digər infrastruktur layihələri bu potensialın reallaşdırılmasına xidmət edir. Xüsusilə Orta dəhliz Azərbaycanın geoiqtisadi əhəmiyyətini artıran istiqamətlərdəndir. Dünya Bankının araşdırmalarında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Çin və Avropa bazarlarını Mərkəzi Asiya və Cənubi Qafqaz vasitəsilə birləşdirən multimodal dəhliz olduğu və lazımi investisiya və səmərələşdirmə tədbirləri ilə 2030-cu ilədək yükdaşımaların əhəmiyyətli dərəcədə artırıla biləcəyi qeyd olunur. Azərbaycan bu marşrutun əsas ölkələrindəndir.

Azərbaycan üçün coğrafi mövqe sadəcə xəritədə yerləşmə xüsusiyyəti deyil, həm də diplomatik və iqtisadi resursa çevrilir. Ölkənin enerji, nəqliyyat və logistika imkanlarının bir-birini tamamlaması onun beynəlxalq münasibətlərdə çəkisini artıran mühüm faktorlardan biridir. Dünya Bankının 2025-ci il üzrə Azərbaycanla bağlı tərəfdaşlıq çərçivəsində də Orta dəhlizin inkişafı, nəqliyyat və rəqəmsal bağlantıların gücləndirilməsi prioritet istiqamətlər sırasında göstərilir.

Azərbaycanın diplomatik fəallığının digər mühüm göstəricisi Qoşulmama Hərəkatında oynadığı roldur. Azərbaycan 2019-cu ildə Hərəkatın sədrliyini üzərinə götürdü və bu sədrliyi dörd il həyata keçirdi. Sədrliyin müddəti üzv dövlətlərin yekdil qərarı ilə daha bir il uzadıldı. Sədrliyi dövründə Bakı Hərəkatın institusional imkanlarının möhkəmləndirilməsi və onun beynəlxalq münasibətlər sistemində fəallığının artırılması istiqamətində təşəbbüslər irəli sürdü. Bu təcrübə Azərbaycanın xarici siyasətinin mühüm xüsusiyyətini üzə çıxardı - Bakı yalnız özünün gündəlik milli məsələlərini beynəlxalq platformalarda ifadə etməklə kifayətlənmədi, eyni zamanda çoxtərəfli əməkdaşlıq mexanizmlərində təşəbbüskar mövqe tutmağa çalışdı. Qoşulmama Hərəkatındakı sədrliyi Azərbaycanın diplomatik imkanlarının və tərəfdaşlıq şəbəkəsinin genişlənməsi baxımından əhəmiyyətli mərhələ kimi qiymətləndirilə bilər. Azərbaycan 2024-cü ildə Hərəkatın sədrliyi başa çatdıqdan sonra sədrliyə keçmiş "Troika" formatında iştirakını davam etdirib.

Azərbaycanın beynəlxalq mövqeyinin dəyişməsində mühüm mərhələlərdən biri isə ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı yeni reallığın yaranmasıdır. Bu hadisə Cənubi Qafqazın siyasi mənzərəsinə ciddi təsir göstərməklə yanaşı, Azərbaycanın regional gündəliyə təsir imkanlarını da artırıb. Bunun ardınca əsas məsələlərdən biri regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması, dövlətlərarası münasibətlərin suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında normallaşdırılması məsələsinə çevrilib. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, ölkəmizin xarici siyasətində hərbi-siyasi məsələlərlə iqtisadi və diplomatik istiqamətlər bir-birindən ayrı proseslər kimi deyil, vahid strateji xəttin tərkib hissələri kimi çıxış edir. Suverenliyin və ərazi bütövlüyünün təmin olunması yeni regional əməkdaşlıq imkanları üçün siyasi zəmin yaradıbsa, enerji və nəqliyyat layihələri həmin imkanların iqtisadi məzmununu formalaşdırır. Diplomatik fəallıq isə bu proseslərin beynəlxalq müstəvidə daha geniş tərəfdaşlıq əlaqələri ilə tamamlanmasına xidmət edir.

Son illər Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi etməsi də ölkənin diplomatik çəkisinin göstəricilərindən biri kimi diqqət çəkir. 2024-cü ildə Bakıda keçirilən COP29 dünyanın diqqətini Azərbaycana yönəldən mühüm çoxtərəfli platformalardan biri oldu. Müxtəlif beynəlxalq təşkilatların tədbirlərinin Azərbaycanda keçirilməsi ölkəmizin qlobal dialoq məkanı kimi imkanlarını genişləndirib. 2026-cı ildə İslam İnkişaf Bankı Qrupunun illik toplantılarının Bakıda keçirilməsi ilə bağlı çıxışında Prezident İlham Əliyev Azərbaycanın müxtəlif beynəlxalq tədbirlərə evsahibliyi etməsini və beynəlxalq dəstəyi xarici siyasətin nəticələrindən biri kimi qeyd edib.

Azərbaycanın artan nüfuzunun başqa bir göstəricisi onun əlaqələrinin coğrafiyasının genişlənməsidir. 2025-ci ilin yekunları barədə Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında 41 ölkə ilə 191 sənədin imzalandığı, 52 dövlətlə siyasi məsləhətləşmələrin aparıldığı və bir sıra ölkələrlə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi bildirilir. Eyni mənbədə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrinin dərinləşməsi və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də vurğulanır. Bütün bunlar ölkəmizin beynəlxalq nüfuzunun yalnız siyasi bəyanatların nəticəsi kimi izah edilə bilməz. Bu nüfuzun arxasında real iqtisadi layihələr, enerji və nəqliyyat imkanları, diplomatik əlaqələr, beynəlxalq təşkilatlarda fəallıq və ölkənin öz milli maraqlarını ardıcıl müdafiə etmək bacarığı dayanır. Müasir diplomatiyada dövlətin çəkisi təkcə ərazisinin və əhalisinin ölçüsü ilə müəyyən olunmur, həm də onun nə qədər tərəfdaş yarada bilməsi, müxtəlif proseslərdə nə qədər konstruktiv rol oynaya bilməsi və öz maraqlarını beynəlxalq əməkdaşlıq mexanizmləri ilə nə dərəcədə uzlaşdıra bilməsi də mühüm əhəmiyyət daşıyır.

Ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri əldə edilmiş siyasi və diplomatik imkanları davamlı iqtisadi inkişafa, regional sabitliyə və daha geniş beynəlxalq əməkdaşlığa çevirməkdir. Orta dəhlizin inkişafı, enerji keçidində yeni imkanlar, "yaşıl enerji" layihələri, Mərkəzi Asiya ilə əlaqələrin dərinləşməsi və Avropa ilə əməkdaşlığın yeni istiqamətləri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Dünya Bankının Azərbaycan üzrə son əməkdaşlıq çərçivəsində nəqliyyat bağlantısı ilə yanaşı, "yaşıl enerji" dəhlizlərini və rəqəmsal bağlantının gücləndirilməsini prioritetlər sırasında göstərməsi də bu istiqamətlərin beynəlxalq iqtisadi gündəlikdəki əhəmiyyətini nümayiş etdirir. Azərbaycanın dünyada artan nüfuzu bir hadisənin deyil, uzunmüddətli və ardıcıl siyasi kursun formalaşdırdığı nəticə kimi meydana çıxır. Prezident İlham Əliyevin xarici siyasət xəttində ardıcıllıq strateji məqsədlərin qorunmasını, məntiqi yanaşma dəyişən beynəlxalq şəraitə uyğun çevik qərarların qəbul edilməsini, çoxvektorluluq isə müxtəlif dövlətlər və beynəlxalq platformalarla paralel əməkdaşlığın inkişafını ifadə edir. Bu siyasətin mərkəzində Azərbaycanın milli maraqları, suverenliyi, təhlükəsizliyi və iqtisadi inkişafı dayanır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "Azərbaycan Mərkəzi Asiya ölkələrinin beynəlxalq bazarlara çıxışında mühüm tranzit rolunu oynayır"

**"Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində mühüm nəqliyyat bağlantılarının üzərində yerləşir. Xüsusilə Xəzər dənizi üzərindən həyata keçirilən yükdaşımalar Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına çıxışında alternativ və strateji marşrut formalaşdırır".**

Bunu AZƏRTAC-a açıqlamasında **türk iqtisadçı-ekspert Canip NURAY** deyib.

Ekspert Azərbaycanın əlverişli coğrafi mövqeyinin Mərkəzi Asiya ölkələrinin beynəlxalq bazarlara çıxışında ölkəmizin tranzit əhəmiyyətini artırdığını bildirib. Onun sözlərinə görə, Azərbaycanın nəqliyyat infrastrukturunu son illərdə əhəmiyyətli dərəcədə inkişaf etdirilib.



"Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər regional nəqliyyat layihələri ölkəmizin tranzit imkanlarının genişlənməsinə şərait yaradıb. Bu layihələr Mərkəzi Asiya ölkələrindən gələn yüklərin Xəzər dənizi vasitəsilə Azərbaycana, buradan isə Gürcüstan və Türkiyə üzərindən Avropa istiqamətinə daşınması üçün mühüm imkanlar yaradır. Orta dəhlizin inkişafı Azərbaycanın tranzit potensialının daha da artırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Mərkəzi Asiya ölkələrinin istehsal etdiyi sənaye və kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılmasında bu marşrutun imkanlarından istifadə qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsinə xidmət edir", - deyə Canip Nuray qeyd edib.

Ekspertin fikrincə, nəqliyyat bağlantılarının inkişafı ilə yanaşı, enerji sahəsində əməkdaşlığın genişləndirilməsi də regional iqtisadi təhlükəsizliyin mühüm elementlərindən biridir. Azərbaycanın enerji infrastrukturu və beynəlxalq enerji layihələrində iştirakı ölkənin Avropa və Asiya arasında enerji əməkdaşlığında rolunu gücləndirir: "Azərbaycanın coğrafi mövqeyi və formalaşdırdığı müasir nəqliyyat infrastrukturu bütün üzv dövlətlər üçün yeni iqtisadi imkanlar yaradır. Xəzər dənizi üzərindən tranzit daşımaların artırılması Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına çıxışını asanlaşdırmaqla yanaşı, Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyini də möhkəmləndirir".

O əlavə edib ki, gələcəkdə tranzit marşrutlarının səmərəliliyinin artırılması, limanların və dəmir yolu infrastrukturunun imkanlarının genişləndirilməsi, rəqəmsal gömrük və logistika sistemlərinin tətbiqi region ölkələri arasında ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərə bilər.

Canip Nurayın sözlərinə görə, Azərbaycan üzərindən həyata keçirilən nəqliyyat və enerji layihələri yalnız ölkələrin iqtisadi maraqlarına deyil, bütövlükdə Avrasiya məkanında dayanıqlı və təhlükəsiz bağlantıların formalaşmasına xidmət edir.

# TDT-nin nəqliyyat və enerji təhlükəsizliyində rolu getdikcə artır

**"Nəqliyyat və enerji təhlükəsizliyi sahəsində Türk Dövlətləri Təşkilatının (TDT) rolu son illərdə getdikcə artır. Bu istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi həm üzv və müşahidəçi dövlətlər arasında əlaqələrin möhkəmlənməsinə, həm də regionun iqtisadi və strateji əhəmiyyətinin yüksəlməsinə mühüm töhfə verir".**



Bunu AZƏRTAC-a açıqlamasında **türkiyəli iqtisadçı-ekspert İlhan İŞBAŞ** bildirib.

Türk ekspert qeyd edib ki, müasir dövrdə enerji təhlükəsizliyi və etibarlı nəqliyyat bağlantıları ölkələrin ümumi təhlükəsizlik sisteminin əsas elementlərindən birinə çevrilib. Onun sözlərinə görə, enerji resurslarının fasiləsiz və şaxələndirilmiş marşrutlarla daşınması, eyni zamanda yük və sərnişin daşımaları üçün dayanıqlı nəqliyyat infrastrukturlarının formalaşdırılması dövlətlərin iqtisadi dayanıqlılığı baxımından mühüm əhəmiyyət daşıyır.

İ.İşbaş əlavə edib ki, TDT çərçivəsində nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi Mərkəzi Asiya, Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə imkan yaradır.

"Bu baxımdan Orta dəhlizin inkişafı, Xəzər dənizi üzərindən keçən marşrutların səmərəliliyinin artırılması və gömrük-logistika prosedurlarının sadələşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Enerji sahəsində əməkdaşlığın genişləndirilməsi də TDT ölkələri üçün strateji əhəmiyyət daşıyır. Enerji mənbələrinin və nəqli marşrutlarının şaxələndirilməsi, elektrik enerjisi və digər enerji resursları üzrə regional əməkdaşlığın gücləndirilməsi ümumi enerji təhlükəsizliyinə töhfə verə bilər. Enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları olmadan ümumi təhlükəsizlikdən danışmaq mümkün deyil", - deyə İ.İşbaş bildirib.

Ekspertin fikrincə, qarşıdakı dövrdə TDT çərçivəsində nəqliyyat, enerji və logistika sahələrində birgə layihələrin artırılması təşkilata üzv ölkələrin iqtisadi potensialının daha səmərəli şəkildə reallaşdırılmasına şərait yaradacaq: "Bu proses həmçinin türk dünyası ilə digər regionlar arasında ticarət əlaqələrinin genişlənməsinə xidmət edə bilər".

# Tarixi ədalətin bərpası və milli iradənin təntənəsi



**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması xalqımızın azadlıq mübarizəsinin, sarsılmaz iradəsinin və güclü dövlətçilik təfəkkürünün ən uca zirvəsini təşkil edir. Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 19-da imzaladığı "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" sərəncamı bu böyük tarixi zəfərin, milli qürurun və ədalətin təntənəsinin rəsmi təsbitidir.**

20 sentyabr tarixinin Dövlət Suverenliyi Günü kimi qeyd olunması onilliklər boyu davam edən mürəkkəb, ziddiyyətli və gərgin bir mübarizə yolunun şərəfli yekunudur. Tarixi zəfərə aparan yolun dərin təhlili göstərir ki, Azərbaycan xalqı son otuz ildə böyük sınaqlardan keçib. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz və işğalçılıq siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi zəbt edildi. Otuz ilə yaxın davam edən işğal dövründə Ermənistan öz havadarlarının dəstəyi ilə təkcə torpaqlarımızı zəbt etməklə kifayətlənmədi, həm də azərbaycanlılara qarşı sistemli etnik təmizləmə siyasəti yürütdü.

Doğma ocaqlarından didərgin düşmüş bir milyondan artıq soydaşımızın hüquqları tapdalandı, işğal olunmuş ərazilərdə insanlıq əleyhinə ağır cinayətlər və hərbi cinayətlər törədildi. Şəhər və kəndlərimiz yerləyeksan edildi, mədəni-tarixi irsimizi silməyə çalışdılar. Xocalıda əsrə damğasını vuran dəhşətli soyqırımı aktı törədildi.

Təəssüf ki, otuz il boyunca beynəlxalq aləm bu ədalətsizliyə göz yumdu. Başda Birləşmiş Millətlər Təşkilatı olmaqla, aparıcı beynəlxalq qurumlar və beynəlxalq birlik Ermənistana qarşı işğala son qoymaq üçün heç bir məcburetmə tədbiri həyata keçirmədi, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi kağız üzərində qaldı. ATƏT-in Minsk qrupu başda olmaqla, bir çox vasitəçilik missiyaları münaqişənin ədalətli həllinə deyil, mövcud status-kvonu dondurmağa və faktiki olaraq işğalı qanuniləşdirməyə xidmət edən yarıtmaz bir fəaliyyət nümayiş etdirdi. Beynəlxalq hüququn ikili standartlar üzərində qurulduğu bu mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın öz gücünə güvənməsindən, milli maraqlarını müdafiə etmək üçün güclü hərbi, iqtisadi və diplomatiya strategiyası hazırlamasından başqa bir yolu qalmadı.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə illər boyu ardıcıllıqla yürüdülən hərtərəfli dövlət siyasəti məhz bu məqsədə yönəldi. Dövlət başçısının qətiyyətli siyasi iradəsi, bütün beynəlxalq kürsülərdə, görüşlərdə, müsahibələrdə və çıxışlarda irəli sürdüyü birmənalı tezislər göstərirdi ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcək. Bu prinsipial mövqe və həyata keçirilən ordu quruculuğu siyasəti 2020-ci ilin sentyabrında tarixi dönüş nöqtəsinə çevrildi.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri düşmənin otuz il boyunca qurduğu möhkəmləndirilmiş müdafiə xətlərini yararaq doğma torpaqlarımızı işğaldan azad etdi. Noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan üçtərəfli Bəyanat Ermənistanın tam kapitulyasiyasının rəsmiləşdirilməsi və işğalçı qoşunların Azərbaycan ərazisindən çıxarılması öhdəliyinin götürülməsi ilə nəticələndi. Lakin Vətən müharibəsindəki böyük zəfərdən sonra da Ermənistan üzərinə götürdüyü öhdəliklərə sadiq qalmadı. 2020-ci ildən sonra istehsal edilmiş silah-sursatı, xüsusilə də minaları qanunsuz yollarla və Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan marşrutlarla Qarabağ bölgəsinə daşımağa davam etdi.

Erməni silahlı birləşmələri 480 kilometrədək təmas xətti boyunca yeni minalanmış ərazilər, 500-dən artıq döyüş mövqeyi, uzunmüddətli fortified (möhkəmləndirilmiş) atəş nöqtələri, 350-dən artıq artilleriya mövqeyi və müasir kəşfiyyat-müşahidə sistemləri quraşdıraraq növbəti hərbi revanşizmə hazırlaşırdılar. Bu təxribat-diversiya fəaliyyəti davamlı xarakter alaraq həm mülki şəxslərin, həm də hərbçilərin həyatına ciddi təhlükə yaradırdı.

Bu təxribatların kulminasiya nöqtəsi 2023-cü ilin sentyabrında baş verdi. Sentyabrın 18-də Azərbaycanın hava sahəsindən uçuşlar yerinə yetirən sərnişin təyyarələrinin GPS naviqasiya sistemlərinə qarşı qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiq edilməsi mülki aviasiya üçün açıq təhlükə yaratdı. Sentyabrın 19-da isə Xocavənd rayonu ərazisində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə və polis əməkdaşlarına məxsus avtomobillərin erməni diversiya qrupları tərəfindən döşənmiş minalara düşməsi nəticəsində mülki şəxslərin və daxili işlər orqanları əməkdaşlarının həlak olması dövlətimizin səbrini son həddə çatdırdı.

Yaranmış hərbi-siyasi zərurət fonunda 2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusu Qarabağ iqtisadi rayonunda lokal xarakterli unikal antiterror əməliyyatına başladı. Cəmi 24 saatdan da az bir müddətdə yüksək peşəkarlıqla və mülki əhaliyə zərər vurulmadan həyata keçirilən bu əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni hərbi birləşmələri tam tərk-silah edilərək təslim olmağa məcbur edildi. Bununla da Azərbaycan Respublikasının bütün ərazisində konstitusiya quruluşu bərpa olundu və ölkəmizin dövlət suverenliyi tam və qəti şəkildə təmin edildi.

Antiterror əməliyyatından sonra Qarabağda yerləşən erməni silahlı tör-töküntülərinin çıxarılması və tərk-silah edilməsi prosesi sürətlə tamamlandı. Qazanılan bu tarixi zəfərin məntiqi nəticəsi kimi, sonrakı mərhələdə Rusiya sülhməramlı kontingenti də Azərbaycan ərazisini vaxtından əvvəl tərk etdi. Beləliklə, ölkəmizin həm ərazi bütövlüyü, həm də suverenliyi bərpa olundu. Azərbaycan öz sərhədlərinə, öz torpaqlarına tam sahib çıxdı.

Dövlət suverenliyinə aparan bu şərəfli yol Prezident İlham Əliyevin iradəsinin, uzaqgörən xarici siyasətinin, dəqiq hesablanmış hərbi strategiyasının və milli maraqlara söykənən prinsipiallığının təntənəsidir. Hərbi, diplomatik və siyasi müstəvidə atılan hər bir uğurlu addım, beynəlxalq təzyiqlərə qarşı göstərilən qətiyyətli müqavimət və xalq-iqtidar birliyi bu tarixi nailiyyəti mümkün etdi.

Sentyabrın 20-nin Dövlət Suverenliyi Günü kimi təsis edilməsi Azərbaycan xalqının otuzillik həsrətinə son qoyaraq öz ərazi bütövlüyünü və konstitusiya quruluşunu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tam bərpa etməsinin, tarixi ədalətin və sarsılmaz dövlət iradəsinin əbədiləşmiş təntənəsidir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Qarabağda 30 illik arzularımızın gerçəkləşmiş mənzərəsi canlanır

**2023-cü il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən antiterror əməliyyatı cəmi 23 saat davam etdi və o heyrətamiz 23 saatın içərisində dövlətimizin suverenliyi bütün ərazilərimizdə bərpa olundu.**

Hərbi əməliyyatın görünən tərəfi silah, mövqe, texnika, döyüşdür. Ancaq bununla yanaşı, illərlə formalaşan dövlətçilik iradəsi, ordu quruculuğu, diplomatik mövqe, iqtisadi imkanlar, xalqın həmrəyliyi kimi amillər qələbənin əldə olunmasında çox mühüm əhəmiyyət daşıyır. Ona görə də suverenliyimizi bizə bəxş edən o mübariz 23 saata aparan tarixi yolu bu gün yada salmağımız vacibdir.

1990-cı illərin əvvəlləri Azərbaycan tarixinə ən ağır dövr kimi həkk olundu. Torpaqlar işğal edildi, şəhər və kəndlər dağıdıldı, yüz minlərlə insan yurdlarından didərgin düşdü. Neçə-neçə ailə doğmalarını, yaxınlarını, isti yuvalarını, ata-baba məzarlarını itirdilər. Xocalı faciəsi yaddaşımıza sağalmaz yara kimi yazıldı.

Azərbaycan bütün bu müsibətlərlə yanaşı, həm də daxili parçalanma təhlükəsi ilə üz-üzə qaldı. Xalqın yeganə ümid bəslədiyi dövlət xadimi - Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra ilk növbədə müstəqilliyimizin qorunmasını, ölkədə sabitliyin bərqərar edilməsini qarşıya əsas vəzifə kimi qoydu. Ulu Öndərin həyata keçirdiyi genişmiqyaslı siyasət Azərbaycan dövlətçiliyinin gücləndirilməsinə mühüm zəmin yaratdı. Ümummilli Liderin müdrik rəhbərliyi ilə müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin iqtisadiyyatının, beynəlxalq nüfuzunun, peşəkar diplomatiyasının, müasir ordusunun sarsılmaz təməli qoyuldu.

Azərbaycan həm dövlətçiliyini möhkəmləndirir, həm də pozulmuş ərazi bütövlüyünün bərpası üçün beynəlxalq müstəvidə mübarizəsini davam etdirirdi. Buna baxmayaraq, beynəlxalq təşkilatların uzun illər davam edən susqunluğu, qəbul olunmuş qərarların icra edilməməsi, ikili standartlar və qərəzli yanaşmalar Azərbaycan xalqının yaşadığı ədalətsizliyi daha da dərinləşdirirdi.

Bu 30 ildə bir çox Qarabağ sakini öz ata-baba yurdlarına qayıdacağı günü səbirsizliklə gözləyərək ömrünü başa vurdu. O insanlar həmin günü ümidlə, həsrətlə gözlədilər, amma görmədilər.

Bu tarixi missiyanın həyata keçirilməsi üçün Azərbaycan qarşıdakı illərdə daha da güclənməli, öz imkanlarını səfərbər etməli idi.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsində ölkəmiz öz iqtisadi və hərbi potensialını, beynəlxalq mövqelərini inkişaf etdirdi və tarixi torpaqlarımızın azad olunması üçün zəruri şəraiti formalaşdırdı.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın işğalına qarşı 44 günlük Vətən müharibəsinə başladı. Qarabağı görməyən gənc nəsil Qarabağa qayıdışı təmin etmək üçün ordu sıralarına daxil oldu. Şanlı döyüş yolu keçən qəhrəman oğullarımız tarixi Qələbələr ilə torpaqlarımızı işğaldan azad etdilər.

II Qarabağ müharibəsində Azərbaycanın Qələbə qazanmasından sonra dövlət suverenliyimizin ölkəmizin bütün ərazilərində tam təmin edilməsi əsas məsələ olaraq qalırdı. Azərbaycan dövləti bu məqsədə doğru siyasi, diplomatik və hərbi istiqamətlərdə ardıcıl addımlar atdı. 3 il əvvəl dövlətimizin apardığı antiterror əməliyyatı bu tarixi prosesin son və həlledici mərhələsi oldu.

O 23 saatın hər anında Azərbaycan Prezidentinin qətiyyəti və ölkəmizin igid oğullarının cəsarəti Vətən sevgisinin böyük gücünü bir daha nümayiş etdirdi.

İndi o dönəmi xatırlayarkən, həmin ağrılı, çətin 30 il gözlərimizin önündə canlanır. Amma eyni zamanda bu gün Qarabağa baxanda gözlərimizin önündə üçrəngli Azərbaycanın bayrağının qürurla dalğalandığını görürük.

Bu gün Qarabağa baxanda gözlərimizin önündə insanların öz doğma torpaqlarına qayıdışı, yenidən qurulan şəhər və kəndlərimiz, yaşayış məntəqələri, təhsil müəssisələri, mədəniyyət ocaqları, yollar, hava limanları, bərpa edilmiş, bizə əcdadlarımızın mirası olan tarixi abidələrimiz canlanır.

Bu gün Qarabağa baxanda milli həmrəyliyimizin bir daha şahidi oluruq.

Bu gün Qarabağa baxanda gözlərimizin önündən türk dünyasının birlik və bərabərliyi keçir.

Bu gün Qarabağda 30 illik arzularımızın gerçəkləşmiş mənzərəsi canlanır.

Və bu mənzərə eyni zamanda bizə qarşımızda dayanan böyük məsuliyyəti də xatırladır. Suverenliyimizi, müstəqilliyimizi qorumaq və möhkəmləndirmək bizim əbədi amalımız və hər birimizin, hər gün davam edən vətəndaşlıq vəzifəsi olmalıdır.

20 Sentyabr - Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günündə Vətən uğrunda həyatlarını qurban vermiş bütün şəhidlərimizin əziz ruhunu dərin ehtiramla yad edirik.

***Günay ƏFƏNDİYEVA,***
***Milli Məclisin deputatı***

# Bakıda keçirilən tədbirlər çoxşaxəli tərəfdaşlığı genişləndirir

**Azərbaycanın geosiyasi və etnomədəni xəritədəki yeri, sadəcə, coğrafi koordinat deyil, Avrasiyanın gələcəyi üçün strateji qovşaqdır. Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanın həm türk dünyasının ayrılmaz bir parçası, həm də bu regionda yerləşən yeganə türk dövləti olması onu regionun təkcə bir aktoruna deyil, geosiyasi dinamikanı formalaşdıran əsas güc mərkəzinə çevirir.**

AZƏRTAC Azərbaycanın türk dünyasındakı roluna və Türk Dövlətləri Təşkilatında (TDT) artan mövqeyinə qısa nəzər salır.

Qafqaz tarixi boyunca müxtəlif sivilizasiyaların qovuşduğu və etnosların yaşadıqları məkan olub. Bu rəngarəng coğrafiyada Azərbaycanın mövqeyi onu türk sivilizasiyasının Qərbdə möhkəm dayaq nöqtəsi, eyni zamanda Qafqaz dağları ilə Xəzər dənizi arasında körpü rolunu oynamağa sövq edir. Regionun digər dövlətlərindən fərqli olaraq, Azərbaycan özündə minilliklərə söykənən türk idarəçilik, dil və dövlətçilik ənənəsi ilə Qafqazın özünəməxsus etnomədəni mühitini bir araya gətirir. Bu sintez dövlətin xarici siyasətində və geoiqtisadi addımlarında özünü aydın büruzə verir. Azərbaycan TDT-nin mərkəzi sütunlarından biridir. Mərkəzi Asiyadakı türk respublikalarının Avropa və dünya bazarlarına çıxışı məhz Azərbaycanın infrastrukturu - Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və "Trans-Xəzər" Beynəlxalq Nəqliyyat Marşrutu vasitəsilə mümkündür. Beləliklə, Azərbaycan yalnız öz milli maraqlarını təmin etmir, həm də Mərkəzi Asiya ilə Anadolunu, nəticə etibarilə bütün türk dünyasını birləşdirən geoiqtisadi zəncir rolunu oynayır.

Cənubi Qafqaz müstəvisində isə Azərbaycanın yeganə türk dövləti olması həm böyük üstünlüklər, həm də ciddi diplomatik məsuliyyət yaradır. Türkiyə ilə imzalanan Şuşa Bəyannaməsi ilə keyfiyyətcə yeni mərhələyə qədəm qoyan müttəfiqlik münasibətləri regionda tamamilə yeni təhlükəsizlik və güc balansı yaradıb. Bu ittifaq Cənubi Qafqazda kənar güclərin mənfi təsir imkanlarını neytrallaşdıraraq, regional sabitliyin əsas zəmanətçisinə çevrilib. Eyni zamanda Naxçıvan ərazisindən reallaşdırılması nəzərdə tutulan nəqliyyat və kommunikasiya xətləri bütün regionun, o cümlədən türk dünyasının davamlı quru əlaqəsini bərpa etmək potensialı daşıyır. Bununla yanaşı, Azərbaycanın qafqazlı kimliyi onun daxili sabitliyinin və multikulturalizm modelinin təməlini təşkil edir. Əsrlər boyu Qafqazın müxtəlif yerli xalqları və etnik qrupları ilə birgəyaşayış təcrübəsi Azərbaycanda zəngin və tolerant mədəniyyət formalaşdırıb. Bu cəhət ölkəmizə regionda yalnız hərbi və ya iqtisadi güc kimi deyil, eyni zamanda sivilizasiyalararası dialoq və inteqrasiya məkanı kimi nüfuz qazandırır.

### Azərbaycanın TDT-nin inteqrasiyasındakı rolunun təməl sütunları

Azərbaycanın Türk Dövlətləri Təşkilatının inkişafında və daxili inteqrasiyasında oynadığı rol təsadüfi diplomatik fəallıq deyil, Avrasiyanın geosiyasi xəritəsini yenidən müəyyənləşdirən konseptual strategiyadır. 2009-cu ildə Naxçıvan Sazişinin imzalanması ilə təməli qoyulan bu platforma mədəni-humanitar məsləhətləşmə şurasından fəal siyasi, iqtisadi və hərbi-strateji bloka çevrilib. Azərbaycanın TDT-nin inteqrasiyasındakı rolu bir neçə təməl prinsipə əsaslanır. Belə ki, coğrafi dağınıqlılığı aradan qaldıran nəqliyyat-enerji inteqrasiyası ilk mühüm prinsipdir. Azərbaycan Xəzər dənizindən keçən "Trans-Xəzər" Beynəlxalq Nəqliyyat Marşrutunu (Orta dəhliz) inkişaf etdirərək Qazaxıstan, Özbəkistan və Türkmənistanın logistika imkanlarını Türkiyə və Avropa bazarları ilə inteqrasiya edir. Eyni zamanda Xəzər dənizinin dibi ilə çəkilməsi planlaşdırılan Trans-Xəzər Fiber-Optik Kabel Xətti və "yaşıl enerji" dəhlizləri TDT üzvləri arasında rəqəmsallaşma və enerji sahələrində daxili şəbəkəni möhkəmləndirir. Prezident İlham Əliyev 2025-ci ildə Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərində fəal iştirak etdiyini, ölkənin Türkiyə ilə Mərkəzi Asiya arasında mühüm bağlantı yaratdığını qeyd edib. Həmin çıxışda Orta dəhliz üzrə yükdaşımaların artdığı və Azərbaycanın nəqliyyat infrastrukturu imkanlarının genişləndiyi də vurğulanıb.



Siyasi və təhlükəsizlik arxitekturasının yenilənməsi ikinci vacib istiqamətdir. Azərbaycan 2020-ci ildə Vətən müharibəsindən sonra bölgədə reallıqları dəyişərək TDT-nin regional təhlükəsizlikdəki çəkisini artırıb. TDT daxilində ikitərəfli əlaqələr genişlənərək bu gün, sözün əsl mənasında, təhlükəsizlik sahəsində inteqrasiya nümunəsinə çevrilib. Təşkilat artıq yalnız iqtisadi deyil, birgə hərbi təlimlər, müdafiə sənayesi üzrə tərəfdaşlıq və təbii fəlakətlərlə birgə mübarizə mexanizmlərini (TDT mülki müdafiə mexanizmi) reallaşdıran strukturdur. Zəngəzur dəhlizinin strateji perspektivi isə bu inteqrasiyanın pik həddidir. Azərbaycanın bu layihədəki qətiyyətli mövqeyi türk dünyasının tarixi bütövlüyünü bərpa etmək məqsədi daşıyır. Bu dəhliz reallaşacağı təqdirdə, türk dövlətləri arasında davamlı quru əlaqəsi təmin olunacağı, logistika xərcləri kəskin azalacağı və TDT-nin daxili ticarət dövriyyəsi sürətli artım nümayiş etdirəcəyi danılmaz reallıqdır.

İdeoloji və korporativ inteqrasiya baxımından da rəsmi Bakı hər zaman üzərinə düşən funksiyanı yerinə yetirib. Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA) və Türk Mədəniyyəti və İrsi Fonduna evsahibliyi edən Azərbaycan TDT-nin institutional bazasının möhkəmlənməsinə birbaşa töhfə verir. Beləliklə, rəsmi Bakı türk dünyasının, sadəcə, tarixi köklərlə deyil, rəqəmsal iqtisadiyyat, vahid əlifba, ortaq təhsil standartları və investisiya fondları vasitəsilə gələcəyə yönəlik güc mərkəzinə çevrilməsini müdafiə edir.

Bu yanaşmanın mühüm göstəricilərindən biri Bakının TDT çərçivəsində müxtəlif sahələr üzrə yüksəksəviyyəli tədbirlərə evsahibliyi etməsidir. Azərbaycan yalnız türk inteqrasiyasının mənəvi həmrəylik ölçüsünü institutlaşdırmır, həm də özünü türk dünyası ilə daha geniş islam məkanı arasında etibarlı körpü kimi təsdiqləyir. Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini, sentyabrın 17-də isə quruma üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul edib. Son günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının müsəlman dini rəhbərləri Şurasının 7-ci iclasının, Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın, TDT-yə üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 5-ci toplantısının keçirilməsi təsadüfi deyil.

### TDT-də Prezident İlham Əliyev siyasi xətti

Azərbaycanın TDT çərçivəsində fəallığında Prezident İlham Əliyevin siyasi xəttinin xüsusi yeri var. Dövlətimizin başçısı çıxışlarında türk dünyasını Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi təqdim edir. Onun yanaşmasında diqqətçəkən məqamlardan biri türk dünyası anlayışının yalnız tarixi və mədəni kateqoriya kimi deyil, müasir siyasi və iqtisadi əməkdaşlıq platforması kimi təqdim edilməsidir. Bu yanaşma TDT-nin fəaliyyət istiqamətlərində də öz əksini tapır. Təşkilatın gündəliyində artıq yalnız dil, mədəniyyət və tarixi irslə bağlı məsələlər deyil, ticarət, investisiya, enerji, nəqliyyat, rəqəmsal texnologiyalar, təhlükəsizlik və digər praktiki sahələr mühüm yer tutur. 2024-cü ildə Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü bu baxımdan Azərbaycanın təşəbbüslərinin bariz nümunələrindən biridir. Görüşün sonunda qəbul edilən Qarabağ Bəyannaməsində türk dövlətləri arasında siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb. Sənəddə Orta dəhlizin inkişafı və türk dövlətləri arasında regional bağlantıların gücləndirilməsi də xüsusi qeyd edilib.

Azərbaycanın TDT-də rolunun digər mühüm istiqaməti təhlükəsizlik məsələləridir. Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə Prezident İlham Əliyev təşkilata üzv ölkələr arasında müdafiə və hərbi-texniki əməkdaşlığın əhəmiyyətini vurğulayaraq üzv dövlətlərin birgə hərbi təlimlərinin Azərbaycanda keçirilməsini təklif etmişdi. Cari ilin sentyabr ayında isə Bakıda TDT-yə üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin beşinci toplantısının keçirilməsi bu əməkdaşlığın siyasi, iqtisadi və mədəni istiqamətlərlə məhdudlaşmadığını göstərən son nümunələrdən biridir. Dövlətimizin başçısı Təhlükəsizlik Şuraları katiblərini qəbul edərək kibertəhdidlər, terrorçuluq, transmilli cinayətkarlıq, hibrid təhdidlər və kritik infrastrukturun mühafizəsi kimi məsələlər üzrə koordinasiyanın əhəmiyyətini vurğulayıb. Yəni bu toplantılarının keçirilməsi təşkilatın institusional mexanizmlərinin yalnız iqtisadi və humanitar sahələrlə məhdudlaşmadığını göstərir. Azərbaycanın 2025-ci ilin oktyabrından TDT-yə sədrliyi də bu baxımdan əhəmiyyətlidir. Belə ki, Azərbaycanın sədrliyi dövründə TDT gündəliyində iqtisadiyyat və nəqliyyat bağlantıları ilə yanaşı, təhlükəsizlik önəmli yer tutur.

Beləliklə, Azərbaycanın TDT-də fəallığını yalnız "türk dövlətləri ilə həmrəylik" anlayışı ilə məhdudlaşdırmaq olmaz. Burada daha geniş proses - ortaq tarixi və mədəni bağların siyasi institutlara, iqtisadi layihələrə, nəqliyyat və enerji dəhlizlərinə, təhlükəsizlik mexanizmlərinə və humanitar əməkdaşlığa çevrilməsi prosesi gedir. Azərbaycanın Qafqazda yerləşməsi isə prosesdə ona xüsusi geostrateji mövqe qazandırır. Bu status Azərbaycana türk dünyasının Qərbə açılan qapısı və Qafqazın geosiyasi təhlükəsizlik arxitekturasının əsas memarı olmaq imkanı verir.

# Dünyanın mənəvi xəzinəsində Azərbaycan imzası

**Azərbaycanın çoxəsrlik tarixi yalnız dövlətçilik ənənələri, zəngin maddi-mədəniyyət nümunələri ilə deyil, həm də bəşəri düşüncənin inkişafına töhfələr vermiş görkəmli şəxsiyyətləri ilə seçilir. Əsrlər boyu bu torpağın övladları olan şairlər, filosoflar və mütəfəkkirlər öz yaradıcılıqları ilə yaşadıqları dövrün sərhədlərini aşaraq dünya mədəniyyətinin zənginləşməsində mühüm rol oynayıblar. Onların əsərlərində insan, həyat, ədalət, mənəviyyat, sevgi, azadlıq və kamillik kimi ümumbəşəri mövzular ön plana çıxıb. Bu səbəbdən Azərbaycan mədəni irsi yalnız bir xalqın milli sərvəti deyil, eyni zamanda bəşəriyyətin ortaq mənəvi xəzinəsinin ayrılmaz hissəsidir.**



Prezident İlham Əliyev sentyabrın 15-də Bakıda keçirilən beynəlxalq konfransların iştirakçılarını qəbul edərkən çıxışında xalqımızın içindən çıxmış böyük şəxsiyyətlərin dünya mədəniyyətindəki yerinə xüsusi diqqət çəkib: "Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün islam aləmi üçün çox böyük dəyərdir".

Dövlət başçısının sadaladığı şəxsiyyətlərin hər birinin adı böyük bir mədəni və mənəvi dünyanın rəmzidir. Onları əsrlər ayırsa da, yaradıcılıqlarını birləşdirən mühüm cəhətlər var: insana verilən yüksək dəyər, elmə və idraka çağırış, mənəvi kamillik axtarışı, ədalət ideyası və bəşəri dəyərlərə sədaqət.

Azərbaycan ədəbiyyatının və Şərq poetik-fəlsəfi fikrinin ən böyük simalarından biri Nizami Gəncəvidir. XII əsrdə Gəncədə yaşayıb-yaradan böyük şairin irsi əsrlərdir müxtəlif xalqlar tərəfindən oxunur və araşdırılır. Onun "Xəmsə"si yalnız Azərbaycan və Şərq ədəbiyyatının deyil, dünya söz sənətinin nadir incilərindəndir. Nizami insanı əsərlərinin mərkəzinə gətirmiş, onun mənəvi yüksəlişini, ədalətə münasibətini, sevgisini, ağlını və vicdanını bədii-fəlsəfi düşüncənin əsas mövzularına çevirmişdir. Şair ideal cəmiyyət haqqında düşünərkən ədalətli idarəçiliyi ön plana çəkir, insanın dəyərinin onun mənşəyi və var-dövləti ilə deyil, ağlı, biliyi və mənəviyyatı ilə ölçüldüyünü göstərirdi.

XII əsr Azərbaycan ədəbi mühitinin digər böyük nümayəndəsi Xaqani Şirvanidir. Şamaxıda doğulan Xaqani klassik Şərq poeziyasında mürəkkəb poetik dili, geniş dünyagörüşü və güclü fəlsəfi düşüncəsi ilə seçilir. Onun yaradıcılığında insan taleyi, zaman, həyatın faniliyi, mənəvi azadlıq, ictimai ədalətsizlik kimi mövzular mühüm yer tutur. Şairin məşhur "Mədain xərabələri" əsəri tarixin, hakimiyyətin və dünyanın keçiciliyi üzərində qurulan dərin poetik düşüncənin nümunəsidir. Xaqaninin poeziyası yalnız gözəl söz sənəti deyil, həm də yaşadığı dövrə, insana və cəmiyyətə münasibətin ifadəsidir. Buna görə onun irsi əsrlər sonra da araşdırılır və klassik ədəbiyyatın zəngin xəzinəsinin mühüm hissəsi olaraq qalır.

XIV əsrin sonu - XV əsrin əvvəllərində yaşayıb-yaratmış İmadəddin Nəsimi də Azərbaycan ədəbiyyatında insanın mənəvi qüdrətini ən yüksək poetik səviyyəyə qaldıran şəxsiyyətlərdəndir. Nəsimi poeziyasında şairin insanı ucaldan fəlsəfəsi onun yaradıcılığının əsrləri aşmasının əsas səbəblərindən biridir. Onun yaradıcılığında insanın özünü və dünyanı dərk etməsi, mənəvi azadlıq, həqiqət axtarışı mühüm yer tutur. Azərbaycan dilinin poetik imkanlarından böyük ustalıqla istifadə edən Nəsimi ana dilində fəlsəfi lirikanın inkişafına mühüm töhfələr verib.

Prezident İlham Əliyevin çıxışında xüsusi qeyd etdiyi görkəmli şəxsiyyətlərdən biri də XV əsrin böyük mütəfəkkiri Seyid Yəhya Bakuvidir. Dövlət başçısı Bakıda eyni vaxtda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısının və Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirilməsinin böyük məna daşıdığını vurğulayıb, Bakuvinin yaşayıb-yaratdığı dövrdə çox böyük iz qoyduğunu bildirib. Fəlsəfi və təsəvvüf düşüncəsinin görkəmli nümayəndələrindən biri olan Seyid Yəhya Bakuvinin fəaliyyəti Bakının orta əsrlərdə yalnız iqtisadi və siyasi deyil, həm də mühüm elm və mənəviyyat mərkəzlərindən biri olduğunu göstərir. Bakuvinin düşüncə sistemində insanın mənəvi saflaşması, özünü dərk etməsi, əxlaqi kamilliyə yüksəlməsi mühüm yer tutur. Bu ideyaların əsrlər sonra da maraq doğurması onun irsinin yalnız yaşadığı dövrə aid olmadığını göstərir.

XVI əsrdə Azərbaycan tarixində həm dövlət xadimi, həm sərkərdə, həm də şair kimi silinməz iz qoyan Şah İsmayıl Xətai meydana çıxır. Şairin Azərbaycan dilində yaratdığı poeziya ana dilimizin ədəbi mövqeyinin möhkəmlənməsində mühüm rol oynayıb. Sadə, aydın və təsirli dili onun şeirlərini geniş xalq kütlələrinə yaxınlaşdırıb. Xətainin poeziyasında vətən, insan, mənəviyyat, sevgi və qəhrəmanlıq motivləri mühüm yer tutur. Onun fəaliyyəti Azərbaycan dövlətçilik tarixinin mühüm mərhələlərindən biri ilə bağlı olduğu kimi, yaradıcılığı da milli ədəbi düşüncənin inkişafında xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Xətai həm siyasi tariximizin, həm də mədəni yaddaşımızın böyük simalarındandır.

XVI əsrin bəşəriyyətə bəxş etdiyi ən böyük söz ustalarından olan Məhəmməd Füzuli yaradıcılığı əsrlərin sınağından keçərək bu gün də öz poetik qüdrətini qoruyur. Onun əsərlərində məhəbbət, sadəcə, iki insan arasındakı hiss kimi təqdim edilmir, insanın mənəvi yüksəlişinə aparan böyük bir qüvvəyə çevrilir. "Leyli və Məcnun" əsəri bunun ən möhtəşəm nümunələrindəndir. Azərbaycan dilinin poetik imkanlarını yüksək zirvəyə qaldıran Füzuli özündən sonrakı ədəbiyyata güclü təsir göstərib.

Nizami, Xaqani, Nəsimi, Yəhya Bakuvi, Xətai və Füzulinin yaşadığı əsrlərə nəzər saldıqda mühüm bir tarixi həqiqət də üzə çıxır. XII-XVI əsrləri əhatə edən böyük zaman kəsiyində Azərbaycan torpağında müxtəlif nəsillərə mənsub qüdrətli söz və fikir adamlarının yetişməsi burada güclü mədəni-intellektual ənənənin mövcudluğundan xəbər verir. Gəncə, Şamaxı, Bakı və digər mədəniyyət mərkəzlərində formalaşmış mühit Şərq və islam sivilizasiyasının inkişafında özünəməxsus rol oynayıb.

Bu dahilərin yaratdığı irs Azərbaycan xalqının milli kimliyinin formalaşmasına da böyük təsir göstərib. Xalqın tarixi yaddaşı yalnız siyasi hadisələrdən ibarət deyil. Millətin yaddaşını onun dili, ədəbiyyatı, musiqisi, fəlsəfəsi və əsrlər boyu yaratdığı mənəvi dəyərlər də yaşadır. Böyük şəxsiyyətlər isə bu yaddaşı bir əsrdən digərinə daşıyan mənəvi körpülərdir. Onların əsərlərində ifadə olunan bir çox ideya bu gün də öz əhəmiyyətini itirməyib. Ədalətə çağırış, insan ləyaqətinə hörmət, elm və biliyin ucaldılması, mənəvi kamillik, sevgi, tolerantlıq və insanın özünü dərk etməsi müasir dünyanın da ehtiyac duyduğu dəyərlərdəndir. Məhz buna görə klassik irsə münasibət yalnız keçmişə ehtiram məsələsi deyil. Bu irsin öyrənilməsi eyni zamanda gələcək nəsillərin mənəvi və intellektual inkişafına xidmət edir.

Bu gün Azərbaycan öz zəngin mədəni irsinin qorunması və dünyada tanıdılması istiqamətində fəaliyyətini davam etdirir. Bakının beynəlxalq mədəni və elmi tədbirlərə evsahibliyi etməsi, klassiklərimizin yubileylərinin, onların yaradıcılığına həsr olunmuş konfrans və tədbirlərin keçirilməsi qədim irsin müasir dövrlə əlaqəsini gücləndirir. 15 sentyabrda Bakıda Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi də bu baxımdan əlamətdardır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqının yetişdirdiyi bu böyük şəxsiyyətlərin qoyduğu tarixi-mədəni miras həm xalqımız, həm də daha geniş mədəni coğrafiya üçün böyük dəyər daşıyır.

Əsrlər dəyişir, nəsillər birbirini əvəz edir, lakin böyük ideyalar yaşayır. Nizaminin ədalət düşüncəsi, Xaqaninin fəlsəfi baxışları, Nəsiminin insanı ucaldan poeziyası, Yəhya Bakuvinin mənəvi kamillik çağırışı, Xətainin ana dilinə verdiyi dəyər, Füzulinin insan ruhunun dərinliklərinə nüfuz edən söz sənəti bu gün də mədəniyyətimizin mənəvi sütunlarıdır. Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi dahilər sübut edirlər ki, bu torpağın ən böyük sərvətlərindən biri onun yaratdığı fikirdir, sözdür, mənəvi irsdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# "Qafqaz Albaniyasının irsinə tarixi baxış" mövzusunda seminar keçirilib

**Sentyabrın 21-də Azərbaycan Respublikası Media və Yayım Şurasının təşkilatçılığı ilə tarix elmləri doktoru Həsən Həsənovun "Qafqaz Albaniyasının irsinə tarixi baxış" mövzusunda seminarı təşkil edilib. Qafqaz Albaniyasının tarixi ilə bağlı maraqlı məqamlara diqqət çəkən tarixçi-alim Azərbaycan tarixşünaslığında Qafqaz Albaniyası və Atropatena ilə bağlı bəzi yanaşmaların yenidən araşdırılmasına ehtiyac olduğunu deyib.**

H.Həsənov vurğulayıb ki, sovet tarixşünaslığından Azərbaycan elminə iki problemli yanaşma miras qalıb. Onlardan biri Atropatenanın, digəri isə Qafqaz Albaniyasının yaranma tarixi ilə bağlıdır: "Sovet tarixşünaslığında Atropatena və Albaniyanın Makedoniyalı İsgəndərin imperiyasının dağılmasından sonra, eramızdan əvvəl IV əsrdə yarandığı qəbul edilib. Bu yanaşma isə həmin dövlətlərin bir-biri ilə tarixi əlaqələrinin olmadığını irəli sürür".

Həsən Həsənov Atropatenanın yaranma tarixi ilə bağlı müxtəlif qədim mənbələrdə məlumatların olduğunu bildirib: "Roma tarixçisi Ammian Marsellin Atropatenanın Assuriya imperiyasının dağılması dövründə yarandığını yazıb. Eramızdan əvvəl III əsrdə yaşamış Roma tarixçisi Polibi də Atropatenanın Makedoniyalı İsgəndərdən xeyli əvvəl mövcud olduğunu qeyd edib. I əsrdə yaşamış Roma tarixçisi Kvint Kurtsi Ruf isə İsgəndərin yürüşü zamanı Atropatena dövlətinin artıq mövcud olduğunu göstərib. Bu mənbələrin məlumatları bir-birini təsdiqləyir. Elmdə buna verifikasiya deyilir. Mənbələrin qarşılıqlı təsdiqi göstərir ki, Atropatena eramızdan əvvəl IV əsrdə deyil, daha əvvəl yaranıb".

Qafqaz Albaniyasının yaranma tarixinə də toxunan alim qeyd edib ki, bu dövlətin eramızdan əvvəl IV əsrdə yarandığını təsdiqləyən qədim mənbə yoxdur: "Albaniya haqqında məlumat verən qədim mənbələrdən biri Roma tarixçisi Dion Kassiyə aiddir. Dion Kassi Roma sərkərdəsi Pompeyin Albaniyaya yürüşü zamanı, eramızdan əvvəl 66-cı ildə, Albaniya çarının başçılığı ilə qoşunun Pompeyi qarşıladığını yazıb. Dion Kassi yazıb ki, Pompey Albaniyaya gələndə onun qarşısına çar başda olmaqla qoşun çıxarıblar. Bu fakt göstərir ki, eramızdan əvvəl 66-cı ildə Albaniya çarlığı artıq mövcud idi".




Alim bildirib ki, bu fakt Albaniyanın həmin tarixdən əvvəlki taleyi ilə bağlı sual doğurur: "Bəs Albaniyanın 66-cı ilə qədər taleyi necə idi? Haradan yaranıb Albaniya? Albaniya eramızdan əvvəl VII əsrdə Atropatena yarandığı zaman onun tərkibində olub. Alban tayfalarının yaşadığı ərazi də həmin dövrdə Atropatenanın tərkibinə daxil idi: "Eramızdan əvvəl VII əsrdən eramızdan əvvəl I əsrə qədər, yəni təxminən 700 il ərzində bu alban torpağı alban əhalisi ilə birlikdə Atropatenanın tərkibində olub. Yalnız I əsrdə Atropatena tərkibindən ayrılaraq müstəqilliyini elan edib. Albaniya göydəndüşmə dövlət deyil. VII əsrdə Atropatena yarananda onun tərkibində idi. Albanlar da həmin ərazidə yaşayırdılar və yeddi əsr orada qalandan sonra müstəqilliklərini elan ediblər. Albaniya Atropatenanın törəməsidir".

Həsən Həsənov "mənbə" və "tədqiqat" anlayışlarının fərqləndirilməsinin vacibliyini də vurğulayıb. Bildirib ki, mənbə hadisənin baş verdiyi dövrə aid olan və həmin hadisə barədə məlumat verən qədim yazılı materialdır, tədqiqat isə müasir araşdırmaçıların elmi əsərləridir. Tarixlə bağlı irəli sürülən fikirlərin hansı mənbəyə əsaslandığının müəyyənləşdirilməsi mühüm əhəmiyyət daşıyır.

Alim əlavə edib ki, "Sisak", "Sünik" və "Aran" kimi toponim və adların mənşəyi ilə bağlı araşdırmalar aparılmalıdır. Həsən Həsənov "Sisak" adının qədim türk dilləri ilə bağlı olduğunu bildirərək "si" sözünün "qalib", "sak" sözünün isə tayfa mənası daşıdığını deyib. Tarixçi-alim həmçinin "Sünik" toponiminə də diqqət çəkərək bu sözün qədim türk dilində "çinar" mənası daşıdığını və ərazidəki təbii çinar meşələri ilə əlaqəli ola biləcəyini qeyd edib.

Həsən Həsənov alban adının qədim türk dilləri ilə bağlı olduğunu və "qəhrəman" mənasında işləndiyini bildirib. Professor qeyd edib ki, hazırda Çin və Qazaxıstanda alban adlı qrupların mövcudluğu bu adın müxtəlif türk xalqları arasında yaşadığını göstərən nümunələrdən biridir.

Alim vurğulayıb ki, qədim albanların etnik mənsubiyyəti ilə bağlı erməni tərəfinin irəli sürdüyü iddialar tarixi faktlara əsaslanmır. O qeyd edib ki, ermənilər albanların erməni olduğunu iddia etsələr də, ermənilərin etnik tərkibində "alban" adlı tayfa mövcud olmayıb: "Albanların kimliyinə gəlincə, bilirik ki, ermənilər onların erməni olduğunu iddia edirlər. Lakin qədim dövrdən bu günədək "alban" adlı tayfaların mövcud olduğu yeganə etnik birlik türk xalqlarıdır".

Həsən Həsənov mövzuya dair jurnalistlərin çoxsaylı suallarını da cavablayıb. Alim hazırda informasiya savaşının getdiyini və mətbuat nümayəndələrinin bu məsələdə aktiv və hazırlıqlı olmasının vacibliyini vurğulayıb.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Diplomatik korpusun nümayəndələrinin Qarabağa səfərinə Ermənistan cəmiyyətinin reaksiyası qəbuledilməzdir

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağa və Şərqi Zəngəzura səfərinə Ermənistan cəmiyyətinin reaksiyası qəbuledilməzdir və təəssüf doğurur.**

Bu barədə AZƏRTAC-a birgə açıqlamalarında Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, Əməkdar həkim Vaqif Şadlinski və Azərbaycan Tibb Universitetinin professoru, Əməkdar müəllim Mübariz Allahverdiyev bildiriblər.

Qeyd olunub ki, Qarabağ Azərbaycanın suveren ərazisidir. Belə reaksiya Ermənistanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıması ilə ziddiyyət təşkil edir. Bu həm də Azərbaycanın daxili işlərinə kobud müdaxilədir. Ermənistan cəmiyyəti hansı haqla xarici diplomatları Azərbaycanın suveren ərazisində hərəkətinə görə ittiham edir? Diplomatik korpusun son səfəri göstərir ki, onların təmsil etdikləri ölkələr birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və dəstəkləyirlər.

Necə ola bilər ki, Ermənistan Gəncəsər və Xudavəng monastırlarını erməni irsi kimi təqdim edir, lakin öz ərazisində Azərbaycanın tarixi-mədəni irsinin mövcudluğunu inkar edir!? Belə narrativ formalaşdırılır ki, Azərbaycan ərazisində tarixən ermənilər yaşayıb, lakin müasir Ermənistan ərazisində guya azərbaycanlılar yaşamayıblar. Bu, özlüyündə rasist yanaşmadır.

Ermənistanın, ümumiyyətlə, Qafqaz Albaniyası irsinə belə reaksiyası irqçilik kimi qiymətləndirilə bilər. Qafqaz Albaniyasının Azərbaycan torpaqlarında mövcudluğu dünya tarix elminə yaxşı məlumdur. Ermənistan cəmiyyətində Qafqaz Albaniyasının və onun mədəni irsinin inkarı faktiki olaraq irqçilikdir. Ermənistan, həqiqətən, dözümsüzdür. Ölkəmizin ərazisindəki bütün tarixi və mədəni abidələr Azərbaycan dövlətinə və xalqına məxsusdur, dövlət tərəfindən bütün məsuliyyəti ilə qorunur.

Ermənistan daxilində revanşist qüvvələr var. Lakin onlar təkcə müxalifətdə deyillər. Təhlillər göstərir ki, yayılan bu məlumatların və kampaniyanın arxasında Ermənistan hakimiyyətinin özü dayanır. Belə ki, bir çox paylaşımlar və yazılar məhz hakim partiyaya yaxın resurslarda yer alıb.



Mövzu ilə bağlı parlamentin sədri Ruben Rubinyanın açıqlaması xüsusilə qəbuledilməzdir. Sentyabrın 14-də Ermənistan parlamentində 2022-ci il sentyabrın 12-13-də sərhəddə döyüşlərdə həlak olmuş hərbçilərin xatirəsinin birdəqiqəlik sükutla yad olunması (halbuki həmin hərbi təxribatları da Ermənistan törətmişdi və cavabını almışdı) özlüyündə revanşizm əhvali-ruhiyyəsinin yüksəldilməsinə xidmət edən addım kimi qiymətləndirilir.

Vurğulanıb ki, bütün baş verənlər rəsmi İrəvanın sülh prosesində bir daha qeyri-səmimiliyini nümayiş etdirir. Faktiki olaraq Ermənistan müharibədə məğlubiyyətə uğradığı üçün sülhə məcbur edilib. 2023-cü ildən sonra Paşinyan hakimiyyətinin, sadəcə olaraq, sülhə getməkdən başqa yolu qalmamışdı. Ermənistan hakimiyyətinin dirijorluğu ilə son açıqlamalar və paylaşımlar kampaniya xarakteri daşıyır və sülh prosesinə rəsmi İrəvanın qəsdən zərbə endirmək niyyətini göstərir.

Diqqətə çatdırılıb ki, Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıdıb. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyil.

Ermənistan tərəfinin Azərbaycan mədəniyyət abidələrini qəsdən məhv etməsi və Azərbaycan xalqının indiki Ermənistan ərazisindəki mədəni izlərini silməsi beynəlxalq hüququn, o cümlədən 1954-cü il Haaqa Konvensiyasının və UNESCO-nun müvafiq qərarlarının kobud şəkildə pozulmasıdır.





# Vətən deyəndə...







## Vətənpərvər oğulların qəhrəmanlığı düşməni diz çökdürdü

**Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan xalqı müstəqilliyini bərpa etdi. Amma həmin illərdə Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyü pozuldu, torpaqlarımızın bir hissəsi düşmən əlinə keçdi. Vətənpərvər oğullarımız silahlanaraq qəsbkarlara qarşı vuruşsalar da, ərazilərimizin işğalı qaçılmaz oldu. Qarabağın və ətraf rayonların erməni qəsbkarları tərəfindən ələ keçirilməsi nəticəsində bir milyona yaxın vətəndaşımız məcburi köçkün həyatı yaşadı.**

Ermənistan 30 ilə yaxın həm Azərbaycanın, həm də beynəlxalq təşkilatların sülh təşəbbüslərinə, qərarlarına məhəl qoymayaraq işğalçılıq siyasətini davam etdirdi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 mühüm qətnaməni icra etmədi. İşğalçı Ermənistan silahlı qüvvələrini Azərbaycanın tarixi ərazilərindən çıxarmadı. Hələ bütün bunlar azmış kimi, ölkəmizin yeni ərazilərini işğal etmək niyyətində olduğunu dilə gətirdi.

Artıq işğalçını yerində oturtmağın, torpaqlarımızı erməni vandallarından azad etməyin vaxtı çatmışdı. Bunun üçün lazımi tədbirlər görülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən siyasət nəticəsində ölkəmizin iqtisadiyyatı güclənmiş, dövlət quruculuğu sahəsində uğurlara hesablanmış islahatlar aparılmışdı. Bütün sahələrdə qazanılan uğurlar və atılan məqsədyönlü addımlar nəticəsində modernləşmiş, torpağını erməni işğalçılarından qorumağa, azad etməyə qadir və hazır olan güclü ordu yaradılmışdı.

Şanlı Azərbaycan Ordusu üçün uğurla başa çatan 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşlərində xalqımız mərd oğullarının gücünü, vətənpərvərliyini görmüşdü. Ordumuzun qazandığı zəfərlərə sevinmişdi. Amma ötən əsrin 90-cı illərinin ab-havası ilə nəfəs alan Ermənistan Azərbaycanın gücünü, qüdrətini, xalqımızın qəhrəmanlığını, vətənpərvərliyini layiqincə qiymətləndirməyərək yeni ərazilərimizi işğal etmək kimi xam xəyallarla yaşayırdı. Bu çirkin və qan qoxulu məqsədinə çatacağını zənn edirdi. Ermənistan səhv yolda olduğunu İkinci Qarabağ müharibəsində məğlub olanda anladı. Onda da gec idi. Çünki artıq zaman haqqın, ədalətin tərəfində olan Azərbaycanın xeyrinə işləyirdi.

27 sentyabr 2020-ci ildə ökəmizin ərazi bütövlüyü uğrunda İkinci Qarabağ müharibəsi başlayan ilk gündən şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında erməni işğalçılarının hücumlarının qarşısını alıb qısa müddətdə onların geri çəkilməsinə nail oldu. Düşmən rəşadətli ordumuzun sıralarında xidmət edən vətənpərvər oğullarımızın qəhrəmanlığı, igidliyi qarşısında dayana bilməyərək ağır itkilər verdi. Noyabrın 8-də Şuşa erməni işğalından azad olundu. 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycanın gözlənilən tarixi Zəfəri ilə başa çatdı. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edən Qarabağ müharibəsi zamanı işğal altında olan 300-ə yaxın yaşayış məntəqəsi azadlığına qovuşdu. Məğlubiyyət acıları yaşayan Ermənistanın hərbi-siyasi rəhbərliyi illər əvvəl işğal etdiyi Ağdam, Kəlbəcər və Laçın rayonlarını hərbi əməliyyatlar aparılmadan azad etmək məcburiyyətində qaldı.

Beynəlxalq təşkilatların uzun illərdən bəri bacarmadıqlarının öhdəsindən rəsmi Bakı qısa müddət ərzində özü gəldi. Düşmən üzərində qazanılan tarixi Zəfər ordumuzun hərbi qüdrətini bir daha dünyaya göstərdi. Sarsılmaz xalq, dövlət və ordu birliyi, həmçinin Vətəni canından da çox sevən hərbi qulluqçularımızın döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlıq qələbəni daha da sürətləndirdi. Əldə olunan Zəfər yalnız ərazi bütövlüyümüzü deyil, həm də illərdən bəri pozulmuş tarixi ədaləti öz yerinə qoydu.

2020-ci il noyabrın 10-da düşmən üzərində şanlı qələbəmizi təsdiq edən üçtərəfli Bəyanat imzalandı. Bəyanatın imzalanması xəbərini xalqımıza çatdıran Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik…Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi".

2020-ci il 10 noyabrda imzalanan üçtərəfli Bəyanatdan sonra Azərbaycan erməni işğalından azad etdiyi ərazilərində quruculuq və bərpa işlərinə başladı. Amma Xankəndidə, Xocalıda, Ağdərədə və başqa ərazilərdə qalmış Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri, həmçinin erməni separatçıları Qarabağda yenidənqurma və bərpa işlərinin aparılmasına ciddi təhlükə yaradır, ölümlə nəticələnən təxribatlar törədirdi. Gizli şəkildə, dağların, dərələrin ətəyindən keçən çöl yollarla müharibə ocağını yenidən alovlandırmaq üçün bölgəyə silah-sursat və hərbi texnika daşıyırdı. Təbiidir ki, bütün bu təxribat xarakterli addımlar Qarabağda sabitliyin bərpa olunmasına ciddi maneələr yaradır, gərginliyi artırırdı.

İkinci Qarabağ müharibəsində biabırcasına məğlub olmuş Ermənistan hələ də "bəlkə də qaytardılar" xəyalları ilə yaşayırdı. 2023-cü il sentyabrın 2-də Ermənistanın baş naziri Nikol Paşinyan qondarma "Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"nin ildönümü ilə əlaqədar təbrik müraciəti ünvanladı. Sentyabrın 9-da Azərbaycanın Qarabağ bölgəsində qondarma "prezident seçkiləri" keçirildi. Bütün bu addımlar Ermənistanın Azərbaycana qarşı böyük hərbi təxribatlara hazırlaşdığından xəbər verirdi. Bunun qarşısı qətiyyətlə alınmalıydı, Qarabağdakı separatçı qüvvələr tərk-silah edilməliydi.

Sentyabrın 19-da ölkəmizin dövlət qurumlarına məxsus iki nəqliyyat vasitəsinin qeyri-qanuni erməni silahlı dəstələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda əvvəlcədən quraşdırılmış minalara düşərək partlaması nəticəsində polis əməkdaşları, mülki vətəndaşlarımız və hərbi qulluqçularımız həlak oldu, yaralandı. Üçtərəfli Bəyanatın imzalandığı vaxtdan 2023-cü ilin sentyabrınadək Ermənistan tərəfindən törədilən bu və ya digər təxribatlar Qarabağda antiterror əməliyyatının keçirilməsini zəruri etdi. Çünki işğalçıların yeni təxribatlar törətməsi gözlənilən idi.

Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması məqsədilə Qarabağda baş verəcək təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin bölmələrinin, həmçinin erməni separatçılarının tərk-silah edilərək ərazilərimizdən uzaqlaşdırılması, onların hərbi infrastrukturlarının sıradan çıxarılması, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhalinin, habelə bərpa və quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin, yurdumuzu qoruyan hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək üçün şanlı Azərbaycan Ordusu 19-20 sentyabr 2023-cü ildə Qarabağda lokal xarakterli antiterror əməliyyatı həyata keçirdi. Vətənpərvər oğullarımız silaha sarılaraq illərdən bəri Qarabağda məskunlaşmış erməni separtaçılarına qarşı qəhrəmancasına döyüşdülər.

23 saat 44 dəqiqə ərzində uğurla həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan uzun illərdən bəri Qarabağda məskunlaşmış və kifayət qədər möhkəmlənmiş erməni separatizminə son qoydu. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin mövqeləri darmadağın olundu. Erməni separatçıları yurdunu, torpağını sevən vətənpərvər oğullarımızın hücumları qarşısında çox duruş gətirə bilmədilər. Ağ bayraq qaldıraraq təslim oldular, silahlarını yerə qoyub, suları süzülə-süzülə Qarabağı tərk etdilər. Uğurla başa çatan bu əməliyyat nəticəsində bölgədəki mülki əhaliyə və obyektlərə ziyan vurulmadı.

Erməni saparatizmi üzərində qəti qələbənin qazanıldığı gün - 2023-cü il sentyabrın 20-si Azərbaycan tarixinə yeni mərhələnin başlanğıcı kimi yazıldı. Uzun illərdən bəri Qarabağda gurlayan silahlar susduruldu. İnsanlara ağrı-acılar yaşadan, qan qoxulu müharibə Azərbaycanın qətiyyətli qələbəsi ilə başa çatdı. 19 sentyabr 2024-cü ildə Prezident İlham Əliyevin imzaladığı Sərəncamla sentyabrın 20-si Dövlət Suverenliyi Günü elan edildi. Sərəncamda xüsusi olaraq vurğulandı ki, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyi təmin edilmiş və dövlət suverenliyi bərpa olunmuşdur. Buna görə də sentyabrın 20-si təqvimimizdə mühüm dövlətçilik günü kimi təsbit edilmişdir.

Xalqımız 44 günlük Vətən müharibəsində, eləcə də ondan sonra Qarabağda və Şərqi Zəngəzurda erməni işğalçılarına qarşı uğurla həyata keçirilən antiterror əməliyyatlarında zabit və əsgərlərimizin göstərdiyi qəhrəmanlığı heç vaxt unutmayacaq. Onların igidliyi şərəfinə dastanlar yazacaq, hərbi vətənpərvərlik mahnıları qoşacaq, abidələr ucaldacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Xalqına Zəfər qüruru bəxş edən igid oğullardan biri

**Vətənin candan əziz olduğunu Siyahim Dəmirov kimi igid oğullar 2020-ci ildə baş verən 44 günlük müharibədə təsdiq etdilər.**



Siyahim Dəmirov 1990-cı il sentyabrın 13-də Beyləqan rayonunun Əlinəzərli kəndində dünyaya gəlib. R. Nəsirov adına Əlinəzərli kənd tam orta məktəbində təhsil alıb. 2008-ci ildə məktəbi bitirib. Müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2009-2010-cu illərdə cəbhə bölgəsində, "N" saylı hərbi hissədə xidmət edib.

Ölkəmizin ərazilərinin iyirmi faizi Ermənistanın işğalı altında idi. Uzun illər idi ki, Qarabağ və Şərqi Zəngəzur yol gözləyirdi. Vətənin Siyahim Dəmirov kimi mərd, qeyrətli, igid oğlanları düşmən əsarətinə son qoyacağı günlərin intizarında idilər. Siyahim belə bir vaxtda hərbçi olmağı seçib. O, 2013-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Azərbaycan Silahlı Qüvvələrinin sıralarında olub. Müxtəlif illərdə artilleriya divizionunda artilleriya taqım komandirinin müavini - top komandiri, hərbi hissənin xüsusi təyinatlı dəstəsinin minaatan manqasının heyət nəfəri, xüsusi təyinatlı taqımın atəş dəstək manqasının minaatan qrupunun komandiri - tuşlayıcı vəzifələrində xidmət göstərib.

Siyahim hərbi peşəyə dərindən yiyələnib, hazırlığını da artırıb. O, Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində MAHHXHQ və QHQ hazırlığı kursunu bitirib. Xüsusi təyinatlıların hazırlıq kursunda iştirak edib, kəşfiyyat bölüyündə təlim alıb.

Seçdiyi peşənin məsuliyyətini yaxşı bilən Siyahim Dəmirov öhdəsinə düşən tapşırıqları həmişə dəqiqliklə yerinə yetirib. Elə buna görə də xidmət etdiyi illərdə müxtəlif fəxri fərman və təşəkkürnamələrə layiq görülüb. "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilib. 2019-cu ildə ona kiçik gizir hərbi rütbəsi verilib.

2016-cı ilin aprelində cəbhənin müxtəlif istiqamətlərində baş verən şiddətli döyüşlərdə Siyahim Dəmirov da iştirak edib. Lələtəpə istiqamətində gedən döyüşlərdə cəsarətinə görə seçilib. Aprel döyüşləri onun hərbçi kimi keçdiyi mühüm mərhələlərindən birinə çevrilib. Siyahim Tovuz döyüşlərində də iştirak edib. Döyüş təcrübəsi artdıqca hərbi hazırlığı daha da yüksəlib, üzərinə düşən vəzifələrin məsuliyyəti artıb. Göstərdiyi şücaətə və peşəkarlığa görə komandanlıq tərəfindən fəxri fərman və təşəkkürnamələrlə təltif olunub.

Hərbi hissədə, döyüşlərdə qazandığı təcrübə Vətən müharibəsində Siyahim Dəmirova gərək olub...

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Azərbaycanın bütün vətənsevər, qeyrətli, təəssübkeş, qəhrəman əsgər və zabitləri kimi Siyahim Dəmirov da böyük Zəfər qazanmaq inamı, əzmi ilə döyüşlərə qatılıb. O, Murovdağ istiqamətində gedən xüsusi əməliyyatda, daha sonra Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd, Şuşa istiqamətlərində döyüşlərdə iştirak edib.

...Vətən müharibəsinin hər günü igid Azərbaycan oğullarının sayəsində qəhrəmanlıq tariximizə yazılırdı. Otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzur torpaqlarında ağır döyüşlər gedirdi. Rəşadətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə bütün cəbhəboyu zərbələr endirir, addım-addım irəliləyirdi. İllər boyu işğal altında qalan kəndlər, qəsəbələr, şəhərlər düşmən əsarətindən qurtulurdu.

Azərbaycan Ordusunun əsgər və zabitləri qarşıya qoyulan tapşırıqları yerinə yetirərək qəhrəmancasına vuruşur, hər biri vətən torpağını yağılardan xilas etmək naminə sinəsini düşmən güllələrinə sipər edirdi. Siyahim Dəmirov da həmin döyüşçülər sırasında idi. Qarşıda Şuşa vardı...

Siyahim 2020-ci il oktyabrın 29-da Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Onun döyüş yolu yarımçıq qalmayıb. Döyüş yoldaşları Siyahimin arzusunu həyata keçiriblər. Siyahim Dəmirovun şəhid olmasından on gün sonra - noyabrın 8-də Şuşanı azad ediblər.

Siyahim Dəmirov Beyləqan rayonunun Əlinəzərli kəndində dəfn olunub. Onun Vətən qarşısındakı xidmətləri və döyüşlərdə göstərdiyi şücaət dövlət tərəfindən yüksək qiymətləndirilib. Ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Siyahim cəmi otuz il yaşayıb. Bu qısa ömrün böyük hissəsi Azərbaycan Ordusunda xidmətə, Vətənin müdafiəsinə həsr olunub. Əlinəzərli kəndindən başlayan həyat yolu onu cəbhə bölgəsinə, ağır Aprel döyüşlərinə, Tovuz istiqamətinə və Vətən müharibəsinin şiddətli döyüşlərinə aparıb. Vətən müharibəsində Füzuli, Hadrut, Xocavənd və Şuşanın Ermənistan işğalından qurtulması naminə şücaət göstərib.

Vətən yolunda canından keçmiş bütün şəhidlərimiz kimi, Siyahim Dəmirovun da əziz xatirəsi ehtiramla anılır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Masallıda şəhid anaları ilə görüş keçirilib

**Görüşdə Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib, onların ailələrinə göstərilən dövlət qayğısının əhəmiyyəti vurğulanıb.**

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəhid ailələrinə və müharibə iştirakçılarına göstərdiyi yüksək diqqət və qayğı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinin sosial-məişət məsələlərinin həlli, onların problemlərinin diqqətdə saxlanılması və dövlət qayğısı ilə əhatə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Araz Əhmədov Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq şəhid ailələri ilə mütəmadi görüşlərin keçirildiyini, onların müraciət və qayğılarının həssaslıqla qarşılandığını qeyd edib. Bu diqqət və qayğının növbəti nümunəsi kimi Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərovun Masallıdan olan şəhid anaları ilə keçirdiyi görüşün xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.



Bildirilib ki, Anar Ələkbərovun şəhid anaları ilə görüşü dövlətin şəhid ailələrinə olan yüksək ehtiramının və onların daim diqqət mərkəzində saxlanıldığının bariz ifadəsidir. Görüş zamanı şəhid analarının qayğı və düşüncələrinin dinlənilməsi, onlarla səmimi söhbət aparılması dövlət rəhbərliyinin şəhid ailələrinə göstərdiyi diqqətin mühüm göstəricilərindən biri kimi qiymətləndirilib.

Rayon icra hakimiyyətinin başçısı şəhid anaları ilə söhbət zamanı onların gündəlik qayğıları, sosial-məişət məsələləri və qarşılaşdıqları çətinliklərlə maraqlanıb, səsləndirilən müraciətlərin diqqətdə saxlanılacağını bildirib.

Şəhid anaları göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər. Onlar ölkə rəhbərliyi tərəfindən şəhid ailələrinə göstərilən yüksək ehtiramı, eləcə də Masallı Rayon İcra Hakimiyyəti tərəfindən onların daim diqqətdə saxlanılmasını yüksək qiymətləndiriblər. Şəhid anaları bildiriblər ki, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinə həssaslıqla yanaşılır, problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görülür. Onlar şəhid ailələrinə göstərilən dövlət qayğısının hər zaman özlərini mənəvi cəhətdən dəstəklədiyini qeyd edərək bu diqqətə görə təşəkkürlərini çatdırıblar.

Görüşdə şəhidlərin keçdiyi şərəfli döyüş yolunun, onların Vətən qarşısında göstərdikləri qəhrəmanlığın gələcək nəsillərə çatdırılmasının vacibliyi də vurğulanıb. Qeyd olunub ki, şəhidlərin əziz xatirəsi Azərbaycan xalqının yaddaşında daim yaşayacaq, onların ailələrinə və yaxınlarına göstərilən diqqət və qayğı bundan sonra da davam etdiriləcək.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Tarix yazan qəhrəman

**Vətən, torpaq uğrunda ölümün gözünə dik baxaraq özünü odun-alovun içinə atıb şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də leytenant Əli Rüstəm oğlu Babazadədir.**




Astara elinin igid oğlu 2023-cü ilin sentyabr ayında Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası istiqamətində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı yağıya qan qusdurmaqla adını tarixə yazıb. İndi Astara camaatı kiçikli, böyüklü Əlini özlərinə qürur yeri, iftixar mənbəyi bilirlər. Ölümsüzlüyə qovuşan qəhrəmanın anım mərasimində bir də bu fikirlər dilə gətirildi.

Yeni Azərbaycan Partiyası (YAP) Astara rayon təşkilatının sədri Həbib Cəfərovun, aparat əməkdaşlarının, Astara Rayon İcra Hakimiyyəti aparatının sektor müdiri Nihad Allahverdiyevin, Astara rayon Təhsil Sektorunun müdiri Xədicə Əliyevanın, rayon mərkəzi xəstəxanasının direktoru Bahadır Əhmədovun, qazi və şəhid ailələrinin, döyüş yoldaşlarının, eləcə də ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirdə əvvəlcə göstərdiyi hünərlə Vətənin qürur yeri olan Əli Babazadənin məzarı ziyarət edilib, onun əziz xatirəsi ehtiramla anılıb.

Sonra yığıncaqda çıxış edənlər Əli Babazadənin Vətən qarşısındakı xidmətlərindən, şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın həyat yolunun gənc nəslə nümunə olmasından bəhs ediblər.

Qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda canından keçən Vətən şəhidlərinin əziz xatirəsi daim ürəklərdə yaşayacaq, qəhrəmanlıqları gələcək nəsillər üçün Vətənə sədaqət və fədakarlıq örnəyinə dönəcək.

***Zəfər ORUCOĞLU***

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 9 iyul (Çərşənbə günü) tarixli 220-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

məcmuə başdan-başa ermənilyi təqdir və tərvic etməklə [təbliğ etməklə, ona rəvac verməklə] məşğul idi. Məcmuənin fikri ermənini ən mədəni bir millət şəklində Avropaya tanıtmaq idi. Odessada dəxi eyni fikirdə bir qəzetə çıxırdı. Bu gün İstanbulda fransızca qəzetələri var, tələblərini Avropanın qulağına söyləməkdən çəkinmirlər.

Bir çox məhkum millətlərlə yaxından tanış oldum, çalışmalarını gördüm. Onlarda da eyni hal – əfkari-ümumiyyəni cəlb etməyə böyük əhəmiyyət verirlər. Öz tarixlərini, ədəbiyyatlarını və başqa mədəni məhsullarını Avropanın gözünə soxmağa çalışırlar. Bu gün Paris Konfransının nəzərini cəlb etmək üçün hədsiz-hesabsız kitablar çap olunur, qəzetələr nəşr olunur, hər kəs dərdini, tələbini uca səslə bildirir. Eşitdiyimə görə, ermənilər bu il milli məsələlərinə dair doqquz yüz əsər təb [çap] etdirmişlər.

Mətbuatdan başqa, bir də bir nümayiş var. Müttəfiqlər İstanbula girdikdə rumlar ev və mağazalarını milli bayraqlarıyla bəzəmişlər imiş və çalışmışlar imiş ki, İstanbulun zahir görünüşünə yunan rəngi versinlər. İştə nümayiş. Burada oxumaq lazım deyil. Hər kəs gözüylə görür və bilir.

Məlumdur ki, yunanlar İstanbulu almaq iddiasında bulunurlar. Buna haqları olmağını bildirmək üçün hər bir vasitəyə müraciət edirlər. Birinci yol əfkari-ümumiyyədir ki, buna xoş gəlmək istəyirlər. Türklərin rəvayətinə görə, yunanlar Bəyoğlunda və Qalatada küçələri çox zibilli saxlayırlar, hər nə əllərinə gəlir küçəyə tullayırlar. Səbəbi bu imiş ki, avropalılar türkün “idarəsizliyini” görsünlər. Baxınız, nümayiş nə şəkillər alır.

İstanbulda bir ayrı nümayişə dair söylədilər. Bir neçə yüz erməni uşağı cırıq-cındır libasda şəhəri dolanmışlar. Məqsəd erməni qaçqınlarının halını bəyan etmək imiş...

Xülasə, minlərcə zikr olunan şəkillərə rast gəlmək olar.

Bizim müsəlman aləmində əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün az çalışılır. Onun üçün də dərdlərimiz kimsəyə bəlli olmur və bizlə maraqlanan az olur. Son səyahətim zamanında bir çox Avropa siyasiyyunuyla [siyasətçisiylə] görüşdükdə, təəssüf ki əcib [qəribə] hallar gördüm. Bizim Azərbaycanın nərədə olduğunu çoxları bilmirmişlər. Siyasi adamlar məmləkətimizdən xəbərsiz olduqda, yaqin adi adamların heç də xəbəri yoxdur. Böylə olduqda, biz ermənilərdən də çox çalışmalıyıq ki, özümüzü tanıdaq. Bu yolda birinci addımları səfirlər ilə konsoloslarımız atmalıdırlar. Gürcü konsolxa-nalarında bir mətbuat şöbəsi var. Bunun vasitəsilə məhəlli [yerli] qəzetələrə Gürcistana dair məlumat verilir. Biz də eynini düzəltməliyik. Tariximizi, məmləkətdə sayımızı və iqtisadi qüvvəmizi aləmə bildirməlidir.

*Yusif Vəzirov*

## GETMƏ

*Qardaşım H. C. bəyə*

Getmə, bir an təvəqqüf et, getmə!
Bizi sahildə yə’sə qərq etmə.
Ey qayıq, bax tərəhhüm et də bizə,
Gəl aparma o afəti dənizə.

Dur, dayan, saxla bir kürəklərini,
Dalğalarda nihan olub itmə.
Bunca aşiqlərin yürəklərini
İntizarü ələmlə incitmə.

Səni təqib edən nəzərlərə baq,
Həpsi məğmum, münfəil, islaq.
O nəzərlərdə yalvarış doludur,
Getmə, lütf et, dəniz də qorxuludur.
Bir saqın... Yox, saqınmadan gedəcək,
O pəri qız, dənizdə açma çiçək.

Dalğalar, siz toxunmayın qayığa,
Su pərisi dənizdə bir gəzsin.
Qarşı çıxdıqca hər kiçik dalğa
Onu qəhr ilə çiynəsin, əzsin...

Gediyor, bax, qayıq uzaqlaşıyor,
Uçuyor, dalğacıqları aşıyor.
Əyilir, doğrulur, şitab ediyor,
Çırpınır, sanki iztırab ediyor.
Süzülür, iştə qalxdı, bax, endi,
Bir evin arxasında gizləndi.
Mane olma, çəkil sən, ey xanə,
Səni tikmiş ya hanki divanə?

Kəsiləydi əlin, sən ey memar,
Böylə bir xanə tikdiyin yerdə...
O nəzərlər nə bəkliyor, nə umar?
O qayıq bir görünsə, ah, bir də...

*Ayn. Y.*

## İKİ LÖVHEYİ-BAYRAM

Əvət, iştə mübəccəl [ulu], müqəddəs bir gün ki, hər yerdə, hər məmləkətdə islam nami-cəlilini [böyük, cəlallı adını] daşıyan hər fərd otuz günlük dini, ruhani bir riyazətdən [zahidlikdən] sonra xaliqin əmrini ifa etdiyi üçün qəlbi mənəvi bir çox hissiyat ilə məmlu [dolu] olduğu halda, iftar edəcək, bir ay zərfində etmiş olduğu ibadətlərin qəbulu üçün xaliqinə yalvaracaq, yetimlərə, öksüzlərə ənam və ehsanda bulunacaq.

Bir yanda zövqü şadi,
Bir yanda hüznü matəm.

Əvət, bir yanda bu hallara davam etməkdə ikən, digər tərəfdə ən xunxar [qaniçən] adamları, ən səngin [daşlaşmış] qəlbləri belə mütəəssir edəcək cigərsuz [ciyər dağlayan] hallar vüqu bulur. Engizisyon [inkvizisiya] dövrünə məxsus faciələr icrayi-hökm edir [hökm sürür]. Bir tərəfdə adəta bir cənnət kimi bəzədilən möhtəşəm qonaqların [imarətlərin] müzəyyən [bəzəkli] salonlarında üzərləri ənvayi-məkulat [müxtəlif yeməklər] ilə mali [dolu] masaların ətrafında geymiş olduqları əlbiseyi-faxirələriylə [qiymətli, parlaq geyimləri ilə] pürnəşə [şad] söyləşib gülüşən insanlara baxmaqdan nəzər doyammayırkən, o biri tərəfdə döşəməsi topraq külbələrində [daxmalarında], tavan və divarları yaxmaqda olduqları hisli ağaclardan qapqara olmuş səfalətxanələrdə kirli əlləri, uzamış dırnaqları, üryan vücudları, pərişan bir halət[də], biri-birinə qarışmış saç-saqqalları, soluq bənizləri ilə qayət iyrənc və müdhiş bir mənzərə təşkil edən insan kümələrinə baxmağa belə insan cəsarət edəmməyir. Bir tərəfdə bu günün şərəfinə olaraq açılan masaların üzərləri ayini-təbriki ifaya gələn zəvatı e’zaz [təbrikə gələnləri əzizləmək] üçün dürlü-dürlü dadlılar [şirniyyatlar], növbənöv meyvələrlə mali [dolu] bulunarkən, digər tərəfdə otuz mini mütəcaviz [keçmiş] bir kütleyi-bəşəriyyə dörd aydan bəri şayani-heyrət [heyrətəlayiq] bir təhəmmüllə [dözümlə] mübarizədə bulunduğu aclıqla artıq müqavimətdən aciz qalaraq ərzi-təslimiyyət edir, paxlavalar, qürabiyyələr [un məmulatı, qoğal] deyil, həyatlarını təmin üçün bir quru əkmək parçası bulmaqdan belə məhrum bulunur.

Fəqət, əfəndilər, bu gün bu səfalət halları, bu vəhşi qiyafətləriylə cəlbi-mərhəmətinizdən artıq istikrahınızı mövcib olan [mərhəmətinizi cəlb etməkdən çox, sizdə ikrah doğuran] bu adamlar təsvir edildiyi kimi səfil, zəlil deyildilər. Onların da evləri, onların da gülüb oynayan yavrucaqları var idi. Onlar da sizin kimi bayram yapır, kəndi aləmlərincə məsud, şən, müreffəh [rifah içində] bir həyat keçirirdilər. Bu gün aclıq, yoxsulluq kimi təhəmmülsuz [dözülməz] müsibətlər içində qovrulan bu qəyur [qeyrətli], bu əzmkar adamlar, daha on ay müqəddəm [qabaq] bugünkü müdhiş hallarını əsla xatirlərinə gətirməyir, Bakının yövmi-işğalına müsadif olması [Bakının əldə edildiyi günə təsadüf etməsi] münasibətilə qədrü qiyməti bir qat daha artmış olan Eydi-əzhanı [Qurban bayramını] şimdiyə qədər görünməmiş bir surətdə bayram edirdilər.

Daha dörd ay müqəddəm süfrəsində bir qaç müsafir bulundurmaqsızın yemək yeməmək mötadı [adəti] ikən, bu gün bir heykəli-qeyri-ziruh [ruhsuz bir heykəl] kimi müməyyəziyə’s olan [yasa batmış] yerlərdə dolaşaraq, hər gəlib keçəndən bir parça əkmək dilənmək kimi zilləti qəbula məcbur olan bu həqiqi müsəlmanlar nəzərlərini sizə dikərək, xərclik olaraq çocuqlarınıza, ikram olmaq üzrə təbrikə gələn dostlarınıza sərf edəcəyiniz paraların bir qismini kəndilərinə təfriqlə [ayırmaqla] həyatlarının təminini tələb və dörd aydan bəri davam edən fəryadın susdurulmasını istirham [xahiş] edir. Şimdiyə qədər göstərmiş olduqları həmiyyət və mərhəmətlə “əbüleytam” ünvanına bəhaq kəsbi-istehqaq edən [“yetimlər atası” ünvanını daşımağa haqqı çatan] Azərbaycan əhalisinin və bu ana qədər ibraz etmiş olduğu müamileyi-mərhəmətkara-nəsiylə təməyyüz edən [göstərdiyi mərhəmətli rəftarı ilə seçilən] Azərbaycan Hökumətinin bu xüsusda dəxi lazım gələn müavinəti diriğ etməyəcəklərini [əsirgəməyəcəklərini] surəti-qətiyyədə ümid edirlər.

*Azğur, 28 həziran 335*
*Xocazadə Münirə Ləman*

**İdarədən:** Bunlara xüsusi surətdə ianə vermək arzusunda bulunan olarsa, idarəmiz təşəkkürlə qəbul edər.

## NAXÇIVAN MƏKTUBATI

**Ermənilər Naxçıvana nasıl sahib oldular?**

Ermənilər Naxçıvana əl tapmadan ay yarım əvvəl ingilis general-qubernatoru hökumətə izhar etdi ki, siz əhali olduğunuzdan kəndinizi eyi idarə edəmməyirsiniz.

Bu sözdən bir həftə sonra əhaliyə hökumət təvəssütüylə [vasitəsiylə] elan etdi ki, hər kəs ingilislərə və onların müttəfiqlərinə qarşı bir söz söylər isə Müttəfiqlərin düşməni hesab edilərək, ağır cəza ilə cəzalanacaqdır.

Bundan daha bir-iki həftə sonra polislərə əmr etdi ki, nə qədər Naxçıvan və həvalisində [ətrafında] Osmanlı təbəəsi var isə bilümum [hamısı] bir gün zərfində ingilis general-qubernatoru nəzdinə gəlib də buralarda nə yapmalarını və hanki rütbədə olduqlarını izhar etməsələr, dər-dəst edilib [tutulub] böyük tənbeh ediləcəkdir [cəzalanacaq].

Daha sonra Azərbaycan tərəfindən könüllü olaraq polkovnik Kukuşef təhtində [rəhbərliyində] Naxçıvana gəlmiş zabitlərə rəsmən bir həftə müddətində yığışıb getmələri əmr edildi və bir həftə sonra onlara vaqon verərək yola saldılar.

Balada mühərrər hərəkati-siyasiyyədən [yuxarıda yazılan siyasi hərəkətlərdən] təqribən on beş gün keçmişdi ki, qəflətən əhali beynində [arasında] böyük bir cünbüş [hərəkət] və həyəcan göründü. Hər kəsin əlində bir kağız yarpağı görülməyə başladı. Bütün əhalinin üzünə baxdıqda böyük yas və ələmlərə qərq olduqları görünürdü.

Mən də birisinə yanaşıb sorduqda, “Bizim ərazini ermənilərə vermişlər” cavabını aldım. Mütəəssir olaraq elanı alıb oxudum. Elanın məzmuni-müxtəsəri [qısa məzmunu] böylə idi:

*“Naxçıvan və həvalisi əhalisinə!*

*İşbu mayısın üçündən etibarən siz Ermənistanın bir ayrılmaz parçası hesab olunursunuz. Keçənlər keçdi. Erməni-müsəlman müsavi [bərabər] yaşamalıdır. Bila-fərqi-dinü-məzhəb [din və məzhəb fərqi olmadan] hər kəs müqəssir olduqda ağır cəzaya giriftar olacaqdır. Qafqaz pullarının götürülməsi ümumi və icbaridir, ilax...*

*İmza: general Devi və*
*erməni komandanı Dro.”*

Əhali işbu elanı oxuduqdan sonra üç-dörd saat məst kimi nə yapacağını bilməyib, kəndisini şaşırıb və növbənöv sözlərlə kəndisinə təsəlli verməyə başladı.

Məsələn, bir çoxları söyləyirdi ki, Gümrü nəzdində Naxçıvan ismində köy vardır. Bu elan ora əhalisinə xitabən yazılmışdır.

Sonra camaat ictima [yığışaraq] və izdihamla Milli Şura qonağına [imarətinə] yığılıb, Milli Şura sədrindən tələb etdilər ki qışlaya [kazarmaya] – ingilis general-qubernatorunun nəzdinə gedib bu xüsusda cavabi-kafi alsın. Sədr qışlaya gedib övdət etdikdə [qayıtdıqda], söylədi ki, general-qubernator söyləyir ki, bu xüsusda onun heç bir məlumatı yoxdur. Yarın general Devi kəndisi gələr və hər nə olmuş olsa, təfsilən [ətraflı surətdə] o, camaata yetirər.

Bu minval ilə camaat iki gün bittamam şübhə içində qalıb, general Devinin intizarını çəkməyə başladılar.

*Tamaşaçı*

## MƏTBUAT

Hələ Kotsev hökuməti dövründən Dağıstanlılar arasında Dağıstanın Azərbaycanla birləşməsi lehinə güclü bir cərəyan var idi. Məzkur [deyilən] cərəyan getdikcə qüvvətlənməkdə və nəhayət, mətbuat səhifələrini tutmaqdadır. Əzcümlə [o cümlədən] “Dağıstan” qəzetəsi sütunlarında bu xüsusda mütaliələr [fikirlər] görülməkdədir.

Məzkur qəzetənin 17-ci nömrəsində yazılmış bir məqalə Dağıstanın heç vaxt Zaqafqaziyadan ayrı olmadığı və Rusiya əliylə cəbrən parçalandıqdan sonra inqilab bə’dində [sonrasında] Şimali Qafqazi-yadan bir heyət gələrək Dağıstanın onlarla birləşməsini təklif etdiklərini qeydlə deyir ki:

*“Təbii, bu sənə Dağıstan Cümhuriyyəti Məclisi-Məbusanında Dağıstanı Azərbaycanla birləşdirmək məqsədilə çalışanlardan o Məclisdə olanlar, heyəti-müraxxəsanin müstədasına [nümayəndə heyətinin xahişinə] tamamən müxalif olaraq söylədilər:*

*– Dağıstan Zaqafqaziyadan ayrılmaq, siyasətən və iqtisadən müzirr [ziyanlı] olmaqdan maəda [əlavə], əhalisinin məqsədlərinə dəxi müxalifdir. Əgər istərsəniz gəliniz cənuba birləşəlim.*

*Hasili, ayrılmaq məsələsi tamam olmayıb qaldı.*

*Bir xeyli müddətdən sonra məlum oldu ki, guya Dağıstan Şimali Qafqaziyaya daxil olmuşdur. Müvəqqəti Dağıstan Vilayət Komitəsinin rəisi və bir-iki əza [üzv] müstəsna olaraq, qalan əzalar bu ayrılmaq nasıl oldu və nə səbəbdən oldu, qətiyyən bilmədilər.*

*Ümumi Dağıstan Vilayət Məclisi (Syezd) və Dağıstanın həqiqi intixabıyla [seçkisiylə] olan Vilayət Komitəsi bu işin həqiqətini bilmək üçün nə qədər ciddü-cəhd etdilərsə də, bunun əsl və əsası, bəratülqövl [protokol] və qərarnamə heç bir yerdə bulunmadı.”*

## BAKI XƏBƏRLƏRİ

**Seyri-səfain [gəmi hərəkəti]**

İran Astarası ilə Bakı arasında paraxod hərəkatı başlanmışdır. Bu günlərdə Lənkəran və Azərbaycan Astarası ilə də başlanacağı gözlənir.

**Posta-Teleqraf İdarəsində markalar**

Bu günlərdə Posta-Teleqraf İdarəsi tərəfindən yeni markalar buraxılacaqdır.

**Simsiz teleqraf**

Hökumət simsiz teleqraf istasyonu təşkilinə şüru edilmişdir [başlanmışdır]. İstasyon dörd aya hazır olacaqdır.

**Posta-teleqraf ləvazimatı**

Son günlərdə Gürcüstan Cümhuriyyəti Azərbaycan Cümhuriyyəti üçün bir çox teleqraf, telefon ləvazimatı göndərmişdir.

**Müsəlman Cəmiyyəti-Xeyriyyəsində**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə qubernator tərəfindən bir məktub göndərilərək təklif edilmişdir ki, Cəmiyyəti-Xeyriyyənin İsmailiyyə binasını sökdürsün, zira binanın uçacağından ehtiyat edirlər. Cəmiyyəti-Xeyriyyə bir neçə mühəndislər vasitəsilə müayinə edib qərar qoymuşdur ki, hələliklə ətrafına hasar çəkilsin və sonra mümkün olarsa sökülməsinə başlansın.

**Su oğurluğu**

Bakı Bələdiyyə İdarəsinin Sihhiyyə [Gigiyena] şöbəsi bütün ixtiyarındakı idarələrə böylə bir xəbər vermişdir: Aldığımız məlumata görə, su turbalarından qaydadan kənar qıraq adamlara su buraxılır. Sihhiyyə şöbəsi qabaqca xəbər verir ki, əgər bu isbat olunsa, bütün məsuliyyət Bələdiyyədən izinsiz su almış və bununla şəhərin mənafeyinə xələl vurmuş idarələrin boynuna düşəcəkdir.

**Aşqabadın alınması**

Bakıda alınan məlumata görə, bolşeviklər Aşqabadı alıb, Tazəşəhər üzərinə yeriş edirlər. Bu münasibətlə Bakıya Türküstandan külli miqdarda qaçqın gözlənir.

**Hacı-Tərxan alınmışmı?**

Hacı-Tərxanın alınması haqqında bu vaxta kimi heç bir rəsmi xəbər yoxdur.

**Taxıl**

Ərzaq Nəzarətinin nümayəndəsi M. S. Axundov xəbər verir ki, Şuşa, Cavanşir və Cəbrayıl uyezdlərində bu il taxıl vardır. Əkinlər hadisə zamanlarında əsla zərər görməmişlər.

**Mədən mühafizəsi**

Türklər Bakıya girəndən sonra Bakı mədən dairəsinin mühafizə dəstələri tərk-silah edilmişlərdi. İndi Neft Aksiz İdarəsi Maliyyə Nəzarətindən rica edir ki, neft və mədən dairəsini mühafizə üçün yenə sabiqki dəstəni təslihə [silahlandırmağa] izin verilsin.

**Yeni Şirvan**

Mart hadisəsi vaxtı tamamilə dağılmış Şamaxı şəhərinin əvəzinə yeni şəhər tikmək üçün münasib yer təyin etmək qəsdiylə yollanmış hökumət komisyonu qayıtmışdır.

Komisyon deyir ki, 2500 müsəlman camaatı bu saat xarabalarda yaşayırlar. 16 məscid məhv edilmişdir.

Komisyon bu qərara gəlmişdir ki, sabiq erməni hissəsi olmasın və şəhəri təzədən Avropa hissəsindən başlayaraq tiksinlər. Komisyonun məruzəsinə bu günlərdə hökumət tərəfindən baxılacaqdır.

**Qradonaçalstvoda**

Hal-hazırda şəhərdən kənara gedənlərə vəsiqə vermək Bakı Polismeyster İdarəsinə aiddir.

Polismeyster İdarəsində də ştat azaldığından və başqa əhəmiyyətli işlərlə məşğul olduqlarına görə, vəsiqə vermək çətinliklə olur. Ona görə Bakı qradonaçalniki Daxiliyyə nazirindən rica etmişdir ki, bu vəzifə Qradonaçalstvo cənbində [nəzdində] xüsusi bir şöbəyə həvalə olunsun.

**Dağıstanda**

Dağıstandan alınmış məlumati-mövsuqəyə [etibarlı məlumata] görə, orada Dabravol komandanlığı geniş fəaliyyətə başlamışdır. Bu günlərdə bütün müsəlman tələbələrini səfərbərliyə alaraq, məcburən hərbiyyə məktəbinə göndərmişdir. Xalq arasındakı həyəcan gündən-günə təzayüd etməkdədir [artmaqdadır].

**Mavərayi-Bəhri-Xəzərdə**

Aşqabadın bolşeviklər tərəfindən işğalı təsdiq edilir. Oradakı bütün rəsmi dəvair [idarələr] və müəssisələr, o cümlədən, Azərbaycan siyasi nümayəndəliyi də öz dəftərxanası ilə Tazəşəhərə köçmüşdürlər.

**Fəhlə həyatı**

6 təmmuz tarixində saat 12 zəvalda [günorta] Lianozov 4-ncü uçastok mədənində prikazçik [darğa] Nurulla Bədəl oğlu ilə maslyonşik [yağlayıcı fəhlə] Nurulla Təhməz oğlu miyanında nəşət etmiş [arasında əmələ gəlmiş] küdurəti dəf və islah üçün məzkur [adı çəkilən] müəssisədə çalışmaqda olan bütün müsəlman və erməni işçiləri mitinq tərtib vermişlərdi. Yek-digəri ilə müsafəhə və müanəqə edərək [bir-biri ilə barışıb-qucaqlaşaraq], bir daha yekdigərinə nisbətən ədavət bəsləməyəcəklərinə yəmin etdilər.

Xatimədə Ərzaq İdarəsinə müraciətən münasib qiymət üzrə ərzaq almaq üçün mədən əmələsinin siyahısını tərtib etmək qərara alındı.

**Tağıyev fabrikasında**

Neçə gün bundan əqdəm [qabaq] Tağıyev fabrikasında əmələlər tərəfindən bir nəfərin el divanı ilə öldürülmək istənildiyi və bundan naşi [ötrü] böyük bir həyəcan vücuda gəldiyini mütəaqib [ardınca], oradakı hümmətçilər ilə müsavatçılar arasında rəqabət əmələ gəlmişdir. Əmələlərin dediyinə görə, həmin rəqabətə səbəb olan Əliheydər Qarayevdir. Həmin şəxs fabrikaya gəlməzsə, heç bir ixtilafa yol verilməz. Bu məsələ dünən “Müsavat” firqəsinin Bakı Komitəsi iclasında müzakirə edilərək, məhəllində [yerində] təhqiqat yapmaq üçün üç nəfərdən ibarət xüsusi bir heyət seçilmişdir. Heyət fabrikada məlumat cəm etdikdən sonra, Komitə iclasına bəyanat təqdim edəcəkdir. Bu barədə Komitə “Hümmət” firqəsinə müraciətən onun da iştirakını rica etmişdir.

Əmələlər Qarayevdən nəhayət dərəcədə narazı olduqlarını bildirmişlərdir.

**Azərbaycan konsulunun vürudu**

Aşqabad şəhərinin bolşeviklər tərəfindən işğal edilməsi münasibətilə oradakı Azərbaycan konsulu Əkbər Sadıqov dünən Tazəşəhərdən Bakıya varid olmuşdur [gəlmişdir]. Mavərayi-Bəhri-Xəzərdən [Zakaspiyskdən] Bakıya gəlməkdə olan qaçqınların miqdarı gündən-günə artmaqdadır.

Qaçqınların dediyinə görə, bolşeviklər böyük qüvvələr ilə Qəhqəhəni və Aşqabadı işğal edərək, Tazəşəhərə tərəf irəli hərəkət etməkdədirlər.

**“Yardım alayı”**

“Yardım alayı” əfradının ümumi iclasında yenidən alay komisyonu intixab edilmişdir [seçilmişdir]. Komisyonun rəisliyinə visqubernator Müseyib bəy Axıcanov, xəzinədarlığa və katibliyə İsmayıl Fani intixab edilmişlərdir.

**Edam cəzası**

Dövləti Müdafiə Komitəsinin binagüzarlığıyla [sərəncamıyla] neçə gün bundan əqdəm [qabaq] Zabrat ilə Kürdəxanı kəndləri arasında okolodoçnı [sahə pristavı müavini] [Seyfulla] Haşımovu və milis nəfərini öldürməkdə müqəssir edilən Məşqətə [Maştağa] kəndi əhilləri Miryusif Mirməhəmməd oğlu, Mirhüseyn Seyid Salman oğlu dünən Quba meydanında edam edilərək dar ağacına çəkilmişlərdir.

**Xəyanət**

Hərbiyyə nazirinin binagüzarlığına [sərəncamına] görə, süvari alayda xidmət edən zabitlərdən Ağasəlim Şərifov, Miri Hüseynov və iki nəfər qeyriləri xidmətlərindən sui-istifadə etdiklərindən həbs edilmişlərdir. Onlar hökumətə mütəalliq [məxsus] olan tüfəngləri xüsusi adamlara satmaqla məşğul olub, bir çox pulları kəndi nəflərinə [xeyirlərinə] xərc etmişlərdir.

Ağabala Quliyevin azad edilməsi

Hökumətin binagüzarlığına görə, neçə gün bundan əqdəm həbs edilmiş olan məşhur tacir Ağabala Quliyev həbsdən azad edilmişdir.

**Təyin**

Göyçay uyezd naçalniki Xankişi bəy Qafarov Bakı qubernatorunun ikinci müavinliyinə və onun yerinə isə Şamaxı uyezd naçalniki [Lütfəli bəy] Zülqədərov təyin edilir.

**“Göyçay alayı”**

Göyçay əhalisi oraya getmiş olan “Müsavat” Parlaman fraksiyonu və Mərkəzi Komitə nümayəndələrinə müraciətən, Göyçay qəzasının 5000 nəfərə qədər əsgər verməsini göstərməklə, Şamaxı alayı kimi bir “Göyçay alayı” təşkil edilməsi üçün firqənin təşəbbüsatda bulunmasını rica etmişlərdir. Nümayəndələr əhalinin böylə ricasını Rəisi-Vükəla [Baş nazir] həzrətlərinə bəyan etdikdə, o, çox məmnun olduğunu izhar ilə bu barədə Hərbiyyə nazirinə binagüzarlıqda bulunacağını [sərəncam verəcəyini] məlum etmişdir.

**Göyçay “Yardım alayı”**

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Göyçay şöbəsi təşəbbüsüylə Göyçayda bu günlərdə həmkarlardan və tacirlərdən ibarət bir “yardım alayı” təşəkkülünə şüru olunacaqdır [başlanacaqdır].

**Mülkiyyə Müfəttişliyi**

Mülkiyyə Müfəttişliyi tərəfindən ətraf qəzalara təftiş üçün göndərilən nümayəndələri mahallar və qəzalar haqqında da bəzi məlumat toplayırlar. O cümlədən olaraq, Göyçay uyezdinin Bərgüşad mahalına bəzi suallar verilmiş və aşağıdakı cavablar alınmışdır:

Sual – Bərgüşad mahalı neçə yüzbaşılıqdan (məhkəmə) ibarətdir?

Cavab – Bərgüşad mahalında 52 yüzbaşılıq və 15 volostluq vardır. Hər yüzbaşılıqda bir yüzbaşı, hər volostda volostnoy starşina var. Bunların əksəri hürriyyət zamanında camaat tərəfindən intixab edilmiş [seçilmiş] adamlardır. Bəziləri də hökumət tərəfindən təyin edilmişdir.

Sual – Mahalda hanki kəndlərdə məktəb var?

Cavab – Hürriyyətdən əvvəl Ucar, Müsüslü, Çallı, Xələc, Lək Birinci, Bığır, Qazyan, İnçə və Zarub kəndlərində birər iki şöbəli ibtidai məktəb olmuşsa da, fəqət hürriyyətdən sonra məzkur [deyilən] məktəblər qapanıb, ancaq yalnız bir Müsüslü kəndində bir də Bığır kəndində iki şöbəli məktəblər davam edir. Birinci kənddə Əli Məhəmmədov, ikinci kənddə Əli əfəndi Hacı Səməd oğlu və Haşım Haşımov müəllimlik edirlər.

Sual – Mahalda xırda etibar [kredit] şirkətləri varmı?

Cavab – Hürriyyətdən əvvəl Ucar, Şəkər və Qarabaqqal kəndlərində birər etibar şirkəti şöbələri olmuşsa da, lakin sonradan dağılmışdır.

Sual – Hifzüssihhə [gigiyena və səhiyyə] xüsusunda mahalda nə yapılmışdır?

Cavab – Mahalda hifzüssihhədən ötrü heç bir şey yoxdur. Aprel ayında mahalın çox kəndlərində tif xəstəliyi olduğuna görə, Göyçay xəstəxanası tərəfindən birisi Zərdab, digəri Müsüslü kəndlərinə olmaq üzərə iki nəfər feldşer göndərilmişsə də, dəva və dərman olmadığından, məhəlli-məmuriyyətlərində [ezam edildikləri yerlərdə] çox qala bilməyib, geri qayıtmışlardır. Hazırda camaatın həkim və dərmana böyük ehtiyacı vardır. Bu xüsusda bir ay əvvəl Ucara gəlmiş Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndəsinə Ucar pristavı Haqverdibəyli rəsmi surətdə müraciət etmiş, bir həkim və bir feldşerdən mürəkkəb [ibarət] bir müalicəxanə açılmasını xahiş etmişdir. Hətta camaat tərəfindən məccani [pulsuz] mənzil veriləcəyini də vəd etmişsə də, bu vaxtadək bu xüsusda heç bir təşəbbüs edilməmişdir.

Sual – Bərgüşad mahalında Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] Nəzarətinin nümayəndəsi varmı?

Cavab – Xeyr, yoxdur.

Sual – Ərzaq işləri nasıldır?

Cavab – Bu il mahalda məhsulat kifayət qədər var. Ancaq fəhlə və biçinçi yoxluğu çox müşkülat törədir. Hətta çox yerlərdə məhsul yığılmadığından, məhv olmaqdadır. Zəruri şeylərdən qənd, çay və sabuna böyük ehtiyac vardır.

Sual – Əsgərliyə camaat nasıl baxır?

Cavab – Dağıstan hadisəsindən sonra camaat əsgərliyə böyük rəğbət göstərir.

Sual – Denikin məsələsinə camaat nə nəzərlə baxır?

Cavab – Denikinin bizə yaxlaşmasını eşidən camaatda milli hissiyyat o qədər artmış ki, yalnız cavanları deyil, ixtiyar və ağsaqqalları belə silaha sarılıb müdafiəyə hazır olmaq fikrindədir.

(Bu xüsusda Müfəttişliyin nümayəndəsinə bilavasitə camaat müraciət edərək, onların könüllü surətdə əsgərliyə hazırlanmaları üçün hökumət tərəfindən təşəbbüs edilməsi və zabitlər göndərilməsi rica edilmişdir.)

Sual – Mahalda asayiş nasıldır?

Cavab – Qonşu mahallara nisbətlə sakitlikdir. Lakin ara-sıra mal oğurluğu vaqe olmaqdadır.

Sual – Mahalda hanki siyasi firqəyə rəğbət göstərilir?

Cavab – Buralarda yalnız “Müsavat” firqəsini tanıyırlar.

* * *

Bərgüşad mahalında polis xidmətində olanların bahalığa nisbətlə rüşvət almayanlarının məişəti qayət ağırdır. Mahal böyük olduğundan hökumətin binagüzarlığına [sərəncamına] görə son zamanlarda onun iki pristavlığa təqsim edilməsi [bölünməsi] təhtiqərara alınmış. Bu təqsim məsələsində bəzi kəndlər özlərinin mərkəzə yaxın olmasını istədiklərindən, hanki kəndlərin hanki hissədə olduğu barəsində bir növ narazılıq vardır.

## AZƏRBAYCANDA

**Zəngəzurda**

Zəngəzur mahalından xəbər verilir ki, ermənilərin müntəzəm qoşunları bu axırıncı günlərdə 6 ədəd müsəlman kəndlərini talan etmişlərdir.

* * *

Ağdamdan yazılır: Zəngəzur qəzasında qanlı hadisələrdən həyəcana düşən əhali hökumət nəzdinə, Parlaman üzvü [Qara bəy] Əliverdibəyov və Usmiyevi nümayəndə göndərmişdir ki, bu yerlərin müsəlmanlarını erməni təcavüzündən xilas etməyə hökumət qarşısında təşəbbüsatda bulunsun.

* * *

Zəngəzurdan xəbər verilir: İrəvan quberniyası tərəfindən erməni saldatları müsəlman kəndlərinə yürüşə başladıqları anda, İran dəstələri müsəlmanlara köməyə gəlməyə başlamışlardır.

**Zəngəzur müsəlmanlarının faciəsi**

Rəsmi və qeyri-rəsmi mənbələrdən verilən xəbərlərə görə, ermənilərin müntəzəm qoşunları Ermənistan sərhədi boyundan müdafiəsiz müsəlman kəndlərinə hücuma başlamışlardır. Zəngəzur Erməni Milli Şurası İrəvandan külli silah almışdır. Müsəlmanlara böyük təcavüzlər edilmişdir. Aşağıda rəsmi məlumatı dərc ediriz:

“Sizin teleqramınıza görə, tərəfimdən Zəngəzura müavinət göndərilmişdir. Bu gün xəbər verilir ki, ermənilərin külli qüvvəsi hücuma keçmişdir ki, Zəngəzur müsəlmanlarını qətiyyən məhv eyləsinlər.

Qələbədən məst olan erməni saldatları boş qalan Saraşo, Yeməzli, İməzli, İkinci Ağalarbəyli, Xaşqab, Gilətağ, Mollalar kəndlərini tamamilə dağıdıb, məhv etmişlərdir. Yandırılmış olan müsəlman kəndlərində ölən müsəlmanlar çox azdır. Fəqət kəndlilərin ümum mal-qaralarını aparmışlardır.

İyunun 28-ində Zavodnı dairənin erməniləri Qafan dərəsində Qarqel, Çuxuryurd, Qəplik nam müsəlman kəndlərini yağma edərək yandırmışlardır. Müharibə davam edir.

Erməni əhalisi köçərilərə yol vermir. Müsəlmanlara müavinət üçün mən Zəngəzura varid oldum [getdim]. Ermənilər bütün qüvvətləri ilə mənə hücum edirdilər. Mən onlardan özümü gözləyirəm ki, ortalığa fəsad düşməsin. Ermənilər Cəbrayıl və Zəngəzur mahalının köçərilərinə yaylağa getmələrinə mane olurlar. Ona görə də mən özümə borc bildim ki, köçərilərə lazım olan müavinəti edim. Ermənilərin Aqarek, Aqavork, Qarababa və Sirqatar nam kəndləri mənim gəldiyimi bilib, Alıçadil ilə Aqavorq kəndi arasında bizim üzərimizə hücum edib, məqsədləri də bu idi ki, köçərilərin yolunu kəsib, mənim müavinətimə mane olsunlar. Mən onlarla axşamadək müharibə etməyə məcbur oldum. Nəticədə müsəlmanların Qarababa kəndi yanıb, Aqavork və Sirqatarın qışlalarında böyük tələfat və xəsarətə düçar olmuşlardır. Ermənilərin vəhşətinə qarşı ciddi tədbirlər ittixaz edirəm [tədbirlər görürəm].”

*Milis naçalniki (imza)*

## ERMƏNİSTANDA

*(Erməni qəzetələrindən)*

**Urmiyada**

“Rə’d” qəzetəsindən iqtibasən “Aşxa-tavor” yazır ki, Urmiyada şiddətli aclıqdır. Şəhərdə və ətrafında kəmali-binizamlıq hökmfərmadır [tam anarxiya hökm sürməkdədir]. Gündüz günorta çağı əhalinin acından adam əti yemək ittifaqları [hadisələri] görmüşlər.

– Vilsonun hüzuruna getmiş erməni arxiyepiskopu Turyana Rəisi-məzkur demişdir:

Mən başəxsən erməni tayfasını dost tuturam. Müstəqil olmağa onun haqqı vardır. Bu nöqteyi-nəzərdə tək mən deyiləm, bütün mənim camaatımdır ki, onu mənə rəsmi sayaqda tapşırıbdır. O cəhətə mən camaatın rəyinə müxalif ola bilmərəm. Siz özünüz zənn etdiyiniz qədərdən ziyadə həqiqi dostunuz Sülh Konfransında da vardır. Erməni məsələsini onlar ermənilərin tələbatına müvafiq gərək həll etsinlər. Rica edirəm, erməni vəkilləri Şərq məsələsi xüsusunda təşkil edilmiş Amerika komissiyası ilə yaxın və dostanə əlaqədə bulunmaqlarında davam etsinlər, ta ki, bu komissiya erməni camaatının tələbatını səhvsiz müdafiə edə bilsin və Kilikiyanı Suriyaya ilhaq edilməsini [birləşdirilməsini] qoymayıb, müstəqil Ermənistan hüduduna daxil etdirsin.

Məzkur [adı çəkilən] keşiş Amerika heyətinin nüfuzlu üzvlərindən Vestermanı da ziyarət etmişdir. Müşarileyh [adı çəkilən şəxs], Turyana demişdir ki, mən erməni tayfasının tarixinə bələdəm. Ermənistanda olduğum cəhətə bilirəm ki, Kilikiya heç vaxt Suriyanın hissəsi olmamışdır. Ermənistan məsələsi erməni tayfasının tələbatına müvafiq gərək həll edilsin.

**[Aleksandr] Bekzadyanın etirazı**

Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti orada olan erməniləri əsgərliyə əxz [dəvət] edir. Azərbaycan Hökuməti nəzdində olan Ermənistan siyasi nümayəndəsi onun əleyhinə etiraz edib və məhəl hökuməti naziri Seyranyana bir məktub yazıb, Mavərayi-Bəhri-Xəzərdə yaşayan erməniləri Ermənistana göndərmələrini rica etmişdir.

## İDARƏDƏN CAVABLAR

“Bir iranlı”ya: Mərəzi yalnız təşxis etmək kafi deyil, dəvasını da göstərməlidir. Mütəəssifanə, məqalənizdə bir dərman görülmədi.

Gəncədə “İzçi”yə: İzcilik haqqında yazdığınız məqalə ancaq bir məqalənin yaxşı müqəddiməsidir. Əsl mövzuya müntəzir oluruz. Bir də izçiliyi tərif edərkən yaxşı və xeyir olduğunu göstərmək istəmiş, fəqət heç bir dəlil göstərməmişsiniz. Öylə sentimental müqəddimədən sonra qüvvətli dəlillər gözlənir.

**Satılır**

Dükan ləvazimatı: qəfəsə, maşın tərəziləri, elektrik lampaları və qeyri dükan şeyləri. Xahiş edənlər 2-ci uçastkovı ev komitəsinin idarəsinə müraciət etməlidirlər.

*5415*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

T-321

Bəhri-Xəzər dənizində posta, sərnişin
və yük gəmilərinin hərəkatı

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər GəzMəşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümuma elan edir ki:

1) Bakı Azərbaycan dəmiryollarından gələn yüklər üçün put vergisi bu gündən Nəzarətdə qəbul olunmayıb, Bakı 1-nci stansiyasında qəbul olunacaqdır.

2) Digər təriqlə gələn yüklər üçün isə put vergisi “Vastoçnı Obşestvo”nun 22-nci körpüsündə qəbul olunacaqdır.

*T-171*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

“İrlanda Cəmiyyəti”: İrlandi-yanın birləşdirilməsi və Böyük Britaniya imperiyası tərkibində dominion (öz-özünü idarə edən hissə) statusu alması uğrunda mübarizə aparan siyasi hərəkat olan İrlan-diya Dominionu Liqi [Irish Dominion League] nəzərdə tutulur.

“Vestminster [Westminster]: Londonun tarixi rayonu. Böyük Britaniya Parlamenti buradakı Vestminster Sarayında yerləşdi-yindən, “Vestminster” deyəndə çox vaxt Böyük Britaniya Parlamenti nəzərdə tutulur.”

“Yalnız Rusiyada deyil, bütün cahanda inqilab qələbə çalacaqdır.”: qəzetdə belə getmişdir: “Yalnız Rusiyada deyil, bütün cahan inqilabında qələbə çalacaqdır.”

“Lopasnya”: Rusiyanın Moskva vilayə-tində şəhər; indiki Çexov şəhəri.

***Qəzetələrdən***

“Hindustan Konqresi”: Hindis-tanın azadlığı uğunda aktiv mübarizə apar-mış Hindistan Milli Konqresi nəzərdə tutulur. Bu siyasi partiya 1885-ci ildə yaradılmışdı.

“Roulatt qanunu” [Rowlatt Act]: Brita-niya ağalığı dövründə Hindistanda anarxiya və inqilabi cinayətlər əleyhində fövqəladə sərt tədbirlər görməyi nəzərdə tutan qanun. Britaniya Hindistanının qanunverici orqanı tərəfindən 1919-cu ildə qəbul edilən bu qa-nun, onun müəllifi olan ingilis hüquqşünası Sidney Roulattın adıyla xatırlanırdı.

“C. Musalayev”: böyük ehtimalla material ruscadan (Джамалутдин) götürüldüyü üçün qəzetdə “D. Musalayev” getmişdir.

***İşlərimizdə hərcü-mərclik***

“təbiətin əlinə buraxmaq”: qəzetdə “təbiətin əlilə buraxmaq” getmişdir.

“3) Nəriman Əliyev adından biri…”: qəzetdə bu maddə nömrələnməmiş, bundan sonrakılar 3 və 4 kimi nömrələnmişdir.

“Ümidvar”: “Azərbaycan” qə-zetində bu imza Ömər Faiq Nemanzadəyə məxsusdur.

***Qırmızı qan və qara mürəkkəb – I***

“yalnız qılınc zoruyla”: qəzetdə “qılınc” yerinə “qızıl” getmişdir.

“…idarələri milliləşdirdilər, ərəbləşdirdilər.”: qəzetdə “ərəbləşdirdilər” sözü tünd şriftlərlə yığılmışdır.

***Xarici siyasətimiz – 5***

“Bəyoğlu”: İstanbulun Avropa hissəsində yer alan rayonlardan (ilçələrdən) biri.

“Qalata”: İstanbulun Avropa hissəsində tarixi rayon.

***“Getmə” şeiri üçün lüğət***

təvəqqüf: dayanmaq, durmaq
yə’s: ümidsizlik; hüzün
tərəhhüm: mərhəmət
məğmum: qüssəli
münfəil: küskün
şitab: tələsmə

***İki lövheyi-bayram***

“ənvayi-məkulat ilə mali”: qə-zetdə belə getmişdir: “ənvayi-məkulat ilə hamı”.

“28 həziran 335”: burada il, ru-mi təqvimə görə (1335-ci il) göstərilmişdir; miladi təqvimlə 28 iyun 1919-cu ilə uyğun-dur.

***Bakı xəbərləri***

“Qəhqəhə”: Türkmənistanın cənubunda, indiki Kaka şəhəri.

“Mirhüseyn Seyid Salman oğlu”: “Azər-baycan” qəzetinin 20 iyun 1919-cu il tarixli 208-ci nömrəsində bu şəxsin adı “Mirhüseyn Seyid Süleyman oğlu” kimi verilmişdir (bax. “Azərbaycan” külliyyatının IX cildi, səh. 385).

***Ermənistanda***

“Rə’d”: Tehranda nəşr edilmiş İran qəzeti.

“Aşxatavor”: Tiflisdə nəşr edilmiş erməni qəzeti.

# İqtisadiyyat və sosial həyat

● Ötən həftənin iqtisadi icmalı



## Yeni layihələr, işgüzar görüşlər, genişlənən əməkdaşlıq

**Sentyabrın üçüncü həftəsi Azərbaycanın iqtisadi gündəmində maliyyə sektorundan enerji və investisiyalara, beynəlxalq əməkdaşlıqdan dayanıqlı inkişafa qədər müxtəlif istiqamətlər üzrə yeni addımlarla yadda qalıb. Onların bir qismi yalnız cari iqtisadi göstəricilərlə deyil, ölkənin qlobal iqtisadi proseslərə daha sıx inteqrasiyası və yeni əməkdaşlıq platformalarında mövqeyinin genişlənməsi ilə diqqət çəkib.**

Həftənin ilk günü Azərbaycan Mərkəzi Bankı BMT-nin İnkişaf Proqramının Dayanıqlı Sığorta Forumuna üzv qəbul olunub. Bu üzvlük Mərkəzi Banka müxtəlif ölkələrin sığorta nəzarətçiləri və tənzimləyici qurumları ilə əməkdaşlığı genişləndirmək, beynəlxalq təcrübə mübadiləsində iştirak etmək, həmçinin forumun işçi qrupları və müzakirələrində təmsil olunmaq imkanı verəcək. Əməkdaşlığın Azərbaycanın sığorta sektorunda beynəlxalq təcrübənin tətbiqinə töhfə verməsi gözlənilir.

❖ ❖ ❖

"AzerGold" QSC-nin nümayəndə heyəti Qırğızıstana səfər çərçivəsində "Altynken" qızıl mədəni və "Kyrgyzaltyn" şirkətinin Kara-Balta şəhərində yerləşən affinaj zavodunda olub. Nümayəndə heyəti burada qızıl hasilatı və emalı texnologiyaları, istehsal infrastrukturu, keyfiyyətə nəzarət və sənaye təhlükəsizliyi sistemləri ilə tanış olub.

Tərəflər qızıl sənayesində əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər. Səfər "AzerGold" ilə "Kyrgyzaltyn" arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində baş tutub.

❖ ❖ ❖

Sentyabrın 15-də Azərbaycan Respublikası Hesablama Palatasında İslam İnkişaf Bankı (İİB) Qrupunun Azərbaycana missiyası çərçivəsində nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə üzv ölkələrdə institusional potensialın artırılması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Hesablama Palatasının nümayəndələri rəqəmsallaşma, auditdə süni intellektdən istifadə, beynəlxalq ali audit qurumları ilə təcrübə mübadiləsi və əməkdaşların peşəkar potensialının artırılması üzrə həyata keçirilən layihələr barədə məlumat veriblər. Görüşdə əvvəlki müzakirələrdə razılaşdırılan məsələlərin icra mərhələsinə keçirilməsinin vacibliyi vurğulanıb.

❖ ❖ ❖

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin nümayəndə heyəti Qırğızıstanın Bişkek şəhərində keçirilən Avrasiya Məkan Məlumatları İnfrastrukturu (ESDI) İdarəetmə Komitəsinin 12-ci konfransında iştirak edib. Tədbirdə rəqəmsal transformasiya, geoməkan məlumatlarının idarə olunması, rəqəmsal xəritələr, 3D xəritələrin və peyk təsvirlərinin torpaq idarəçiliyində tətbiqi, eləcə də ölkələrarası məlumat mübadiləsi müzakirə olunub.

❖ ❖ ❖

Ötən həftənin aqrar sahədə baş vermiş iqtisadi xəbərində deyilir ki, yeni yaradılmış "Qusar Aqropark"ın rezidenti "Fresh Garden Quba" MMC-yə qeydiyyat şəhadətnaməsi təqdim edilib. Aqroparkda müasir texnologiyalar əsasında meyvəçilik təsərrüfatının inkişafı nəzərdə tutulur.

Hazırda 77 hektar ərazini əhatə edən aqroparkda alma, nektarin, şaftalı və gilas bağlarından ibarət intensiv meyvə təsərrüfatı yaradılıb. Gələcəkdə bağların sahəsinin 110 hektaradək genişləndirilməsi planlaşdırılır.

❖ ❖ ❖

Çərşənbə günü Azərbaycanın milli peyk operatoru "Azərkosmos" Niderlandın Amsterdam şəhərində keçirilən "IBC 2026" beynəlxalq sərgisində iştirak edib. Şirkət tədbirdə yayım və media sənayesinin inkişaf edən tələblərinə uyğun peykəsaslı həllərini nümayiş etdirib.

Sərgidə peyk tutumu, yayım və media bağlantısı, VSAT həlləri və canlı yayım xidmətləri təqdim olunub. "Azərkosmos" həmçinin dənizçilik sektoru üçün peyk bağlantısı həllərini nümayiş etdirərək texnologiyanın müxtəlif sahələrdə etibarlı rabitə imkanlarını diqqətə çatdırıb.

❖ ❖ ❖

Maliyyə şəffaflığı və dayanıqlı iqtisadi inkişafla bağlı atılan addımlarla yanaşı, ötən həftə Azərbaycanın enerji sektorunda "yaşıl keçid"in genişlənməsini göstərən yeni layihənin də açılışı olub. Belə ki, Qaradağda "Qobustan" Günəş-Elektrik Stansiyası (GES) istifadəyə verilib.

Prezident İlham Əliyev sentyabrın 16-da Qaradağ rayonunda 100 MVt gücündə "Qobustan" GES-in açılışında iştirak edib. Layihə Azərbaycanda hərrac yolu ilə həyata keçirilən ilk bərpaolunan enerji layihəsi olmaqla yanaşı, "Universal Energy" şirkətinin ölkəmizdə reallaşdırdığı ilk layihədir.

❖ ❖ ❖

Bir gün sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonuna səfər ediblər. Səfər çərçivəsində yeni turizm obyektlərinin açılışı və rayonun turizm potensialının inkişafına yönəlmiş layihələrlə tanışlıq olub. Meysəri kəndində "Meysari Grand Hotel & SPA", Pirqulu qəsəbəsində isə "Pirqulu Park" hotel kompleksləri istifadəyə verilib. Eyni zamanda "Nəsimi Bağları" kompleksində yaradılan şəraitə baxış keçirilib. Yeni turizm infrastrukturu Şamaxının təbii, tarixi və mədəni imkanlarından daha geniş istifadə olunmasına, rayona turist axınının və xidmət sektorunun inkişafına əlavə imkanlar yaradır.

❖ ❖ ❖

Həftənin sonlarına doğru Azərbaycanın aviasiya sektorunda əldə olunan beynəlxalq nəticə də diqqət çəkib. "AZCON Holding" şirkətlərindən olan "Azərbaycan Hava Yolları" (AZAL) "World Airline Awards 2026" çərçivəsində "Mərkəzi Asiya və MDB-nin ən yaxşı regional aviaşirkəti" adına layiq görülüb. "Skytrax" tərəfindən Londonda keçirilən mərasimdə təqdim olunan mükafat AZAL-ın donanmanın yenilənməsi, marşrut şəbəkəsinin genişləndirilməsi və xidmət keyfiyyətinin artırılması istiqamətində həyata keçirdiyi işlərin beynəlxalq səviyyədə qiymətləndirilməsi baxımından diqqət çəkir.

❖ ❖ ❖

Həftənin son iqtisadi xəbəri Azərbaycanın istehlakçı hüquqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığının genişlənməsi ilə bağlı olub. Azərbaycan 2026-2027-ci illər üzrə İstehlakçı Hüquqlarının Müdafiəsi və Mühafizəsi üzrə Beynəlxalq Şəbəkənin (ICPEN) Məsləhət Qrupuna üzv seçilib. Bu təmsilçilik ölkənin istehlak bazarlarına nəzarət və istehlakçı hüquqlarının qorunması sahəsində beynəlxalq təcrübə mübadiləsində iştirakını genişləndirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycandan Rumıniyaya xam neft ixracının dəyəri artıb

**Bu ilin yanvar-avqust aylarında Azərbaycandan Rumıniyaya 924 min 913,09 ton xam neft ixrac edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 18,8 faiz və ya 146 min 297,55 ton artım deməkdir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb. İxrac olunan xam neftin dəyəri 581 milyon 706,77 min dollar təşkil edib ki, bu da illik müqayisədə 35,5 faiz və ya 152 milyon 372,72 min dollar çoxdur.

Səkkiz ayda Rumıniyaya ixrac edilən xam neftin Azərbaycanın ümumi neft ixracında payı 6,3 faiz olub.

## Yanvar-avqust aylarında 1 milyon 100 min şəxsə 1 milyard manatdan çox müavinət və təqaüd ödənilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ilin yanvar-avqust aylarında 1 milyon 100 min şəxsə 1 milyard 503 milyon manat müavinət və Prezidentin aylıq təqaüdü ödənilib.**

Ödənilən vəsait ötən ilin müvafiq dövrünə nisbətən müavinətlər üzrə 11 faiz, təqaüdlər üzrə 12 faiz, sosial sığorta hesabına müavinətlər üzrə 5 faiz çox olub. Bu ilin 8 ayında daha 98 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən isə 977 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Azərbaycanda qızıl və gümüş istehsalının həcmi açıqlanıb

**Bu ilin yanvar-avqust aylarında qızıl istehsalı illik müqayisədə 7,9 faiz azalaraq 1 ton 946,3 kiloqram təşkil edib.**

AZƏRTAC Dövlət Statistika Komitəsinin yaydığı məlumata istinadla xəbər verir ki, sentyabrın 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında qızıl üzrə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə artaraq 236,1 kiloqram olub.

Hesabat dövrü ərzində gümüş istehsalı ötən ilin analoji dövrü ilə müqayisədə 9,3 faiz azalaraq 2492 kiloqram təşkil edib.

## Piramida sistemləri ilə bağlı vətəndaşlara çağırış edilib

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Milli Kibertəhlükəsizlik Agentliyi (MKA) piramida sistemləri ilə bağlı maarifləndirici video-material hazırlayıb.**

AZƏRTAC xəbər verir ki, materialda piramida sistemlərinin mahiyyəti, fəaliyyət prinsipi və əsas xüsusiyyətləri izah olunur.

Qeyd olunub ki, piramida sistemləri qısa müddətdə yüksək və zəmanətli gəlir vəd etməklə insanları cəlb edən riskli maliyyə sxemləridir. Bu sistemlərdə gəlir, bir qayda olaraq, real iqtisadi fəaliyyət hesabına deyil, yeni iştirakçıların yatırdığı vəsaitlər hesabına formalaşır.

Videoda vətəndaşlara belə sxemlərin əsas əlamətlərini tanımaq, şübhəli maliyyə təkliflərini qiymətləndirmək və qərar verməzdən əvvəl məlumatları yoxlamaqla bağlı tövsiyələr verilir.

MKA vətəndaşları şübhəli vədlərə deyil, yoxlanılmış və etibarlı məlumatlara əsaslanmağa çağırır.

● Neft korifeylərimiz

# Dəniz şəhərində polad avtoqraf

**Sentyabr ayı Azərbaycanın neft sənayesi tarixinə qızıl hərflərlə yazılıb. Ölkəmizin yeni neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi" - Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi haqqında saziş 1994-cü ilin məhz bu ayının 20-də imzalanıb. 2001-ci ildən isə Azərbaycan neftçiləri həmin bu günün şərəfinə sentyabrın 20-ni Neftçilər Günü kimi qeyd edirlər. Azərbaycanı qaz ixrac edən ölkə kimi tanıdan, Avropanın enerji xəritəsini dəyişdirən "Cənub qaz dəhlizi"nin təməli də sentyabrın 20-də (2014-cü il) qoyulub. 2017- ci il sentyabrın 14-də isə "Yeni əsrin müqaviləsi" imzalanıb - AÇG blokunun işlənməsinin müddəti 2050-ci ilin əvvəlinə qədər uzadılıb.**

Azərbaycanın neft tarixini vərəqləyəndə daha bir məqam diqqətimizdən yayınmadı. Bu tarixdə imzası olan neft korifeylərimizdən biri - Xanoğlan Bayramov da məhz bu ayda dünyaya gəlib və özündən sonra çoxlu xeyirxah əməllər, xoş xatirələr qoyub 66 yaşının tamam olduğu ilin sentyabrında da həyata vida edib.

Azərbaycanın görkəmli neftçilərinin bir pleyadası var ki, onsuz "Möcüzələr adası" adını almış Neft Daşlarının tarixindən söhbət açmaq mümkün deyil. Bunlar geoloq Ağaqurban Əliyev, neft təşkilatçısı Sabit Orucov, mühəndis Yusif Səfərov, qazma ustaları Mixail Koveroçkin, Qurban Abbasov və başqalarıdır. Bu dəstəyə Xanoğlan Bayramov da daxildir. Neftçi-inşaatçı Xanoğlan Bayramov.

Yüksək vəzifə və titullar qazansa da, bir çox fəxri adlara və mükafatlara layiq görülsə də, onu elə neftçi-inşaatçı Xanoğlan kimi tanıyırdılar. Maraqlıdır ki, bu günün özündə də haqqında söhbət düşəndə onu sadəcə olaraq "Neft Daşlarını tikən Xanoğlan" deyə xatırlayırlar.

Bəli, hər kəs həyatda bir ad qoyub gedir. Xanoğlan Bayramov da bu adla yaddaşlarda qaldı. Daha dəqiq desək, Azərbaycanın tarixinə "Neft Daşlarını tikən Xanoğlan" kimi daxil oldu.

1949-cu il noyabrın 7-də Xəzərin qoynunda, "Qara daşlar" adlanan ərazidə ilk neft quyusu fontan vurdu. Bu, dünyanın səkkizinci möcüzəsi sayılan, dənizin ortasında polad dirəklər üstündə salınan bir şəhərin - Neft Daşlarının ad günü və dünyada dəniz neftinin erasının başlandığı tarix idi.

O zaman Xanoğlanın 16 yaşı vardı, fabrik-zavod məktəbinə (texniki peşə məktəbi) təzəcə qəbul olunmuşdu. Eşitdikləri ona möcüzə təsiri bağışlayırdı. Bir il sonra məktəbi bitirib elektrik qaynaqçısı kimi "Orconikidzeneft"in (sonralar "Suraxanıneft" NQÇİ oldu) tikinti-quraşdırma idarəsində işə düzəldi. Amma heç ağlına belə gətirməzdi ki, bir neçə ildən sonra həyat yolları onu məhz möcüzə saydığı şəhərə aparacaq.

1953-cü ildə Xanoğlan Bayramovu köçürmə yolu ilə "Azərdənizneftinşaat" trestinin Neft Daşlarında fəaliyyət göstərən 6 nömrəli tikinti-quraşdırma idarəsinə işə göndərirlər. Xanoğlan Bakıda böyüsə də, kökü-soyu Lerikin Niməkeş kəndindən idi. Daxilində dağlar oğlunun dözümü-dəyanəti qərar tutmuşdu. Yoxsa, o da bəziləri kimi, Xəzərin dəli dalğalarından vahiməyə düşər, elə birinci qasırğanı görəndən sonra dənizi həmişəlik tərk edərdi...

"Möcüzələr adası" Xanoğlan üçün həyatın bir sınağımı idi? Yoxsa, daxilindəki qurub-yaratmaq eşqini, qəhrəmanlıq ruhunu realizə etmək üçün verilmiş bir şans?

Xanoğlan o vaxt bütün bunlar barədə düşünmürdü və heç romantik duyğulara qapılıb baş verənlərə məna da axtarmırdı. Çətinə düşəndə öz-özünə "qeyrət yeridir, geriyə dönmək olmaz" deyirdi. Canla-başla işləyirdi. İş isə adi iş deyildi. Onlar fırtınalar qoynunda şəhər salırdılar, estakadalar inşa edir, meydançalar tikirdilər. Hamısı da dənizin ortasında, polad dirəklərin üstündə...

İllər keçdikcə estakadalar 10 kilometrlərlə dənizin qoynuna addımlayırdı. 1957-ci ildə 24 yaşlı elektrik qaynaqçısının əlini sıxıb ona respublika Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanını verdilər. Bir il sonra isə eşitdiyinə az qala inanmadı. Bütün qəzetlər, radio, televiziya Xanoğlan Vəli oğlu Bayramova Sosialist Əməyi Qəhrəmanı adı verilməsi barədə xəbər yaydılar. 25 yaşında əmək cəbhəsində bu yüksək adı alanlar bütün keçmiş sovet məkanında tək-tək olurdu.

"Qızıl Ulduz"lu, "Lenin" ordenli (bunlar o dövrün ən yüksək mükafatları idi) gənc isə başını aşağı salıb yenə də öz işi-gücü, sadə peşəsi ilə məşğul idi. Məsuliyyətini, səriştəsini, işə yenilikçi münasibətini nəzərə alıb onu usta, sonra iş icraçısı təyin etdilər. 1967-ci ildə Bolqarıstana bir mütəxəssis ezam etmək lazım gələndə dərhal Xanoğlan Bayramov yada düşdü. Beləliklə, Xanoğlan dəst-xəti Qara dənizdə də göründü. O, Qara dənizin Bolqarıstan şelfində hidrotexniki qurğuların ilk quraşdırıcısı oldu.



Vətənə qayıdandan sonra Xanoğlan Bayramov 6 nömrəli tikinti-quraşdırma idarəsinin rəisi təyin edilir. Daha sonra isə "Xəzərdəniznefttəmirtikinti" trestinin müdiri vəzifəsinə irəli çəkilir. Bu trest ləğv olunandan sonra X.Bayramov "Azərdənizneftinşaat" trestində rəis müavini vəzifəsində çalışır. Lakin Xəzər öz fatehini yenidən dalğalar qoynuna çəkdiyindən o, sözügedən trestin 1 nömrəli ixtisaslaşdırılmış təmir-tikinti idarəsinin rəisi vəzifəsinə keçərək dənizə qayıdır.

Xanoğlan Bayramov, sözün əsl mənasında, zəhmətkeş bir insan idi. O, istehsalatda işləyə-işləyə neft texnikumunu bitirmiş, onlarla səmərəli təkliflər irəli sürmüşdü. Estakadaların "ömrünü uzatmaq", onları korroziyadan qorumaq üçün alimlərlə birlikdə xüsusi metod işləyib hazırlamışdılar. Bütün bunlara görə Azərbaycanda aldığı mükafat və fəxri fərmanlardan əlavə, müxtəlif illərdə Moskvada fəaliyyət göstərən Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medallarına da layiq görülmüşdü.

Ev quran, yol çəkən, körpü salan babalarımız "tikdim ki, izim qala" deyiblər. Xanoğlanın izi isə Xəzərin qoynunda qalıb. Bunlar kilometrlərlə uzanan polad estakadalar, kompressor stansiyaları, gəmilər üçün yanalma körpüləri, neft və qaz daşıyan sualtı kəmərlər, "Günəşli" yatağındakı dərin özüllər və daha neçə-neçə dəniz obyektləridir.

Bütün bunları "Xanoğlanın polad avtoqrafı" adlandırmaq olar. Qocaman neftçilərdən biri sanki onların çoxunun fikrini ifadə edərək danışır:

- Dəniz neftçilərinin dostluğu çox möhkəm olur. Biz onunla həm çiyin-çiyinə işləmiş, həm də ürək və çörək dostu olmuşuq. Xanoğlan Bayramov ciddi və məsuliyyətli bir insan idi, rəhbər vəzifədə çalışdığı zaman tabeliyində olan işçilərə böyük tələbkarlıqla yanaşırdı. Bununla bərabər, dostluqda da əvəzi yox idi.

İxtiyar yaşlı neftçi bir xatirə də söyləyir:

- Ümummilli Lider Heydər Əliyev növbəti dəfə Neft Daşlarına gəlmişdi. Bizimlə səmimi söhbət etdi, işimizlə, qayğılarımızla maraqlandı. Sonra birdən nədənsə gözü uzaqlara, üfüqlə dənizin birləşdiyi nöqtəyə zilləndi və əlini irəliyə uzatdı. Üzünü yanında dayanmış Xanoğlan Bayramova tutub dedi ki, indi bax oraları, daha uzaq yataqları kəşf etmək lazımdır. Bu həmin yer idi ki, sonralar orada "Günəşli" yatağı işlənməyə başladı...

Xanoğlan Bayramov 1933-cü il sentyabrın 13-də anadan olmuşdu. 1999-cu il sentyabrın 20-də dünyasını dəyişdi. Bu da bir təsadüf. Qeyd etdiyimiz kimi, ölkəmizdə hər il sentyabrın 20-si Azərbaycanın yeni neft erasının başlanğıcının - "Əsrin müqaviləsi"nin imzalanmasının növbəti ildönümü, neftçilərin peşə bayramı kimi qeyd olunur. Amma "hər təsadüf zərurətdən doğur" deyiblər. Xanoğlanın dünyaya gəlişi də, yaşadığı şərəfli ömür də, son nəfəsinədək Azərbaycanın neft həyatı ilə bağlılığı da bir zərurət idi...

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Formula-1" Azərbaycan Qran-prisinə 2 gün qaldı

**"Formula-1" Azərbaycan Qran-prisi Bakının ən böyük beynəlxalq idman tədbirlərindən biridir. Yarış ilk dəfə 2016-cı ildə Bakıda keçirilib və həmin vaxt Avropa Qran-prisi adlandırılıb. 2017-ci ildən etibarən isə yarış "Azərbaycan Qran-prisi" adı ilə "Formula-1" təqviminin daimi mərhələlərindən birinə çevrilib.**











Yarışın keçirildiyi Bakı Şəhər Halqası (Baku City Circuit) 6,003 kilometr uzunluğundadır və 51 dövrədən ibarətdir. Trasın əsas xüsusiyyəti onun şəhərin mərkəzindən keçməsidir. Bolidlər Xəzər dənizinin sahili boyunca uzanan uzun və sürətli düzlüklərdən keçdikdən sonra İçərişəhərin dar küçələrinə daxil olurlar.

Bakı trasını digər "Formula-1" traslarından fərqləndirən əsas cəhətlərdən biri sürət və texniki dəqiqliyin eyni yarışda tələb olunmasıdır. Start-finiş düzündə yüksək sürət və ötmə imkanları yaranır, İçərişəhər ərazisində isə dar döngələr sürücülərdən maksimum diqqətli olmağı tələb edir. Xüsusilə 8-9-cu döngələr arasındakı dar hissə trasın ən çətin bölmələrindən hesab olunur.

Azərbaycan Qran-prisi artıq bir sıra yaddaqalan yarışlarla diqqət çəkib. 2017-ci ildə Daniel Rikkardo, 2018-ci ildə isə Lyuis Hemilton qalib gəlib. 2021-ci ildə Serxio Peres, 2024-cü ildə isə Oskar Piastri Bakıda finiş xəttini birinci keçib. 2025-ci il yarışında isə Maks Verstappen qalib olub.

2026-cı il Azərbaycan Qran-prisi Bakı Şəhər Halqasında 24-26 sentyabr tarixlərində keçiriləcək. Bu yarış Bakıdakı "Formula-1" tarixinin 10-cu Qran-prisi olacaq. Bundan əlavə, "Formula-1" Azərbaycanla müqaviləni 2030-cu ilin sonuna qədər uzadıb.

Azərbaycan Qran-prisi təkcə avtomobil yarışı deyil, həm də Bakının tarixi və müasir simasını dünyaya nümayiş etdirən böyük beynəlxalq tədbirdir. Müasir şəhər panoraması, İçərişəhərin tarixi ab-havası və Xəzər sahili boyunca yüksəksürətli yarış trası Bakını "Formula-1" təqvimində özünəməxsus məkanlardan birinə çevirir.

"Formula-1" Azərbaycan Qran-prisinin rəsmi saytında yayılan xəbərə görə, yarış zamanı şəhər sakinlərinin və sürücülərin rahatlığını təmin etmək üçün bir sıra əsas yollar müəyyən saatlarda nəqliyyatın hərəkəti üçün açıq olacaq.

Həmçinin, Üzeyir bəy Hacıbəyli və Puşkin küçələrinin kəsişməsindən Bülbül prospekti istiqamətində yeni tranzit dəhliz təşkil olunacaq.

Yarışla əlaqədar müəyyən ərazilərdə nəqliyyat məhdudiyyətləri də tətbiq olunacaq.

Son üç ilin təcrübəsinə əsasən, şəhər sakinlərinin və sürücülərin rahatlığı üçün yarış müddətində bəzi əsas yollar müəyyən saatlarda nəqliyyatın hərəkəti üçün açıq olacaq.

Belə ki, 22 sentyabrda aşağıda sadalanan giriş-çıxış nöqtələri səhər 07:00-dan 09:00-dək, axşam isə 18:00-dan 20:00-dək dayanma və durma olmadan nəqliyyatın hərəkəti üçün sərbəst olacaq.

23 sentyabrda isə qeyd olunan yollar səhər 07:00-dan 09:00-dək, axşam 20:00-dan 22:00-dək nəqliyyatın hərəkəti üçün açıq olacaq.

Giriş nöqtələri:

- Salyan şosesindən Neftçilər prospekti və Azneft dairəsi istiqamətində;
- M. Lermontov küçəsindən BMT-nin 50 illiyi küçəsi və İstiqlaliyyət küçəsi istiqamətində;
- Bülbül prospektindən sağa Zərifə Əliyeva küçəsi və düzünə Neftçilər prospekti istiqamətində;
- Nizami və Puşkin küçələrinin kəsişməsindən Xəqani küçəsi istiqamətində;
- Ü.Hacıbəyli və Puşkin küçələrinin kəsişməsindən Bülbül prospekti istiqamətində.

Çıxış nöqtələri:

- Neftçilər prospektindən Bakı Dəniz Limanı, Port Baku Mall və Crescent Mall istiqamətində;
- İstiqlaliyyət küçəsindən Azərbaycan prospekti istiqamətində;
- Neftçilər prospektindən Azneft dairəsi, Dəniz Mall və Salyan şosesi istiqamətində.

Qeyd olunan müddətdə ictimai nəqliyyat və ağır tonnajlı yük avtomobilləri istisna olmaqla, nəqliyyat vasitələrinin hərəkəti müəyyən edilmiş tranzit dəhlizləri vasitəsilə təmin olunacaq.

Tranzit dəhlizləri açıq olduğu müddətdə, fövqəladə hallar istisna olmaqla, nəqliyyat vasitələrinin parklanmasına, sərnişinlərin minməsi və enməsinə icazə verilməyəcək. Tranzit dəhlizlərində sürət həddi 50 km/saat olacaq.

***Dönməz ABBASOV***


## "Mehmanxana Şərq" ASC səhmdarlarının nəzərinə!

**"Mehmanxana Şərq"ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 21 oktyabr 2026-cı il tarixində saat 11:00-da, Nərimanov rayonu, Xətai prospekti, 15 ünvanında keçiriləcəkdir.**

**Gündəlikdəki məsələlər:**

1. İdarə Heyəti sədrinin dəyişdirilməsi.
2. Müşahidə Şurası üzvlərinin dəyişdirilməsi.
3. Digər məsələlər.

***Rəhbərlik***


# Hava proqnozu açıqlanıb

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı, zəif duman olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 20-22, gündüz 27-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 17-21, gündüz 29-34, dağlarda gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq.

## BEYNƏLXALQ HƏYAT

# Sudanda mədən çökməsi nəticəsində 11 nəfər ölüb, 30 nəfər yaralanıb

**Sudanın şimal-şərqində qızıl mədəninin çökməsi nəticəsində ən azı 11 nəfər ölüb, təxminən 30 nəfər yaralanıb. Dağıntılar altında itkin düşənlərin axtarışı davam edir. Bu barədə "Associated Press" agentliyi yerli hakimiyyət orqanlarına istinadən xəbər verir.**



Hadisə ölkənin şimal-şərqindəki ucqar Oni rayonunda baş verib. Şahidlərin sözlərinə görə, çökmə şənbə axşamı başlayıb. Dövlətə məxsus Sudan Mineral Resources Co şirkətinin nümayəndəsi bazar gününə qədər 11 qurbanın cəsədinin tapıldığını və daha 30 nəfərin xilas edildiyini bildirib.

Bu, Sudandakı qeyri-rəsmi qızıl mədənlərində bir həftə ərzində baş verən ikinci böyük çökmədir.

Daha əvvəl, sentyabrın 13-də ölkənin qərb hissəsində baş verən bir sıra mədən çökmələri nəticəsində ən azı 82 nəfər həlak olub.

# ABŞ və Çin ticarət və süni intellekt mövzularında konstruktiv məsləhətləşmələr aparıblar

**Amerika və Çin mediasının məlumatına görə, ABŞ maliyyə naziri Skott Bessent və Çin Baş nazirinin müavini He Lifen iki ölkə liderləri arasında keçiriləcək zirvə görüşündən əvvəl ticarət və süni intellekt məsələləri üzrə uğurlu məsləhətləşmələr aparıblar.**

Bessent Nyu-Yorkda səkkiz saatlıq danışıqlardan sonra jurnalistlərə bildirib ki, "Çin tərəfi ilə ticarət və süni intellekt mövzusunda çox uğurlu görüş keçirdik".

Sinxua agentliyi müzakirələri "səmimi, dərin və konstruktiv" adlandırıb.

Çin agentliyinin məlumatına görə, əvvəlki məsləhətləşmələr zamanı əldə edilən konsensusun həyata keçirilməsi, eləcə də ticarət və investisiyaların təşviqi ilə bağlı fikir mübadiləsi aparılıb və süni intellekt məsələləri də müzakirə olunub.

Öz növbəsində, Honq-Konqda çıxan gündəlik "South China Morning Post" qəzeti yazır ki, görüşdə ticarət və süni intellektin inkişafı sahələrində konkret təşəbbüslər müzakirə olunub.

Bessent qeyd edib ki, tərəflər məqsədlər və təhdidlər barədə ortaq bir anlayışa nail olmağa yönəlmiş süni intellekt mövzusunda dialoq qurmaq barədə razılığa gəliblər. İşçi qrupların məsləhətləşmələri davam etdirməsi gözlənilir.



Məsləhətləşmələr zamanı süni intellekt əsas mövzu olaraq qalacaq. "Bloomberg" qeyd edir ki, ABŞ Prezidenti Donald Tramp və Çin lideri Si Cinpin arasında bu ilin may ayında keçirilən son görüşdən bəri məhz süni intellekt iki ölkə arasında "münasibətlərdə yeni bir qaynar nöqtə"yə çevrilib.

Bundan əlavə, agentliyin mənbələrinə görə, ABŞ və Çin Amerika enerji və kənd təsərrüfatı məhsullarına tarifləri aşağı salmaq üçün çalışırlar.

Bundan əvvəl Bessent "X" sosial media platformasında D. Tramp və Si Cinpin arasında qarşıdan gələn görüşdən əvvəl He Lifen ilə ABŞ-Çin iqtisadi və ticarət münasibətlərini müzakirə etmək barədə yazmışdı.

Si Cinpinin sentyabrın 24-də Vaşinqtona səfəri gözlənilir.

# ABŞ Eritreya hakim partiyasına və ordusuna qarşı sanksiyaları ləğv etdi

**ABŞ Eritreya hakim partiyasına, ordusuna və bir sıra qurum və şəxslərə qarşı sanksiyaları ləğv edib. Bu barədə "Bloomberg" agentliyi xəbər verib.**



Məlumata görə, Demokratiya və Ədalət Xalq Cəbhəsi partiyası, onu dəstəkləyən şirkət Qırmızı Dəniz Ticarət Korporasiyası, Eritreya ordusu və Hidri Trust kampaniyasını sanksiyalar siyahısından çıxarıb.

Əvvəlki ABŞ administrasiyası 2021-ci ildə Efiopiyada sülh və sabitliyə təhdid, humanitar yardımın qarşısının alınması və ciddi insan haqları pozuntularını əsas gətirərək sanksiyalar tətbiq etmişdi. O dövrdə Eritreyanın da dəstəklədiyi Efiopiya federal hökuməti ilə Tiqray muxtar bölgəsinin hakimiyyəti arasında Tiqray müharibəsi (2020-2022) davam edirdi. Müşahidəçilər bu münaqişədə mülki şəxslərə qarşı bir çox cinayəti Eritreya qüvvələri ilə əlaqələndirirlər.

Lakin "Bloomberg" qeyd edir ki, Qırmızı dəniz sahilinin Eritreya hissəsi strateji əhəmiyyətə malikdir, əks sahildə isə Yəməndə husilər dənizdə gəmiçiliyə müdaxilə etməyə başlayıblar. Bu arada, Yaxın Şərqdəki münaqişə səbəbindən enerji təchizatçıları bağlanmış Hörmüz boğazına alternativlər axtarırlar.

***Hazırladı: Rizvan CƏFƏROV, "Azərbaycan"***

# İnsanabənzər robotlar erası başlayır: ötən il dünyada 7 min android satılıb

**İnsanabənzər robotlar bazarı inkişafının yeni mərhələsinə qədəm qoyur. 2025-ci ildə dünyada təxminən 7 min belə robot satılıb. Bununla belə, onların robototexnika bazarının ümumi həcmi içərisində payı hələlik cüzi olaraq qalır, genişmiqyaslı praktiki tətbiqi isə yenicə formalaşır.**

AZƏRTAC "Reuters" agentliyinə istinadla xəbər verir ki, Beynəlxalq Robototexnika Federasiyası (IFR) 2025-ci ilin yekunlarına əsasən, ilk dəfə insanabənzər robotları statistikasına daxil edib. Təşkilat bu kateqoriyaya zahirən insana bənzəyən və ilkin olaraq insanlar üçün nəzərdə tutulmuş mühitdə avtonom işləyə bilən robotları aid edir. Bu zaman robotların ayaqlarının olması məcburi şərt deyil, belə ki, onları təkərli platformalar da əvəz edə bilər.

Yeni seqmentin miqyası ənənəvi sənaye robototexnikası ilə müqayisədə xüsusilə nəzərə çarpır. 2024-cü ildə dünyada 4,66 milyondan çox sənaye robotu istismarda olub, yalnız bir il ərzində isə 542 mindən çox yeni robot quraşdırılıb. IFR-in 2025-ci il üzrə sənaye robotlarına dair məlumatları daha sonra açıqlanacaq.



Bununla belə, insanabənzər robotların hazırkı satış göstəriciləri onların istehsalatda geniş tətbiq olunması anlamına gəlmir. IFR-in məlumatına görə, ötən il satılan robotların əhəmiyyətli hissəsindən hələlik təlim, eksperiment və tədqiqat layihələrində istifadə olunur. Bu texnologiyanın əsas korporativ istifadəçilərindən olan avtomobil istehsalçıları, adətən, ayrı-ayrı müəssisələrdə bir neçə robotdan onlarla robotadək yerləşdirirlər. IFR üç onillikdir sənaye robotları bazarı üzrə statistika toplayır, lakin insanabənzər robotlar ilk dəfə 2025-ci ilin yekunlarına əsasən bu statistikaya daxil edilib.

Beləliklə, insanabənzər robotların hazırkı bazarı artıq genişmiqyaslı avtomatlaşdırmanın formalaşdığını deyil, daha çox eksperimental mərhələdən sənaye seqmentinin formalaşmasına keçidi əks etdirir. Burada əsas məsələ istehsal olunan robotların sayından daha çox texnologiyaların real istehsal şəraitində faydalı vəzifələri yerinə yetirmək və iqtisadi baxımdan geniş miqyasda tətbiq olunmaq qabiliyyətidir.

Eyni zamanda proqnozlar bazarın sürətlə böyüyə biləcəyini göstərir. "Bank of America Global Research" şirkətinin qiymətləndirməsinə görə, 2026-cı ildə dünyada təxminən 90 min insanabənzər robot tədarük edilə bilər ki, bu da əvvəlki illə müqayisədə təxminən 13 dəfə çoxdur. Proqnoza əsasən, 2030-cu ilədək tədarük həcmi 1,2 milyon ədədə çata bilər.

Bununla yanaşı, IFR-in statistikası yalnız korporativ sektorda mülki məqsədlər üçün nəzərdə tutulan insanabənzər robotları əhatə edir. Şəxsi, hərbi və tibbi məqsədlər üçün istifadə olunan robotlar bu göstəricilərə daxil edilmir.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3314
Sifariş 1228

Qiyməti 60 qəpik